# MÖHTƏŞƏM FƏRMAN

## İslam İnqilabının Böyük Rəhbərinin 2010-cu ilin payızında Qum şəhərinə səfəri zamanı etdiyi çıxışlar

**Tərcümə edən: Əlirza Sərablı**

Kitabın adı:...........................Möhtəşəm fərman
Tərcümə edən:........................... Əlirza Sərablı
Nəşr edən:.................................."Üfüqe-fərda"
Çap tarixi:................................................2013
Çap növbəsi:.........................................Birinci
Tiraj:.......................................................3000

# Möhtəşəm qarşılama

**Qum əhalisinin böyük toplantısı; Qarşılama mərasimi**

**19 Oktyabr 2010**

Bismillahir-Rəhmanir-Rəhim.

Həmd və səna aləmlərin Rəbbinə məxsusdur. Ağamız və peyğəmbərimiz Əbülqasim Məhəmməd Mustafaya və onun pak, seçilmiş, hidayət edən və məsum ailəsinə, xüsusən də Allahın Yer üzündə saxladığı (İmam Mehdiyə) salavat və salam olsun!

Həzrət İmam Rzanın (ə) mübarək təvəllüdü, həmçinin kəramət ongünlüyü və həzrət Fatimə Məsumənin (ə) təvəllüdü münasibəti ilə sizi təbrik edirəm.

Allah-Taalaya şükür edirəm ki, mənim üçün xatirələrlə dolu olan əzəmətli Qum şəhərində siz əziz əhali ilə yenidən görüşməyi mənə nəsib etdi.

## *Qum şəhərinin mövqeyi və keçmişi*

Qum şəhəri elm, cihad və agahlıq şəhəridir. Otuz ildən artıq sürən bu müddətdə Qum əhalisinin agahlığı həmişə özünü göstərən çox əhəmiyyətli faktorlardan biri olmuşdur.

## *Qumun formalaşmasında cihad və agahlıq elementlərinin rolu*

Maraqlıdır ki, Qum şəhərinin yaranması da agahlıqla yanaşı olan bir cihad hərəkətindən irəli gəlmişdir. Yəni Əşərilər tayfası gəlib bu yerdə sakin olanda əslində buranı Əhli-beyt (ə) təlimlərini yaymaq üçün mərkəzə çevirdilər; burada mədəni bir cihad başlandı. Əşərilər Quma gəlməzdən öncə döyüşmüş, hərbi cihad da etmişdilər. Əşərilərin başçısı cənab Zeyd ibn Əlinin (ə) qiyamında mübarizə aparmışdı. Bu səbəbdən Həccac ibn Yusifin onlara qəzəbi tutdu, onlar

məcbur olub buraya gəldilər, öz fəaliyyətləri, agahlıqları və elmləri ilə bu bölgəni elm mərkəzi etdilər. Məhz buna görə həzrət Fatimə Məsumə bu tərəfə gələndə Qumu görmək istədi; Əşəri böyüklərinin burada olduğuna görə. Onlar xanımı qarşılayıb bu şəhərə gətirdilər və bu nurlu məqbərə o zamandan - o həzrətin vəfatından sonra bu şəhərdə işıq saçmağa başladı. Bu əzəmətli mədəni hərəkəti yaradan Qum əhalisi o zamandan bu şəhərdə Əhli-beyt (ə) təlimlərinin mərkəzini yaratdılar, yüzlərlə alimi, hədisşünası, təfsirçini, İslam və Quran hökmlərini bəyan edən alimləri İslam dünyasının şərqinə və qərbinə göndərdilər. Elm Qumdan Xorasanın, İraqın və Şamın ucqar yerlərinə qədər yayıldı. Bu, Qum əhalisinin ozamankı agahlığıdır. Qum cihad və agahlıq əsasında yarandı.

## *Qum - müasir dövrün elm, cihad və agahlıq mərkəzi*

Müasir dövrdə də həmin xüsusiyyətlər mövcuddur; yəni Qum ən üstün dini və ilahi təlimlərin mərkəzidir, mücahidlik, agahlıq və böyük alimlərin sükunəti sayəsində burada İslam dünyasının şərqinin və qərbinin bəhrələndiyi bir bulaq çağlayır.

## *İnqilabdan öncəki həssas dönəmlərdə Qum əhalisinin rolu*

Mən iki mühüm dönəmi yada salmaq istəyirəm. Bu iki dönəmdə qumlular həqiqətən təsirli və həmişəyaşar rol ifa etdilər:

## *1963-cü ilin 15 Xordad (5 İyun) hadisəsi*

Biri 1963-cü ilin Aşura günü və ondan iki gün sonra baş verən 15 Xordad (5 İyun) hadisəsidir. Qum əhalisi Aşura günü

bu Feyziyyə mədrəsəsinə toplaşıb İmamın fəryadını dinlədi, ruhunu doyurdu, iki gündən sonra Böyük İmamın saxlanması xəbərini eşitdikdə isə müqəddəs məqbərəyə toplaşdılar. Onların bu möhtəşəm hərəkəti Böyük İmamımızın rəhbərlik etdiyi ruhani hərəkatının hövzənin divarları arxasında qalmamasına və cəmiyyətə çıxmasına bais oldu. Bu işin avanqardı qumlular oldular; onlar bu böyük işi gördülər.

## *1977-ci ilin izdihamlı mitinqi*

Başqa bir dönəm 1977-ci ildir. O zaman Böyük İmamı təhqirə dair düşmən təxribatının əsl mahiyyətini dərk etdilər, məsələnin nə olduğunu anladılar; çünki məsələ yalnız təhqirlə bitmirdi. Həmin vaxt Qum şəhərində sözügedən xəyanətkar hərəkət əleyhinə izdihamlı xalq yürüşü təşkil olundu. Bu xiyabanlarda - İrəm xiyabanında, Çahar mərdan xiyabanında qumlu gənclərin qanı töküldü. Onlar canlarını verdilər, öz qanları ilə sözlərinin doğruluğunu sübuta yetirdilər.

## *İnqilabdan sonrakı dövrdə Qum əhalisinin rolu*

İnqilabın qələbəsindən sonrakı bu otuz il boyu bu xalq bütün dönəmlərdə ixlasla, sədaqətlə, səmimiyyətlə və nümunəvi agahlıqla meydana atılmışdır. Düşmənin Qum haqda proqramı və layihəsi vardı. Əgər Qum əhalisi sayıq olmasaydı, agah olmasaydı, düşmənlərin Quma dair təhlükəli layihələri çox ziyan vuracaqdı. Xalqın sayıqlığı və bu şəhərdə elmi hövzənin olması onun agahlıq mərkəzinə çevrilməsinə bais oldu.

## Qum - alimlərin və elmi hövzənin sığınacaq yeri

Elmi hövzənin təsisçisi olan mərhum Ayətullah Hairinin dövründən bu şəhərdə böyük təqlid müctəhidləri olmuşdur; mərhum Ayətullah Bürucerdi, mərhum Ayətullah Gülpayiqani, mərhum Ayətullah Əraki, mərhum Ayətullah Mərəşi, mərhum Ayətullah Bəhcət. Bu gün də Allaha şükür olsun ki, bu şəhərdə böyük təqlid müctəhidləri və görkəmli din alimləri var. Elmi hövzə xeyir-bərəkət amilidir. Doğruçu, agah və Allah yolunda mücahid olan bu şəhər hövzənin qədrini bildiyini, ruhaniliyin qədrini bildiyini, lazımi yerdə meydana atıldığını göstərmişdir. Bu şəhər dövrün böyük insanı olan həzrət İmam Xomeyninin hərəkata başladığı yer olduğuna görə inqilabın mərkəzinə və ümidinə çevrilmişdir. Bizim bu izdiham qarşısında çıxış müddətimiz məhduddur. Təəssüf ki, gələrkən xalqın sevgisi üzündən küçələrdə çox gecikdik; odur ki, vaxt ötmüşdür. Mən yalnız bir neçə qısa cümlə deyəcəyəm.

## Qum - inqilabın vətəni və mərkəzi

Əvvəla Qum inqilabın vətənidir; ölkənin ən dindar şəhəri və müasir dövrün ən böyük inqilabının mərkəzi və vətənidir. Bunun mənası nədir? Bunun mənası odur ki, bütün dünya bu inqilabın dini bir inqilab olduğunu bilsin. Bu inqilab barədə heç bir yanlış və materialist təhlil yürütmək olmaz. Onun vətəni Qumdur, rəhbəri bir fəqih, filosof, böyük bir alim və ruhanidir. İnqilab bütün dünyada belə tanınmışdır. Bu, bir məsələ.

# *İnqilaba zərbə vurmaq üçün düşmənin səyi*

## Düşmənin hücum etdiyi əsas nöqtələr

Bu sözün davamı odur ki, düşmənlər bu müddət ərzində bu inqilaba və quruluşa zərbə vurmaq istəyəndə onların hücumlarının hədəfi nə olmuşdur? İki mühüm nöqtə düşmən hücumlarının hədəfi olmuşdur: biri din, biri isə xalq və onun vəfadarlığı.

# Din

## *İnqilabı qorumaqda dinin rolu*

### Dinin zalım qarşısında mübarizə və müqavimətə həvəsləndirməsi

Bilirlər ki, bu inqilab dini inqilab olmasaydı, dirəniş gücü olmazdı. Çünki öz ardıcıllarına zülmə tabe olmağı qadağan edən, onları zülmlə mübarizəyə həvəsləndirən, insanların həyatına ədalət, azadlıq, mənəviyyat və inkişaf təklif edən dindir. Bu, dinin xüsusiyyətidir. Deməli, dinə əsaslanan bir quruluşun düşmənlərin, hegemonların və artıqtamahların təzyiq və şiddətinə tabe olması mənasızdır. Əgər bu inqilabda din elementi olmasaydı, inqilabın məsul şəxslərinin və rəhbərlərinin düşməndən bir imtiyaz almaqla güzəştə getmələri və düşmənin istismarına yenidən yol açmaları mümkün idi. Amma dinin bu inqilabın fəqərə sütunu olduğuna görə indiyədək belə bir şey baş verməmişdir və bundan sonra da baş verməyəcək.

## *Allahın vədinə etimad, müqavimət və ağıllı idarəçilik - Allahın yardımının təminatçısı*

Bizim əziz imamımızın bizə və bütün xalqa böyük dərsi bu idi; öz gücünüzə inanın, bu gücü daim artırmağa çalışın, Allah-Taalaya və Onun vədinə etimad edin. Əgər müqavimət göstərib ağılla hərəkət etsəniz, əmin olun ki, Allahın yardımı sizinlə olacaq. Bu, xalqın dindar olmasına, inqilabın və İslam quruluşunun dini inqilab və quruluş olmasına görədir.

## *Xalq və onların quruluşa vəfadarlığı*

### İnqilabın xalq inqilabı olmasının mənası

Xalq inqilabı o deməkdir ki, bu inqilab xalq tərəfindən vəfadarlıqla himayə olunur. İslam quruluşu xalq tərəfindən təsdiqlənir və tam dəstəklənir. Bu da bu müddətdə təsdiq olunmuşdur.

### *İnqilabın xalq inqilabı olmasının səmərələri*

Əgər xalq olmasaydı, əgər xalqla quruluş arasında uçurum yaransaydı, quruluş düşmənlərin qarşısında müqavimət göstərə bilməzdi. Məsul şəxslərin müqavimət dayağı xalqın bu möhkəm dəstəyidir. Bunlar iki əsas cəhətdir: din və xalq. Odur ki, düşmən də bunları öz hücumlarının hədəfi seçmişdir; dini bir formada, xalqın vəfadarlığını və etiqadını da bir formada.

## *İnqilabla mübarizədə düşmənin hiylələri*

### Cəmiyyətdə dini zəiflətmək üçün hiylələr

Siz görürsünüz ki, 1980-cı illərdən və imamın bərəkətli həyatı dövründən istər xarici düşmənlər, istər onların daxildəki muzdurları, yaxud muzdsuz və minnətsiz nökərləri din müqəddəslərini, din həqiqətlərini, İslam hökmlərini şübhə altına salır və inkar edirlər. Bu, təsadüfi hal deyil. Bunun üzərində təkidlə dayanmışlar. Bu məsələ Salman Rüşdi ilə başlayıb Hollivudun antiislam filmləri ilə, karikaturlarla, Quran yandırmaqla və o tərəf-bu tərəfdə İslam əleyhinə müxtəlif hadisələrlə davam etdi. Məqsəd xalqın İslama və İslam müqəddəslərinə imanını azaltmaqdır. Ölkə daxilində xalqın, xüsusən də gənc nəslin imanının təməllərini müxtəlif yollarla zəiflətməyə çalışırlar; cinsi özbaşınalığı, mütləq halallığı yaymaqdan tutmuş həqiqi irfanın saxta formasının, yalançı irfanların təbliğinə, Bəhailiyin və ev kilsələri

şəbəkəsinin təbliğinə qədər. Bunlar bu gün İslam düşmənlərinin araşdırması, siyasəti və proqnozu əsasında görülən işlərdir. Məqsəd isə məhz dini zəiflətməkdən ibarətdir.

## *Düşmənin xalqın quruluşa vəfadarlığını zəiflətməyə yönəlik hiylələri*

Xalqın quruluşa vəfadarlığını zəiflətmək üçün çoxlu işlər görürlər; xalqı ölkə məmurlarına, icra, qanunverici və məhkəmə hakimiyyətlərinin başçılarına ümidsiz etmək üçün şayiə yayırlar, bədbinlik toxumu səpirlər, ölkədə görülən hər bir dəyərli və yaxşı işi müxtəlif təbliğat vasitələrində şübhə altına salırlar, mənfi cəhətləri bir neçə dəfə böyüdür, müsbət cəhətləri isə gizlədirlər. Məqsəd xalqı, xüsusən də gənc nəsli ümidsiz etməkdir. Xalqı səhnədən çıxarmaq üçün gənc nəslin və xalqın qarşısındakı gələcəyi qaranlıq göstərirlər. Lakin əsas məsələ budur ki, İran xalqının və İslam quruluşunun düşmənlərinin otuz ildən artıq sürən bu müddətdə hər iki sahədə gördükləri bütün işlər ziyanlarına olmuşdur; nəticə əldə etməmiş və qəti məğlubiyyətə uğramışlar. Onlar elə bilirdilər ki, xalqı İslam quruluşundan ayıra bilərlər.

## *Düşmənin məğlubiyyətinin əlamətləri*

### Xalqın dini inancının və agahlığının artması

Hər gün ötdükcə xalqın dini məsələlərlə və mənəvi dəyərlərlə rabitəsinin artdığını görürsünüz. Bizim ölkəmizdə nə zaman mənəvi mərasimdə - ramazan ayının, yaxud Fitr bayramının ibadət mərasimlərində bu qədər gənc iştirak etmişdir?! Xalqın bu möhtəşəm toplantıları, siyasi məsələlərdə bu aydın baxışı keçmişdə olmamışdır. 2009-cu ilin Aşura günü təhrik olunmuş bir qrup tərəfindən İmam Hüseynə (ə) edilən hörmətsizlikdən iki gün ötməmiş xalq 9 deydə (30

dekabrda) küçələrə çıxıb öz mövqeyini açıq şəkildə ortaya qoydu. Düşmən əlləri və təbliğatı xalqı nəinki dini hisslərindən uzaqlaşdıra bilmədi, hətta bu hisslər günbəgün daha gücləndi və bu inam daha dərinləşdi.

## *Xalqın seçkilərdə qırx milyonluq iştirakı və iğtişaş qarşısında müqaviməti*

Şübhəsiz ki, düşmən xalqı İslam quruluşundan ayırmaqda iflasa uğramışdır. Ötən ilki seçkilərdə ölkənin qırx milyon əhalisi iştirak etdi; əslində İslam Respublikası quruluşunun və seçkilərin xeyrinə qırx milyonluq bir referendum keçirildi. Düşməni qəzəbləndirən bu idi. İğtişaşla onun təsirini məhv etmək istədilər, amma bacarmadılar. Xalq iğtişaşın qarşısında da dayandı.

## *2009-cu il iğtişaşlarının antidin təbliğatının və siyasi mikroblarının təsirsiz olması*

2009-cu il iğtişaşı ölkəni vaksinlədi, xalqı siyasi və ictimai mikroblar əleyhinə hazırladı, xalqın agahlığını artırdı. Ötən illərdə ölkənin bəzi mətbu orqanlarında elm və dərk iddiası edən bəzi şəxslər din əleyhinə, İslam əsasları əleyhinə bəzi sözlər yazırdılar; bunlar da xalqa təsir etmədi.

## *Düşmənlərin dinə hücumunda əsas məsələlər*

Buna diqqət yetirin. Düşmənlər dinə dair iki əsas məsələni izləyirlər; çünki bu iki amilin xalqın həyatına nə qədər təsirli olduğunu görmüşlər:

## *Ruhanisiz İslamın təbliği*

Biri ruhanisiz İslam məsələsidir; çünki ruhaniliyin İran cəmiyyətinə necə böyük təsir göstərdiyini və xalq hərəkatında

hansı rolu oynadığını görmüşlər. Əlbəttə, inqilabdan öncə də belə zümzümələr edirdilər. Ruhanilərin inqilabda iştirakı və öncüllüyü bu məsələni müvəqqəti olaraq gündəmdən çıxardı, amma sonra yenə başladılar.

## *Dinin siyasətdən ayrılığı*

Biri də siyasətsiz İslam məsələsidir, dinin siyasətdən ayrılığıdır. Bunlar bu gün mətbuatda, yazılarda və internetdə çox israrla təbliğ edilən məsələlərdir. Bu məsələlər onlar üçün əhəmiyyətlidir.

## *Mübarizə zamanı düşmənin mərkəzləşdiyi nöqtəyə diqqət yetirmək*

Buna diqqət yetirməliyik. Düşmənin təkidlə dayandığı, düşmənin yol xəritəsinin və ümumi proqramının mərkəzləşdiyi nöqtələr bizim üçün də ümumi bir proqram və yol xəritəsi verə bilər. Biz diqqət yetirməli, onların hədəf seçdiyi amilləri qorumalı olduğumuzu dərk edib, həmin amillər üzərində dayanmalıyıq: xalqın iştirakı, din və İslam təlimləri.

## *Ölkəmiz əleyhinə embarqoların sərtləşməsinin səbəbi*

1979-1980-ci illərdən bizim ölkəmiz əleyhinə embarqolara başlayıblar. Lakin embarqoların belə sərtləşdirilməsi əslində xalqa sıxıntı yaratmaq və onu İslam quruluşundan ayırmaqdan ötrüdür. Xoşbəxtlikdən həm rəsmi şəxslər dedilər, həm xalq elan etdi və əməldə də göstərildi ki, Allahın yardımı ilə bu embarqolar xalqın həyatına nəzərəçarpacaq təsir göstərməyəcək. Səksəninci illərin və inqilabın ilk çağının zəhmət və problemlərinə dözmüş xalq bugünkü möhtəşəm inkişaflarla daha arxayındır, gələcəyə ümidi daha çoxdur və

düşmənin qarşısında dayanıb onun təxribatını zərərsizləşdirəcəkdir.

## *Düşmənin hiylələri qarşısında quruluşun davranış qaydaları*

**1. Milli sözbirliyi**

Möminlərin namazı ilk vaxtda qıla bilməsindən ötrü mən düşmənin planına əsasən öz rəftarımız üçün ixtisarla bir neçə qayda deyəcəyəm. Bir məsələ milli sözbirliyi məsələsidir. Bu söz həm nüfuzlu şəxsiyyətlərə, həm də bütün xalqa aiddir. Vəhdət məsələsinə ciddi yanaşmaq lazımdır. Mən xalqın sözbirliyi barəsində çox danışmış, xüsusiyyət və meyarlarını demişəm. İnsanın yalnız “biz birlik tərəfdarıyıq” – deməsi kifayət etmir; bunun meyar və əlamətləri var.

## *2. Xalqın və nüfuzlu şəxsiyyətlərin icra, qanunverici və məhkəmə hakimiyyətləri ilə həmrəyliyi*

Başqa bir məsələ xalqın və nüfuzlu şəxsiyyətlərin icra, qanunverici və məhkəmə hakimiyyətləri ilə güclü həmrəyliyidir. Ölkənin bu üç hakimiyyəti ilə birlik günbəgün möhkəmlənməlidir; gərək kömək olunsun. Xüsusən icra hakimiyyətinin işləri çox ağırdır. Şayiə yaymaq və zəhmətləri görməzdən gəlmək əsla ölkə işlərinin və ölkənin gələcəyinin xeyrinə deyil.

## *3. Dini inancı gücləndirmək və gənc nəslin suallarına cavab vermək*

Üçüncü məsələ dini inancı gücləndirmək, gənc nəslin suallarına cavab vermək və onların düşüncə ehtiyaclarını təmin etməkdir. Bu əsasən ruhanilərə və elmi hövzələrə aiddir.

Daim şübhə yayırlar. Şübhələrə intensiv və gündəm şəkildə cavab verilməlidir.

## 4. Ruhaniliyi düzgün tanıtdırmaq

Dördüncü məsələ ruhaniliyi düzgün və layiqli tanıtdırmaqdır. Bu yalnız ruhanilərin özlərinin vəzifəsi deyil. Ziyalılar və məlumatlı insanlar ölkədə ruhaniliyin rolunu, ruhaniliyin, xüsusən də böyük təqlid müctəhidlərinin və elmi hövzə böyüklərinin həssas dönəmlərdə cəmiyyəti hansı problemlərdən və çətin keçidlərdən keçirdiyini deyə bilərlər.

## 5. Agahlığı artırmaq və düşməni tanımaq üçün gənclərin səyi

Başqa bir məsələ gənclərin agahlığı artırmağa səy göstərməsidir. Gənclərin özləri buna çalışa bilərlər. Düşməni və onun üsullarını öyrənmək lazımdır. Bu, gənclərin özlərinin üzərinə düşür.

## 6. Ölkənin ümumi elmi xəritəsi istiqamətində hərəkət etmək

Bizim bugünkü lazımlı işlərimiz arasında növbəti mühüm məsələ elmin inkişafı və ölkənin ümumi elmi xəritəsi istiqamətində hərəkət etməkdir. Bu iş Allaha şükür olsun ki, beş-altı ildir yaxşı başlamış və böyük nailiyyətlər əldə olunmuşdur. Daha artıq çalışmaq və bu hərəkəti daha da sürətləndirmək lazımdır. Başqa bir sürətli hərəkət də elmi hövzələr daxilində başlamalıdır. İnşallah bu barədə elmi hövzənin üzvü olan dostlarla, qardaş və bacılarla söhbət edəcəyik.

## 7. Xalqa problem yaradan amilləri aradan qaldırmağa çalışmaq

Müraciət və məsuliyyət tərəfi hökumətdən ibarət olan digər mühüm iş xalqı narazı salan və onun üçün problem yaradan amillərin aradan qaldırılmasına çalışmaqdır: məişət məsələsi, işsizlik məsələsi, idarə sistemləri, qurumların vəzifəli şəxsləri, xüsusən də yüksək rütbəli məmurlar məsələsi, meriyalar, polis və sair; onlar xalqla birbaşa ünsiyyətdədirlər və xalqın çoxlu problemlərini aradan qaldıra, yaxud Allah eləməmiş, narazılıq yarada bilərlər. Buna əsasən, idarələr müxtəlif məsələlərə əhəmiyyətli yanaşsınlar, bir-biri ilə əlaqələri və həmkarlıqları olsun, ixtilaf yaranmasın. Bu da dövlət qurumlarına aiddir.

# Qum şəhərinin milli və transmilli imkanları

### Qum - inqilabın vətəni

Qum şəhəri barədə bir neçə cümlə deyim. Qum inqilabın vətənidir; bizim ölkəmizin və bütün dünyanın bu əzəmətli hadisəsinin və bu böyük tarixi fenomenin meydana çıxdığı yerdir. Quma transmilli baxış xüsusi bir məsələdir; müxtəlif ölkələrdən buraya get-gəl edilməsindən başqa bir mövzudur. Müxtəlif səbəblərdən get-gəl etməyənlər də bu şəhərə qarşı həssasdırlar, ona qarşı özəl maraqları var, bu şəhərin hadisələrini izləyirlər. Sizin bugünkü əzəmətli toplantınız da diqqət mərkəzindədir. Ola bilsin mediaya çıxarmasınlar, deməsinlər, amma siyasəti təyin edən şəxslər görürlər, hesablayırlar və beynəlxalq nöqteyi-nəzərdən baxırlar.

## İslam dünyasının ən böyük elmi hövzəsi

İslam dünyasında İslam elmlərinin ən böyük elmi hövzəsi bu şəhərdədir. Heç bir elmi hövzə Qum Elmi Hövzəsinə çatmır.

## *Həzrət Məsumənin pak məqbərəsi*

Bura ziyarət və mənəviyyat ocağıdır. Burada həzrət Məsumənin möhtəşəm məqbərəsi vardır.

## *Müqəddəs Cəmkəran məscidi*

Müqəddəs Cəmkəran məscidi burada yerləşir.

## *Hörməti vacib olan imamzadələr*

Bu şəhərdə müxtəlif imamzadələrin məqbərəsi vardır. Qumun küçələrində dəfn olunan bu imamzadələrin hər biri hansı şəhərdə olsaydılar, o şəhərin mərkəzi və mehvəri olardılar. Bunların hamısı bu müqəddəs şəhərin milli və transmilli imkanları və funksiyalarıdır.

## *Qum şəhərinin çatışmazlıqlarını aradan qaldırmaq üçün məmurların ciddi səyi*

### Qumda mövcud olan çoxlu çatışmazlıqların səbəbi

Qum tağut dövründə hökumətin qəzəbinə tuş gəldiyindən təəssüf ki, onun çoxlu çatışmazlıqları vardır. Möhtərəm məmurlar bu çatışmazlıqları ciddi şəkildə və sürətlə aradan qaldırsınlar.

## *Görülən yaxşı işləri təkmilləşdirmək*

Düzdür, inqilabdan sonra çoxlu işlər görülmüşdür. Şəhərin vilayətə çevrildiyi 2000-ci ildən bu yana ona çoxlu büdcələr ayrılmışdır. Mənə məlumat verdilər ki, 2005-ci ildən etibarən bu şəhərdə maksimum büdcələr xərclənmişdir. Odur ki, çox yaxşı işlər görülmüşdür. Lakin bu işlərin hamısı təkmilləşdirilməli və bu şəhər həm xalqın ehtiyacları, həm də gözəllik baxımından Qum əhalisinə layiqli şəkildə inkişaf

etməlidir. Əgər bu çatışmazlıqların aradan qaldırılmasını istəyiriksə, aktiv çalışmaq lazımdır.

## *Qumun əsas ehtiyacları*

### 1. Su məsələsi

Bu şəhərin ən mühüm ehtiyaclarından biri su məsələsidir. Bir neçə ildir bu məsələ ilə ciddi məşğul olmuş və çox yaxşı işlər görmüşlər. Biz görülmüş işlərdən ötrü bu sahədə çalışan şəxslərə təşəkkür etməliyik, lakin onlardan istəyirik ki, uzaq Dez bulağından Quma gətirilən suyu imkan daxilində tez çatdırsınlar, Qum xalqının bu əsaslı və böyük ehtiyacı təmin olunsun.

### *2. Əkinçilik*

Qumun əkinçilik məsələsi də mühüm məsələdir. Eşitdim ki, Tehrandan Müseylə bölgəsinə su çəkilməsi və bir zaman bu bölgələrdə çox inkişaf etmiş Qum əkinçiliyinin inşallah yenidən rövnəqlənməsi nəzərdə tutulub.

### *3. Əl işləri*

Qumun əl işlərinin, xüsusən də məşhur xalçasının rövnəqlənməsinə kömək göstərilməlidir. Biz inşallah bu səfərdə məsul şəxslərə lazımi tövsiyələri edəcəyik.

### *4. Memarlıq və şəhərsalma*

Mənim təkid etdiyim digər məsələ Qumun memarlıq və şəhərsalma işləridir. Bu gün Qumda böyük işlər görülür, tikinti işləri aparılır. Bu işlərdə İslam memarlığı mütləq nəzərə alınmalıdır. Bu şəhərin memarlıq işlərində inqilab simvolları müşahidə olunmalıdır; çünki bura İslam və inqilab şəhəridir.

## *Xalqın narazılığına səbəb olan və onlar üçün problem yaradan amillərin aradan qaldırılmasına çalışmaq*

Son söz budur ki, bu şəhərdə möhtərəm məmurların hansısa məsələdə fikir ayrılığı varsa, bunun xalqın məişət vəziyyətinə təsir göstərməsinə və onlara problem yaratmasına qoymasınlar. Müxtəlif qurumların bir-biri ilə fikir ayrılığı var. Bu fikir ayrılıqlarının xalqın məişət vəziyyətinə təsir göstərməsi mümkündür. Mən burada bunları qeyd etmişəm, daha demirəm. Lakin ümumi tövsiyəm budur ki, hamı əl-ələ versin, dövlət məmurları həmkarlıq və əməkdaşlıqla xalqa xidmət göstərsinlər, xalq da onları dəstəkləsin və xoşbəxtlikdən həmişə göstərdikləri bu möhtəşəm fəallıqla bu dövrdə bu ölkədə görülmüş işi sona çatdıra və onun faydalarını İslam dünyasına göstərə bilsinlər.

İlahi! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, bu əziz xalqa və bütün İran xalqına öz bərəkətlərini nazil et! İlahi! Bizi bu əzəmətli hərəkəti buraya çatdıran şəxslərin əmək və zəhmətlərinin qədrini bilən et! İlahi! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, bizi İslamın həqiqi əsgərləri et! Ölkənin əziz məmurlarına və xidmətçilərinə uğur və yardım bəxş et! Öz uğur və yardımınla xalqa köməyi və xidməti onlara asanlaşdır! Dövrün İmamının müqəddəs qəlbini bizdən razı et! Bizi o həzrətin hüzuru və qeybi dövründə köməkçilərindən et!

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!

# İslam İnqilabının Böyük Rəhbərinin Qum əhalisinin böyük qarşılama mərasimindəki tələbləri

## *1. Düşmənin hücum etdiyi əsas məsələlərə diqqət; "Ruhanisiz İslamın təbliği" və "Dinin siyasətdən ayrılığı".*

Buna diqqət yetirin. Düşmənlər dinə dair iki əsas məsələni izləyirlər; çünki bu iki amilin xalqın həyatına nə qədər təsirli olduğunu görmüşlər: biri ruhanisiz İslam məsələsi, biri də siyasətsiz İslam və dinin siyasətdən ayrılığıdır.

## *2. Düşmənin mərkəzləşdiyi nöqtəyə diqqət yetirmək*

Buna diqqət yetirməliyik. Düşmənin təkidlə dayandığı, düşmənin yol xəritəsinin və ümumi proqramının mərkəzləşdiyi nöqtələr bizim üçün də ümumi bir proqram və yol xəritəsi verə bilər. Biz diqqət yetirməli, onların hədəf seçdiyi amilləri qorumalı olduğumuzu dərk edib, həmin amillər üzərində dayanmalıyıq: xalqın fəallığı, din və İslam təlimləri.

## *3. Milli sözbirliyi*

Bu söz həm nüfuzlu şəxsiyyətlərə, həm də bütün xalqa aiddir: Vəhdət məsələsinə ciddi yanaşmaq lazımdır.

## *4. Xalqın və nüfuzlu şəxsiyyətlərin icra, qanunverici və məhkəmə hakimiyyətləri ilə həmrəyliyi*

Ölkənin bu üç hakimiyyəti ilə birlik günbəgün möhkəmlənməlidir; gərək kömək olunsun. Xüsusən icra hakimiyyətinin işləri çox ağırdır.

## *5. Ruhanilər və elmi hövzələr vasitəsilə dini inancı gücləndirmək, gənc nəslin suallarına və şübhələrinə cavab vermək*

Üçüncü məsələ dini inancı gücləndirmək, gənc nəslin suallarına cavab vermək və onların düşüncə ehtiyaclarını təmin etməkdir. Bu əsasən ruhanilərə və elmi hövzələrə aiddir. Daim şübhə yayırlar. Şübhələrə intensiv və gündəm şəkildə cavab verilməlidir.

## *6. Ruhaniliyi düzgün tanıtdırmaq*

Dördüncü məsələ ruhaniliyi düzgün və layiqli tanıtdırmaqdır. Bu yalnız ruhanilərin özlərinin vəzifəsi deyil. Ziyalılar və məlumatlı insanlar ölkədə ruhaniliyin rolunu, ruhaniliyin, xüsusən də böyük təqlid müctəhidlərinin və elmi hövzə böyüklərinin həssas dönəmlərdə cəmiyyəti hansı problemlərdən və çətin keçidlərdən keçirdiyini deyə bilərlər.

## *7. Agahlığı artırmaq və düşməni tanımaq üçün gənclərin səyi*

Başqa bir məsələ gənclərin agahlığı artırmağa səy göstərməsidir. Gənclərin özləri buna çalışa bilərlər. Düşməni və onun üsullarını öyrənmək lazımdır. Bu, gənclərin özlərinin üzərinə düşür.

## *8. Ölkənin ümumi elmi xəritəsi istiqamətində hərəkət etmək*

Növbəti məsələ elmin inkişafı və ölkənin ümumi elmi xəritəsi istiqamətində hərəkət etməkdir.

## *9. Xalqa problem yaradan amilləri aradan qaldırmağa çalışmaq*

Müraciət və məsuliyyət tərəfi hökumətdən ibarət olan digər mühüm iş xalqı narazı salan və onun üçün problem yaradan amillərin aradan qaldırılmasına çalışmaqdır: məişət məsələsi, işsizlik məsələsi, idarə sistemləri, qurumların vəzifəli şəxsləri, xüsusən də yüksək rütbəli məmurlar məsələsi, meriyalar, polis və sair; onlar xalqla birbaşa ünsiyyətdədirlər və xalqın çoxlu problemlərini aradan qaldıra, yaxud Allah eləməmiş, narazılıq yarada bilərlər.

## *10. Qumun əsas ehtiyacları:*

### a) Su problemi

Bu şəhərin ən mühüm ehtiyaclarından biri su məsələsidir. Biz bu işlə məşğul olanlardan istəyirik ki, uzaq Dez bulağından Quma gətirilən suyu imkan daxilində tez çatdırsınlar, Qum xalqının bu əsaslı və böyük ehtiyacı təmin olunsun.

### b) Əkinçilik

Qumun əkinçilik məsələsi də mühüm məsələdir. Eşitdim ki, Tehrandan Müseylə bölgəsinə su çəkilməsi və bir zaman bu bölgələrdə çox inkişaf etmiş Qum əkinçiliyinin inşallah yenidən rövnəqlənməsi nəzərdə tutulub.

### c) Əl işləri

Qumun əl işlərinin, xüsusən də məşhur xalçasının rövnəqlənməsinə kömək göstərilməlidir.

### ç) Memarlıq və şəhərsalma

Mənim təkid etdiyim digər məsələ Qumun memarlıq və şəhərsalma işləridir. Bu gün Qumda böyük işlər görülür, tikinti işləri aparılır. Bu işlərdə İslam memarlığı mütləq nəzərə alınmalıdır. Bu şəhərin memarlıq işlərində inqilab simvolları müşahidə olunmalıdır; çünki bura İslam və inqilab şəhəridir.

### *d) Məmurların fikir ayrılığının xalqın məişət vəziyyətinə təsir göstərməsinin qarşısını almaq*

Son söz budur ki, bu şəhərdə möhtərəm məmurların hansısa məsələdə fikir ayrılığı varsa, bunun xalqın məişət vəziyyətinə təsir göstərməsinə və onlara problem yaratmasına qoymasınlar. Müxtəlif qurumların bir-biri ilə fikir ayrılığı var. Bu fikir ayrılıqlarının xalqın məişət vəziyyətinə təsir göstərməsi mümkündür.

### *e) Dövlət məmurlarının xalqa xidmətdə həmkarlığı və əməkdaşlığı*

Mənim ümumi tövsiyəm budur ki, hamı əl-ələ versin, dövlət məmurları həmkarlıq və əməkdaşlıqla xalqa xidmət göstərsinlər.

### *ə) Qum şəhərinin çoxlu çatışmazlıqlarını aradan qaldırmaq üçün məmurların ciddiliyi və sürəti*

Qum tağut dövründə hökumətin qəzəbinə tuş gəldiyindən təəssüf ki, onun çoxlu çatışmazlıqları vardır. Möhtərəm

məmurlar bu çatışmazlıqları ciddi şəkildə və sürətlə aradan qaldırsınlar. Bu şəhər həm xalqın ehtiyacları, həm də gözəllik baxımından Qum əhalisinə layiqli şəkildə inkişaf etməlidir. Əgər bu çatışmazlıqların aradan qaldırılmasını istəyiriksə, aktiv çalışmaq lazımdır.

# Möhtəşəm fədakarlıq

**Qum şəhərinin şəhid və müharibə əlillərinin ailələri ilə görüşdəki çıxış**

**19 Oktyabr 2010**

Bismillahir-Rəhmanir-Rəhim.

Salam olsun, sənə, ey Allah rəsulunun qızı, ey Fatimə Məsumə! Allahın salamı olsun sənə, sənin pak və məsum ata-babalarına!

Həzrət Fatimə Məsumənin pak ruhundan icazə istəyirəm, çünki bu mənəvi və ruhani məclis o həzrətin məqbərəsində təşkil olunmuşdur.

## *Qum cihad və şəhadət meydanında*

Qum bir çox məsələlərdə qabaqcıldır; şəhadət, şəhidlər və şəhid ailələri məsələsində də qabaqcıl bir şəhər hesab olunur. Bu şəhər İslam və inqilab üçün altı minə yaxın şəhid vermişdir. Müqəddəs müdafiə zamanı bəzən bir ildə mindən artıq şəhidi Allah yolunda qana boyanmış, bu əzəmətli şəhər onların cənazələrini dəfn etmiş, lakin qaşını da çatmamışdır. Bu şəhərin təxminən on bir min müharibə əlili vardır. Bu əziz müharibə əlilləri əslində bizim aramızda olan canlı şəhidlərdir; elə məşhur şəhidlər ki, yalnız Qum üçün yox, hətta bütün ölkə üçün fəxrdirlər, ulduzdurlar. Bunlar böyük imtiyazlardır.

## *Şəhadət məsələsinin əhəmiyyəti*

Mənim əzizlərim! Şəhadət məsələsi çox dərin və çox mühüm məsələdir. Bizim xalqımız imanı, dini duyğuları və şücaəti ilə bu məsələni əməldə həyata keçirdi, şəhid verdi; hətta şəhidləri üçün ağlamayan ata-analar da vardı; şəhidlərinin yas məclisində bayram paltarı geyinən ailələr də

vardı. Buna əsasən, əməli baxımdan xalqa aydın oldu. Lakin şəhadət barədə düşünmək üçün çoxlu mövzular vardır.

## *Şəhadətə inam - xalqın şəxsiyyətinin və kimliyinin mənəvi böyüklüyü*

Əgər şəhadət məsələsini və onun əhəmiyyətini bir cümlədə bəyan etmək istəsək, deməliyik ki, bir xalqın şəhidlərin əzəmətinə inamı o xalqın şəxsiyyət və kimliyinin mənəvi böyüklüyünü göstərir. Bir xalq dünya xalqlarının gözündə necə əzəmətli olur? Necə olur ki, bir xalq dünyanın müxtəlif siyasi amillərindən təsirlənmək əvəzinə dünyanın bütün hadisələrinə təsir göstərir? Bir xalq belə məqama necə ucalır? Necə olur ki, bir xalq modern hərbi texnikalara və geniş təbliğat imkanlarına malik olmadan dünyaya və xalqlara belə təsir göstərir və xalqlar ona cəlb olunur? Siz Livan xalqının İran prezidentini qarşılamasına baxın. Bunlar kiçik məsələlər deyil. Bunlar araşdırmaya və təhlilə layiq məsələlərdir. Necə olur ki, bir xalqın prezidenti başqa bir ölkədə, onunla heç bir qohumluğu olmayan başqa bir xalq tərəfindən belə hörmətlə qarşılanır? Bu xalqın əzəməti haradan əldə olundu? Bütün bu suallara cavab tapmaq üçün şəhadət məsələsinin əhəmiyyətinə diqqət yetirmək lazımdır.

## *Şəhadətə inam - milli iqtidar yaradan amil*

Bir xalq, onun gəncləri, ata-anaları Allah yolunda fədakarlığı və ilahi məqsəddən ötrü canından keçməyi bir iman kimi qəbul etdikdə bu xalq əzəmətli bir qüdrət əldə edir, silahı və böyük nağd sərvəti olmadan təbii şəkildə iqtidarlı, güclü və qabaqcıl olur.

Baxın, yüz adam başqa bir yüz adamla say baxımından bərabərdir; yüz nəfər yüz nəfərlə, min nəfər min nəfərlə, on milyon on milyonla. Bəli, bunlar bərabərdir. Bunların biri

fiziki və maddi baxımdan güclü də ola bilər. Lakin fiziki və maddi baxımdan çox da güclü olmayan o biri qrup Allaha imanla silahlandıqda, Allah yolunda fədakarlıq etdikdə, bir şey itirməyəcəyinə və hətta nəsə əldə edəcəyinə inandıqda elə qüdrətlənir ki, qarşı tərəf heç bir maddi imkanla bu gücü məhv edə bilmir.

Bədr döyüşündə Peyğəmbərin (s) düşmənlərinin sayı, silah, pul və imkanları müsəlmanlardan bir neçə dəfə artıq idi, amma müsəlmanlar qalib oldular. Nə üçün? Məgər qələbə qol gücündən asılı deyil?! Xəncərdən asılı deyil?! Puldan asılı deyil?! Zahiri iqtidardan asılı deyil?! Xeyr, qələbə bunlardan asılı deyil; qələbə bir qüdrətdən asılıdır və o qüdrət pulla, maddi imkanla və atom silahı ilə əldə olunmur, şəhadətə inamdan, fədakarlığa inamdan, insanın fədakarlıq edəcəyi təqdirdə Allahla alış-veriş etməsinə inamdan doğur. Əgər məsələyə belə yanaşsaq, görərik ki, İran xalqı bütün xalqlardan güclü və əzəmətlidir. Düzgün yanaşma da elə budur.

## *İran xalqına əzəmət bəxş edən amillər*

### 1. Şəhid və fədakarlar

Bu əzəməti İran xalqına kim verdi? Birinci növbədə bizim bu əziz şəhidlərimiz - bu zeynəddinlər, bu sadiqilər, bu vəkililər, bu heydərianlar. Bunlar bu inamı dildə yox, əməldə göstərdilər. Şəhid Heydərian Qum şəhərindən azsaylı bir dəstə ilə ayağa qalxıb Kürdüstana gedəndə, düşmənlə vuruşanda İran xalqı çox yalqız idi; bütün Qərb düşərgəsi bizim qarşımızda dayanmışdı; bütün beynəlxalq imkanlar bizim əleyhimizə təchiz olunmuşdu. Bir neçə gənc Qumdan, bir neçə gənc başqa bir şəhərdən... Bütün kənd və şəhərlərdən cəbhəyə yollanan gənclər Allahla alış-verişə inandıqlarını əməldə göstərdilər: "Allah, şübhəsiz ki, Onun yolunda vuruşub

öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş cənnət müqabilində satın almışdır". Allahın vədi doğrudur. Birinci sırada bizim şəhidlərimiz, fədakarlarımız durur. Müharibə əlilləri bizim rəhbərlərimiz, bu haqq cəbhəsinin avanqardları oldular, şəhadətə və Allahla alış-verişə inamı əməldə göstərdilər.

## *2. Şəhid və fədakar ailələri*

İkinci sıra ailələrə məxsusdur; şəhidlərin siz ata-analarına, övladlarına və həyat yoldaşlarına. Siz dözdünüz, zahiri acı olan bu hadisəyə tab gətirdiniz. Əzizləri itirmək acıdır, ağırdır. Ata və ana zəhmət çəkib bu gül dəstəsini, bu əziz və barlı ağacı ürəyinin qanı ilə suvarır, böyüdür, sonra isə cəbhədən onun cənazəsini gətirirlər. Ağır hadisədir, asan deyil. Ata-analar, xanımlar və övladlar zahiri acı olan bu hadisəni rəğbətlə qəbul etdilər, Allahla alış-verişə inandıqlarını göstərdilər. Mən elə şəhid anaları ziyarət etmişəm ki, ciddi və çox səmimi şəkildə deyirdilər: "Əgər bizim on övladımız olsaydı, hamısını Allah yolunda verərdik". Onlar yalan demirdilər. Mən elə ana və atalarla görüşmüşəm ki, övladlarının Allah yolunda şəhid olduğuna görə izzət və fəxr hissi keçirirdilər. Sözsüz ki, onlar haqlıdırlar; bu, izzət və fəxrdir. Bizim bibimiz Zeynəb-Kübra da belə buyurdu: "Gözəllikdən başqa bir şey görmədim". Kərbəla hadisəsi kiçik hadisədir?! Allahı görən göz bu hadisənin, tökülmüş bu qanların, bu ağır müsibətlərin arasında gözəl bir həqiqət müşahidə edir: "Gözəllikdən başqa bir şey görmədim". Mən Zeynəb-Kübranın hisslərinə malik olan çoxlu ailələr görmüşəm. Onlar da deyirdilər ki, gözəllikdən başqa bir şey görmədik. Bir xalqa iqtidar bəxş edən bunlardır; bir xalqda özünəinam yaradan bunlardır; bunlara görə dünyanın maddi

güclərinin, təcavüzkar və hegemon dövlətlərin məst nərələrinin təhdidləri onları qorxutmur.

## *Cəmiyyətin mənəvi iqtidarında mənəviyyatın rolu*

### Güclü iman və mənəvi iqtidar - düşmənlərin təhdidlərini zərərsizləşdirən amil

Bu gün İran xalqı təhdidlərdən, şəhvətlərə qərq və dünyaya hakim olan maddi hökumət başçılarının nərələrindən qorxmur və öz amallarının arxasında möhkəm dayanmışdır. Burada söhbət edən möhtərəm və əziz ata-analar da bunu bəyan etdilər. Bu sözlər doğrudur. Şəhid ailələri və İran xalqı Allaha iman səbəbindən onlarda yaranan bu mənəvi iqtidara və bu qüvvəyə görə möhkəm dayanmışlar. Bu imanı gücləndirmək lazımdır.

## *Mənəvi iqtidarı qorumağın və gücləndirməyin zəruriliyi*

Mənim sözüm budur ki, həm məmurlar, həm xalq, həm ailələr bu imanın qədrini bilsinlər, onu günbəgün gücləndirsinlər.

## *İman və mənəvi iqtidar - cəmiyyətdə siyasi, ictimai və elmi inkişafların amili*

İran xalqının qüdrətini təmin edən budur. Bu bizim elmi, texniki, siyasi və ictimai inkişaflarımızın təminatçısı ola bilər.

## *Mənəvi iqtidarı məhv etmək üçün düşmənin güclü səyi*

Bilin ki, imamın vəfatından sonra bəzi şəxslər bizim xalqımızın bu hissini və bu imanını məhv etmək üçün bütün səylərini topladılar; dedilər, təkrar etdilər. Düşmən bu imanı

sıradan çıxarmaq üçün çox çalışdı və təbii ki, bacarmadı, bundan sonra da heç zaman bacarmayacaq.

## *Şəhidlərin yolunu davam etdirən bugünkü gənc nəsil*

Bizim bugünkü əziz gənclərimiz çox yaxşı gənclərdir. Bu mühitdə bu hiss və imanla böyüyən gənc nəsil faydalı nəsildir. Əgər bu gün də səksəninci illərdə olduğu kimi bir hadisə baş versə, bugünkü gənclər döyüşə getməkdə ozamankı gənclərdən geri qalmazlar. O sınaq onların qarşısına çıxdı və getdilər. Əgər bu gün də baş versə, gedərlər. Gənclər yaxşıdırlar, pakdırlar, hazırlıqlıdırlar. Mən əziz gənclərimizə, xüsusən də şəhid övladlarına tövsiyə edirəm ki, öz izzətlərinin qədrini bilsinlər, əziz şəhidlərə mənsub olmalarının qədrini bilsinlər. Bu həm sizə, həm də bütün İran xalqına fəxrdir.

İlahi! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, bizi şəhidlərin qədrini bilən et! Bizi fədakarların qədrini bilən et! İlahi! Mənəviyyata, paklığa və nura sarı gedən və şəhidlərin bizim üçün açdığı bu iman yolunu həmişə üzümüzə açıq saxla! Dövrün imamının müqəddəs qəlbini bizdən razı et!

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!

# İslam İnqilabının Böyük Rəhbərinin Qum şəhərinin şəhid və müharibə əlillərinin ailələri ilə görüşdəki tələbləri

## *İmanı və mənəvi iqtidarı gücləndirmək*

Bu imanı gücləndirmək lazımdır. Mənim sözüm budur ki, həm məmurlar, həm xalq, həm ailələr bu imanın qədrini bilsinlər, onu günbəgün gücləndirsinlər.

## *Şəhadət barədə təfəkkür və onun əhəmiyyəti*

Şəhadət məsələsi əməli baxımdan xalqa aydın oldu. Lakin şəhadət barədə düşünmək üçün çoxlu mövzular vardır.

Bu xalqın əzəməti haradan əldə olundu? Bütün bu suallara cavab tapmaq üçün şəhadət məsələsinin əhəmiyyətinə diqqət yetirmək lazımdır.

# Möhtəşəm yenilik

**Qum Elmi Hövzəsinin tələbə, alim və müəllimləri ilə görüşdəki çıxış**

**21 Oktyabr 2010**

Bismillahir-Rəhmanir-Rəhim.

Həmd və səna aləmlərin Rəbbinə məxsusdur. Ağamız və peyğəmbərimiz Əbülqasim Məhəmmədə və onun pak, seçilmiş, hidayət edən və məsum ailəsinə, xüsusən də Allahın Yer üzündə saxladığı (İmam Mehdiyə) salavat və salam olsun!

Salam olsun, sənə, ey sərvərimiz, ey Fatimə Məsumə, ey Musa ibn Cəfərin qızı! Ən üstün salavat və salam olsun sənə, sənin pak və məsum ata-babalarına!

# Birinci hissə: Giriş

## *Kəramət ongünlüyündə hövzə tələbələrinin Böyük Rəhbərlə əzəmətli görüşü; İmam Rzanın (ə) və onun əziz bacısının hicrət və hərəkətinin xatirəsi*

Qum Elmi Hövzəsinin müəllimlərinin, rəhbərlərinin, alimlərinin və əziz tələbələrinin iştirakı ilə əzəmət qazanmış bu görüşümüzün həzrət Əli ibn Musa Rzanın (ə) və həmçinin onun əziz bacısı həzrət Fatimə Məsumənin mübarək doğum günlərinə təsadüf etməsi bizə bu qardaş-bacının əzəmətli və mübarək hərəkətini və onların mənalı hicrətini yada salır. Şübhəsiz ki, bu, İran xalqının və şiəliyin tarixində qurucu və təsirli bir hərəkət olmuşdur.

## *Həzrət Fatimə Məsumənin Qumdakı önəmli rolu*

Şübhəsiz, həzrət Məsumənin Qumdakı önəmli rolu, bu dini, tarixi və qədim şəhərin onunla əzəmət qazanması danılmaz bir faktdır.

## *Qumda Əhli-beyt (ə) təlimlərinin əsas mərkəzini yaratmaq*

Bu böyük xanım, Peyğəmbər Əhli-beytindən (ə) tərbiyə almış bu gənc qız imam səhabələri və dostları ilə birgə hərəkət etdi, müxtəlif şəhərlərdən keçib yol boyu xalq arasında elm və vilayət toxumu səpdi, sonra bu bölgəyə çatıb burada mənzil etdi, zalım hökumətlərin zülmət və qaranlıq dövründə Qum şəhərinin Əhli-beyt (ə) təlimlərinin əsas mərkəzi kimi parlamasına, elmin və Əhli-beyt (ə) təlimlərinin işığını

şərqdən qərbədək bütün İslam dünyasına ötürən mərkəzə çevrilməsinə bais oldu.

## *Bugünkü dünyada Qumun mövqeyi*

Bu gün də İslam dünyasının elm mərkəzi Qum şəhəridir. Həmin dövrdə olduğu kimi, Qum bu gün də bütün İslam ümmətinə elm, agahlıq və oyanış qanı köçürə edə bilən və köçürməli olan fəal qəlbdir.

## *Keçmişdə Qumun mövqeyi*

O zaman şiələrin və Əhli-beyt (ə) davamçılarının ilk fiqh və etiqad kitabları Qumda nəşr olunurdu, fəqih, alim və hədisşünasların etimad və istinad etdiyi əsas kitablar Qum şəhərində Qum hövzəsi tərəfindən yazılırdı. Məhəmməd ibn Əhməd ibn Yəhyanın "Nəvadir əl-hikmə" kitabı, Səffarın "Bəsair əd-dərəcat" kitabı, Əli ibn Babuyə Quminin "əş-Şərai" kitabı, Bərqinin "əl-Məhasin" kitabı, Əhməd ibn Məhəmməd ibn İsanın kitabları və onlarla, yüzlərlə digər kitab bu elm mərkəzində yarandı və istehsal olundu.

Burada elə şəxsiyyətlər yetişdi ki, İslam dünyasının hər hansı bir tərəfinə səfər edəndə onların məclisi faydalı məclis olurdu. Bu əzəmətli hərəkətin üçüncü-dördüncü nəslinin nümayəndəsi olan Şeyx Səduq şiəliyin və hədis elminin mərkəzi olan Bağdad şəhərinə gedəndə alim və tələbələr onun söhbətlərinə gedir, ondan bəhrələnirdilər. Buna əsasən, Qum mərkəz oldu. Bu gün də Qum mərkəzdir. Uzun illər boyu burada on minlərlə aşiq tələbə pərvanə kimi Əhli-beyt (ə) təlimlərinin şamı ətrafında fırlanıb elm öyrənirlər, çoxlu problemlərə dözərək bilik əldə edirlər, ali və mənəvi məqsədləri nəzərə alıb problemlərə diqqət yetirmir və inkişaf edirlər. Bəlkə də dünyada belə bir şəhər azdır, yaxud yoxdur ki, orada bu qədər böyük toplum – din elmini, mənəviyyatı və

ictimai rəftarı öyrənmək istəyən insanlar, qadın və kişilər işləyib-çalışsınlar, gecə-gündüz mənəvi, elmi və mədəni fəaliyyətlərlə məşğul olsunlar. Bu gün Qum şəhərinin belə dəyərli beynəlxalq mövqeyi var. Onun keçmişi də bəllidir; şiəliyin ilk mühüm hövzəsi bu şəhərdə təşkil olunmuşdur, Şeyx Küleyni, Şeyx Səduq və digər böyük alimlər bu feyz bulağından bəhrələnmişlər. Onların əsərləri uzun əsrlər boyu Əhli-beyt (ə) maarifini qorumuşdur.

# İkinci hissə: Hövzəyə aid mövzular

## *Bugünkü dünyada Qum Elmi Hövzəsinin mövqeyi*

Elmi hövzələr, xüsusən də Qum Elmi Hövzəsi öz tarixinin heç bir dönəmində bugünkü kimi beynəlxalq düşüncə və nəzərlərin diqqət mərkəzində olmamışdır; dünya siyasətlərində və bəlkə də dünyanın taleyində bugünkü kimi təsirli olmamışdır. Qum hövzəsinin heç zaman bugünkü qədər dostu və düşməni olmamışdır. Qum Elmi Hövzəsinin mənsubu olan sizlərin bu gün bütün tarixdə olduğundan daha çox dostunuz, daha artıq və daha təhlükəli düşmənləriniz var. Bu gün elmi hövzələrin zirvəsində duran Qum Elmi Hövzəsi belə həssas mövqeyə malikdir.

## *Elmi hövzəyə dair bir neçə şübhə*

### Hövzənin beynəlxalq məsələlərə qoşulması - düşmənliklərin səbəbi

Burada bir səfsətə var; mən ona işarə vurmalıyam. Bəzi adamlar deyə bilərlər ki, əgər elmi hövzələr beynəlxalq məsələlərə, siyasi və problemli məsələlərə qoşulmasaydılar, bu qədər düşmənləri olmazdı və bugünkündən daha hörmətli olardı. Bu sofizmdir. Heç bir qrup, heç bir orqan, heç bir dəyərli toplum heç zaman kənara çəkilməsinə, təcrid olunmasına və zərərsiz hərəkət etməsinə görə ictimai rəydə hörmət qazanmamışdır, bundan sonra da qazanmayacaq. Problemli məsələlərdən kənara çəkilən laqeyd təşkilat və orqanlara hörmət formal xarakterli olub, əslində hörmətsizlikdir. Bu, həqiqi hörmət sayılmır, əşyalara, şəkillərə və surətlərə hörmət kimidir. Bu hörmət deyil. Bu bəzən təhqiramiz və zahirdə hörmət göstərilən şəxsə təhqirlə yanaşı

olur. Canlı, fəal və təsirli varlıq isə həm dostlarının, həm də hətta düşmənlərinin qəlbində əsl hörmət oyadır; düşmənlik edirlər, amma onu böyük sayır və ona hörmət bəsləyirlər.

## *Hövzənin aktiv olmasının lazımlığına dair dəlillər*

### Kənara çəkilmənin sıradan çıxmaqla nəticələnməsi

Əvvəla, Qum Elmi Hövzəsinin və hər bir elmi hövzənin kənara çəkilməsi sıradan çıxmaqla nəticələnir. İctimai, siyasi və etirazlı məsələlərə girişməmək tədricən kənarda qalmaqla, unudulmaqla və təcrid olunmaqla nəticələnir. Odur ki, Şiə ruhaniliyi ümumilikdə, fərdi və müəyyən zaman istisnalarını çıxmaq şərti ilə həmişə hadisələrin içində olmuşdur. Məhz buna görə Şiə ruhaniliyinin cəmiyyətdə həmişə nüfuzu və hörməti olmuşdur; istər İslam dünyasında, istər qeyri-islam dünyasında başqa heç bir ruhani toplumunun belə hörməti və nüfuzu olmamışdır.

## *Hövzənin təcrid olunması ilə dinə ziyan dəyməsi*

İkincisi, əgər ruhanilər kənarda və səkidə hərəkət edib təcrid olunsaydılar, dinə ziyan dəyərdi. Ruhani dinin əsgəri və xidmətçisidir; dinsiz halda kimliyi yoxdur. Əgər ruhani əsas məsələlərdən - bunun bariz nümunəsi möhtəşəm İslam inqilabıdır - kənara çəkilib laqeydlik göstərsəydi, şübhəsiz, din ziyan görərdi. Ruhaninin məqsədi isə dini qorumaqdır.

## *Düşmənin fəaliyyəti - agah hövzə tələbələrinin qurucu hərəkətlərini başladan amil*

Üçüncüsü, əgər səhnədə olmaq düşmənlikləri təhrik edirsə də, bilmək lazımdır ki, bu düşmənliklər sonda xeyir amilləridir. Qeyrətləri və hissləri təhrik edən və canlı varlıq üçün imkanlar yaradan bu düşmənliklərdir. Harada ruhaniliyə, yaxud dinə qarşı bir ədavət və kin göründüsə, qarşısında ayıq və agah insanlar tərəfindən qurucu hərəkət başlandı. Mən bir dəfə dedim ki, bir təəssübkeş və antişiə yazıçı tərəfindən bir kitabın yazılması şiələrin bir neçə böyük mənbə kitabının yaranmasına bais oldu. Bu Qum şəhərində sekulyar təfəkkürlərə və vəhhabi görüşlərinə malik olan azğın bir insan tərəfindən Minillik sirlər kitabı nəşr olunmasaydı, bizim Böyük İmamımız gedib bir müddət dərsini tətil etməz və Sirlərin kəşfi ("Kəşf əl-əsrar") kitabını yazmazdı. Bu kitabda İslam hökumətinin və fəqih rəhbərliyinin əhəmiyyətinin ilk tumurcuqları müşahidə olunur. Böyük İmamın Sirlərin kəşfi kitabında bu mühüm fiqh və şiə təfəkkürünün istehsalı duyulur. Əgər qırxıncı illərdə və əllinci illərin əvvəllərində solçu və marksist təmayüllü partiyanın fəaliyyəti olmasaydı, Fəlsəfə prinsipləri və Realizm üsulu kimi həmişəyaşar bir kitab istehsal olunmaz və yazılmazdı. Odur ki, bu düşmənliklər bizim zərərimizə bitməmişdir. Harada ədavət olmuşsa, ayıq və agah olan elmi hövzə reaksiya vermiş və fürsətdən yararlanmışdır. Düşmənliklər fürsət yaradır; təbii ki, biz oyaq olduqda, canlı olduqda və yatmadıqda.

Rza xanın dövründə ruhaniliyə qarşı düşmən yönümlü hərəkət mərhum Seyid Əbülhəsən İsfahani kimi bir təqlid müctəhidinin şəriət ödənclərini din nəşriyyələrinin və dini jurnalların istehsalına xərcləməyə icazə verməsinə bais oldu. Bu, keçmişdə görünməyən bir şey idi; elə o zaman da qəribə

görünürdü. Buna görə şəri ödənc pulları və imam səhmi ilə dini nəşriyyatlar təsis olundu, imam səhminin dəstəyi ilə dini təşkilatlar yarandı. Yəni Seyid İsfahani kimi bir şəxsiyyət bəzilərinin təsəvvür etdiyinin və etməkdə olduğunun əksinə olaraq, bizim ölkəmizin, Şiə dünyasının və Şiə ölkəsinin mədəni məsələləri barədə düşünürdü və belə bir iş üçün imam səhmindən istifadə etməyi icazəli sayırdı. Bunlar fürsətlərdir. Düşmənliklər belə böyük fürsətlər yaradır.

## *Hövzənin bitərəfliyi düşmənin sakit olmasına bais olmayacaq!*

Dördüncüsü, ruhaniliyin əsaslı və problemli məsələlərə bitərəf qalması ruhaniliyin və din düşməninin də bitərəf və sakit qalmasına bais olmayacaq: "Kimsə yatmışsa, bu, onun tərəf-müqabillərinin də yatması anlamına gəlmir". Əgər Şiə ruhaniliyi onun qarşısına çıxan düşmən hadisələr qarşısında məsuliyyət hiss etməsə, meydana atılmasa, öz imkanlarından istifadə etməsə, üzərinə düşən böyük vəzifəni yerinə yetirməsə, bu, düşmənin öz düşmənliyindən əl çəkməsinə bais olmayacaq. Əksinə, onlar nə zaman bizdə zəiflik hiss etdilərsə, irəlilədilər; nə zaman durğunluq hiss etdilərsə, öz fəaliyyətlərini artırdılar. Qərblilər beynəlxalq zülm və hegemonluqla mübarizədə Şiə fikrinin güclü potensialını çoxdan anlamışlar; İraq hadisələrindən, tənbəki hadisələrindən. Odur ki, onlar sakit duran deyillər. Onlar öz təcavüzlərini və hərəkətlərini davam etdirirlər. Din alimlərinin, ruhanilərin və elmi hövzələrin sükutu və bitərəfliyi düşmənin düşmənliyini heç zaman dayandıra bilməyəcək. Odur ki, elmi hövzələrin fəallığı, beynəlxalq hadisələr, mühüm milli və qlobal məsələlərdə bitərəf qalmaması zəruri məsələdir və bunu yaddan çıxarmaq olmaz.

## *Ruhani hökuməti və hökumət ruhanisi şübhəsi*

İslam inqilabının qələbəsindən sonra həm ruhanilərlə arası pis olanların, həm inqilabla düşmən olanların vasitəsi ilə iki səhv və azğın söz və məfhum yayıldı. Əlbəttə, bunlara həm sözlə, həm də əməllə cavab verilmişdir, amma həmişə diqqət yetirmək və sayıq olmaq lazımdır. Düşmən əslində böhtan olan bu iki səhv məfhumu taktika kimi irəli sürmüşdür. Onların biri ruhani hökuməti məsələsidir. Deyirlər ki, İranda ruhani hökuməti iş başındadır. Bunu yazdılar, dedilər, təbliğ və təkrar etdilər. O birisi də hökumət ruhanisi mövzusudur: ruhaniləri hökumət və qeyri-hökumət ruhanilərinə bölmək.

## *Şübhənin məqsədi*

**1. Quruluşu din alimlərinin dəstəyindən məhrum etmək**

Bu iki yayındırıcı və səhv məfhumu irəli sürməkdə məqsədləri ilk növbədə İslam quruluşunu din alimlərinin möhtəşəm düşüncə, nəzəriyyə, əsaslandırma və elm dəstəyindən məhrum etmək idi.

## *2. Səhnədə olan ruhaniləri təcrid etmək*

İkincisi, vəzifədə çalışan ruhaniləri, düşmənlər qarşısında sinəsini sipər edən və səhnədə olan inqilabçı ruhaniləri təcrid və bədnam etmək istəyirdilər. Yəni ruhaninin bir növü hökumət ruhanisidir; bu pis, mənfi və antidəyərdir. Bir növü də qeyri-hökumət ruhanisidir; bu müsbət və müqəddəsdir.

## *Şübhəyə cavab*

Ruhaniliyin və elmi hövzələrin İslam quruluşu ilə rabitə növü aydın məsələdir. Bu rabitə himayə və nəsihətdən ibarətdir - bunu izah edəcəyəm; nəsihətin kənarında himayə,

islahın kənarında müdafiə. Haqqında danışdığımız iki məfhum həqiqətən yayındırıcı və ədavətlidir. Əvvəla ona görə ki, İslam Respublikasını ruhani hökuməti adlandırmaq yalandır. İslam Respublikası dəyərlərin hökumətidir, İslamın hökumətidir, şəriət hökumətidir, fiqh hökumətidir, ruhani şəxslərin hökuməti deyil. Burada hakimiyyətə gəlmək üçün ruhani olmaq kifayət etmir. İslam Respublikası keçmişdə olmuş və bu gün də dünyanın bəzi nöqtələrində olan ruhani hökumətləri ilə mahiyyətcə fərqlidir. İslam Respublikası hökuməti dini dəyərlərin hökumətidir. Bir ruhaninin bəzi dəyərlərə yiyələnib çoxlu ruhanilərdən üstün olması mümkündür; o birincidir. Lakin ruhani olmaq da səlahiyyətin alınmasına səbəb olmur. Ruhani olmaq öz-özlüyündə nə səlahiyyət verir, nə də səlahiyyəti alır. Hökumət din hökumətidir, xüsusi bir təbəqənin və xüsusi bir toplumun hökuməti deyil. Ruhaniləri hökumət və qeyri-hökumət ruhanilərinə bölmək, bunları dəyər və antidəyər kimi qələmə vermək aşkar səhvdir. Hökumət və qeyri-hökumət olmasından asılı olmayaraq, hər hansı bir şeyə üz tutmaq dünya üçün olsa, pisdir; nəfs üçün olsa, pisdir. Bu, yalnız hökumətə məxsus deyil. Biz hər hansı bir hədəfə sarı hərəkət etdikdə məqsədimiz nəfsin istəkləri olsa, şəxsi maraqlar olsa, bu antidəyərdir. Bu, (hədislərdə söylənilən) dünyaya qoşulmağın nümunəsidir: "Fəqihlər dünyaya qoşulmayınca peyğəmbərlərin əmanətdarıdırlar". Bu yalnız hökumətə aid deyil; harada məqsəd dünya olsa, rədd olunur; hökumət və qeyri-hökumətin fərqi yoxdur. Lakin hökumətə üz tutmaq mənəvi və ilahi məqsədlə olsa, bu, yaxşılığa dəvət etməyin və pis işlərdən çəkindirməyin ən bariz nümunələrindən olar; mücahidliyin ən bariz nümunələrindən olar. Bu, ağır məsuliyyətləri qəbul etmək, yaxud səlahiyyət sahibi olan məmurları müdafiə etməkdir. Əgər hökumət ruhanisi özünün din və şəriət vəzifəsini yerinə yetirən,

Allahdan ötrü İslam quruluşunu, yaxud məsul şəxsləri dəstəkləyən şəxsə deyilirsə, bu dəyərdir, antidəyər deyil; buna malik olmamaq antidəyərdir. Deməli, bu iki məfhumun – ruhani hökuməti və hökumət ruhanisi məfhumlarının heç biri düzgün deyil. İnqilabdan və İslam quruluşunun yaranmasından sonra bunların ortaya atılması çaşdırıcı bir layihənin tərkib hissəsidir. Bu məfhumlar bu inqilabın mədəniyyətinə məxsus deyil.

## *Quruluşun və hövzənin yekdil olmaması*

### Hövzə və İslam quruluşunun qarşılıqlı münasibətləri

Qarşılıqlı olaraq iki başqa həqiqət və məfhum var; onlar dəyər məfhumları və dəyər yaradanlardır. Biri budur ki, quruluş nəzəri və elmi cəhətdən din alimlərinə və elmi hövzələrə ehtiyaclıdır və onların elmi fəaliyyətinə arxalanır. Quruluş elmi hövzələrə, din alimlərinə, dini nəzər sahiblərinə və görkəmli şəxsiyyətlərə söykənir. Başqa bir məfhum da budur ki, hövzə və ruhanilik dini quruluşa biganə qalmır. Heç bir ruhani, heç bir din alimi, heç bir İslam xadimi İslam əsasında yaranan, İslam hissi ilə hərəkət edib işləyən bir quruluşa laqeyd qala, özünü yad saya bilməz... Digər tərəfdən, elmi hövzələr də laqeyd qala bilməzlər. Elmi hövzə, xüsusən də Qum Elmi Hövzəsi bu quruluşun anasıdır. Bu inqilabı və bu əzəmətli hərəkəti ərsəyə gətirən odur. Bir ana necə öz övladını unuda, ona laqeyd qala və lazım olanda onu müdafiə etməyə bilər?! Mümkün deyil. Buna əsasən, elmi hövzələrlə İslam Respublikası quruluşu arasındakı münasibət qarşılıqlı himayədən ibarətdir; quruluş hövzələri himayə edir, hövzələr quruluşu; həmkarlıq edir və bir-birinə kömək göstərirlər.

## *Hövzənin quruluş qarşısında əsas vəzifələri*

### 1. Quruluş üçün nəzəriyyə yürütmək

Dediyimiz birinci məsələ - yəni quruluşun elmi hövzələrə arxalanması ona görədir ki, bir xalqın və bir ölkənin bütün idari məsələlərində nəzəriyyə yürütmək və siyasi nəzəriyyəçilik işi İslam quruluşunda din alimlərinin üzərinə düşür. İqtisadi sistemdə, idarəçilikdə, müharibə və sülh məsələlərində, tərbiyə məsələlərində və digər çoxlu məsələlərdə din mütəxəssisləri və din alimləri İslamın görüşünü ortaya qoya bilərlər. Əgər bu nəzəriyyəçi olmasa, əgər din alimləri bu işi görməsələr, Qərb nəzəriyyələri, qeyri-dini və materialist nəzəriyyələr onların yerini tutacaq. Heç bir quruluş, heç bir cəmiyyət nəzəriyyəsiz idarəçilik edə bilməz; materialist beyinlərin məhsulu olan başqa bir idarəçi, iqtisadi və siyasi sistem gəlib onun yerini tutar. Bu boşluqların duyulduğu və mövcud olduğu yerlərdə bu baş verdi.

Mən universitetlərdə mövcud olan humanitar elmlərə və mahiyyətcə zəhərli olan bu elmlərin təhlükəsinə dair həm universitetlərə, həm də məmurlara xəbərdarlıq etmişəm. Həmin xəbərdarlıqlar bundan ötrüdür. Bu gün geniş yayılmış humanitar elmlərin İslam hərəkətinə və İslam quruluşuna mahiyyətcə müxalif və zidd olan, başqa bir dünyagörüşə əsaslanan, başqa sözü və məqsədi daşıyan məzmunları var. Bunlar öyrədildikdə müdirlər onların əsasında yetişirlər, sonra həmin müdirlər gəlib universitetin, ölkə iqtisadiyyatının, daxili və xarici siyasətin, təhlükəsizlik və digər məsələlərin başında dururlar.

Elmi hövzələr və din alimləri ilahi mətnlərdən İslam nəzəriyyələrini çıxarıb müəyyən etməyə, müxtəlif plan və proqramlar hazırlamaq üçün onları hamının ixtiyarına buraxmağa borcludurlar. Deməli, İslam quruluşunun dayağı

din alimləri, nəzər sahibləri və İslam nəzəriyyələridir. Buna görə quruluş elmi hövzələri himayə etməyə borcludur, çünki onun istinadgahıdır.

## *2. Müxtəlif şübhələrin dəf edilməsi*

Bundan əlavə, başqa bir məsələ də var. O da budur ki, bu gün quruluşu hədəf seçən çoxlu şübhələr ortaya qoyulur, xüsusən gənclər arasında dini, siyasi və etiqadi şübhələr yayılır. Məqsəd yalnız insanları bir düşüncədən başqa bir düşüncəyə yönəltməkdir; məqsəd quruluşun ictimai bazasını dağıtmaq, quruluşun xalqın beynində olan əsas təməllərini sıradan çıxarmaqdır; məqsəd quruluşla düşmənlikdir. Odur ki, din alimlərinin bu şübhələri dəf etməsi, bunlarla mübarizə aparması, bu tozları cəmiyyətin zehnindən silməsi İslam quruluşu üçün başqa bir dayaq və dəstəkdir. Deməli, İslam quruluşu müxtəlif cəhətlərdən din alimlərinə, elmi hövzələrin nəzəriyyəçilərinə, tədqiqatçılarına və alimlərinə arxalanır.

## *Elmi hövzələrin müstəqilliyi və quruluşun hövzəyə dəstəyi*

Burada bir məsələ var; mən onu deyəcək və sonra inşallah hövzənin mühüm məsələlərindən bir neçəsi haqda danışacağam. Bu məsələ hövzələrin müstəqilliyindən ibarətdir. İslam quruluşunun elmi hövzələri dəstəkləməsi onların müstəqilliyinə zərər vurur, yoxsa yox? Bu iş düzgündür, yoxsa yox? Bu mühüm mövzudur. Əvvəla elmi hövzələr tarix boyu həmişə müstəqil olmuşlar; yalnız şiəliklə zidd olan hökumətlər dövründə yox, hətta Şiə hökumətləri dövründə də. Yəni Səfəvilər iş başına gəldikdə, Mühəqqiq Kərəki, Şeyx Bəhainin atası kimi böyük alimlər İrana gəlib müxtəlif dini vəzifələr tutduqda bu alimlər, onların şagird və yetirmələri heç zaman Səfəvilərin siyasətinə tabe olub onların

ixtiyarına keçmədilər. Bəli, kömək edirdilər, həmkarlıq edirdilər, onları tərifləyirdilər, amma onların əlində deyildilər. Qacarlar dövrünün bir hissəsində də belə olmuşdur. Kaşif əl-ğita kimi böyük bir alim İrana gəlib "Kəşf əl-ğita" kitabını yazdı. O bu kitabın həm müqəddiməsində, həm də cihad mövzusunda Rusiya və İran müharibələri münasibəti ilə Fətəli şahı çox tərifləyir. Amma Kaşif əl-ğita elə adam deyildi ki, Fətəli şahın və onun kimilərin əlində olsun. Onlar müstəqil idilər. Mirzə Qumi Qumda öz evində dövrünün şahı tərəfindən hörmət görür və uca tutulurdu, amma onun istəyinə tabe olmurdu. Onlar israr edirdilər ki, Mirzə onların istədiyi fətvanı versin, amma o qəbul etmir, tabe olmurdu. Mirzə Quminin Abbasiyyə risaləsi adlı bir kitabı var. O, bu kitabda özünün cihad haqda görüşlərini bəyan etmişdir. Bu kitab bir neçə il öncə ilk dəfə çap və nəşr olundu. Ona elə sual verirlər ki, onun tərəfindən cihad etməyə vəkillik versin, amma o qəbul etmir. Zənnimcə bu məsələ "Came əş-şətat" kitabında yazılmışdır. Şiə ruhaniliyi həmişə belə olmuşdur; həmişə müstəqil olmuş və heç zaman hakimlərin ixtiyarına keçməmişdir. Bu gün də belədir, bundan sonra da belə olmalıdır və Allahın yardımı ilə belə də olacaq. Amma ehtiyatlı olun ki, burada başqa bir səfsətə yaranmasın, hövzələrin müstəqilliyi quruluşun hövzəni və hövzənin quruluşu himayə etməməsi kimi başa düşülməsin. Bir qrup bunu istəyir. Bəzi adamlar müstəqillik adı ilə hövzənin quruluşla rabitəsini kəsmək istəyirlər. Bu yolverilməzdir. Asılılıq himayədən başqa bir şeydir, həmkarlıqdan başqa bir şeydir. Quruluş hövzəyə borcludur və ona kömək etməlidir.

## *Hövzə tələbələrinin məişətinin xalq tərəfindən təmin olunmasının zəruriliyi*

Əlbəttə, hövzə tələbələrinin məişəti ənənəvi, çox mənalı və məqsədli olaraq xalq tərəfindən təmin olunmalıdır; xalq şəriət ödənişlərini verməlidir. Bu mənim fikrimdir. İnsan bəlkə də yüz, yüz əlli il öncədən bizim hövzələrimizdə mövcud olan bu qədim adətin dərinliklərinə diqqət yetirdikdə onun daha önəmli, mənalı və məqsədli olduğunu müşahidə edir. Xalqın hövzələrlə güclü rabitəsinin sirri budur; buna görə doğmalıq hiss edirlər. Xalq ruhanidən çox şey gözləmir, lakin özünü hövzələrin və ruhanilərin maddi təminatına borclu bilir; doğrusu da budur.

Hövzələrin işi isə yalnız məişət məsələsi deyil. Hövzələrin elə işləri var ki, müsəlmanların beytülmalının və hökumətlərin köməyi olmadan onların həyata keçməsi imkansızdır. Hökumətlər bu büdcələri təmin etməli və eyni zamanda onların işinə qarışmamalıdırlar. Müxtəlif şəhərlərdə olan bir çox mühüm mədrəsələr əmirlər, sultanlar və hakimlər tərəfindən tikilmişdir. Məşhəddə bir-birinin yanında üç mədrəsə tikilib: Nəvvab, Baqiriyyə və Hacı Həsən mədrəsələri. Onların hər biri bir Səfəvi şahının dövründə şahın, yaxud əmirlərinin fərmanı ilə tikilmişdir; eybi yoxdur. Zəxirə və Kifayə kitablarının müəllifi olan Mühəqqiq Səbzəvarinin – Molla Məhəmmədbaqir Səbzəvarinin tədris etdiyi Baqiriyyə mədrəsəsi onlar tərəfindən tikilmişdir. Bunun eybi yoxdur; pul xərcləməli və müdaxilə də etməməlidirlər. Hövzə başucalığı və vüqarla quruluşun müxtəlif dəstəklərini qəbul edir. Bu gün quruluşun elmi hövzələrə etdiyi, etməli və daha da artırmalı olduğu bu dəstəklər onun borcudur. Bunlar yalnız maddi dəstəklə bitmir. Bu gün Allaha şükür olsun ki, ən mühüm və ən geniş tribunalar elmi hövzə alimlərinin ixtiyarındadır, böyük təqlid müctəhidlərinin ixtiyarındadır.

Bunlar dəstəkdir, quruluşun himayələridir. Qeyd etdiyim rabitəyə əsasən, İslam quruluşu bu dəstəkləri verməlidir. Deməli, müdaxilə və müstəqillik məsələsini bununla qarışdırmaq olmaz.

## *Hövzənin və İslam quruluşunun bir-biri ilə sıx rabitəsi*

Həqiqət budur ki, bu iki böyük varlıq - yəni İslam quruluşu və onun qəlbində yerləşən elmi hövzələr bir-biri ilə əlaqəlidirlər, talеləri birdir. Bunu hamı bilsin. Bu gün bu torpaqda ruhaniliyin və İslamın taleyi İslam quruluşunun taleyindən asılı və ona düyünlənmişdir. İslam quruluşu azca zərbə görsə, şübhəsiz, onun ruhaniliyə, din xadimlərinə və din alimlərinə zərəri hamıdan çox olacaq. Əlbəttə, quruluş canlıdır, ayaqdadır, güclüdür və tam əminliklə deyirəm ki, qarşısında olan bütün problemlərə qalib gələcək.

## *Hövzədə yenilik mövzusu və ona aid məsələlər*

### Məzmunda yenilik

Barəsində açıq danışmağın lazım olduğu başqa mühüm məsələ hövzələrdə yenilik məsələsidir. Bir neçə ildir elmi hövzələrdə, xüsusən də mübarək Qum Elmi Hövzəsində yenilik məsələsi gündəmdədir. Bu yenilik nə deməkdir? Hövzə yenilik adı altında nə etmək istəyir?

## *İctihad üslubunda yenilik – sapqın yenilik*

Əgər yeniliyi hövzələrin əsas xətlərinin - məsələn ictihad metodikasının dəyişməsi kimi başa düşsək, şübhəsiz, bu bir sapqınlıqdır; yenilikdir, lakin süquta doğru gedən yenilik.

## Şiə ictihadının düzgün üslubu

Bu üsulun məziyyət və xüsusiyyətləri

Bu gün elmi hövzələrdə geniş yayılmış və din alimlərinin istifadə etdiyi ictihad üslubu ən güclü və ən məntiqli ictihad üslublarından biridir; vəhyə istinad edən, yəqinə və elmə əsaslanan ictihaddır, zənn və gümandan uzaqdır. Bizim əsaslandırmamız elmi və qəti əsaslandırmadır. Bəzi mövcud zənlərin hamısının dəlil sayılmasına yəqin və qəti dəlil olmalıdır. Hətta fiqhdə istifadə etdiyimiz əməli qaydaların mötəbərliyi də qəti şəkildə isbat olunmalıdır. Bir əməli qaydanın - İstishab, yaxud Bəraət, yaxud İştiğal qaydasının mötəbər olmasına dair qəti dəlil tapmayınca ondan istifadə edə bilmərik. Buna əsasən, bizim fiqh tədqiqatlarımızın bütün üsulları ya vasitəsiz, ya da vasitəli şəkildə yəqinə əsaslanır.

## Bu metodda qeyri-mötəbər zənlərin yeri

Şiə ictihadı qeyri-mötəbər zənlərə əsaslanmır. Bizim qədim alimlərimiz bundan ötrü rəylə ictihad, qeyri-mötəbər zənlərə əsaslanan ictihad, məsələn Qiyas, İstehsan və digər terminlər işlətmiş, kitablar yazmışlar; "Fiqhdə ictihad tərəfdarlarına cavab". İsmayıl ibn Əbu Səhl Növbəxti öz kitabında, Seyid Mürtəza "əz-Zəriə" kitabında, Şeyx "Üddə əl üsul" kitabında və digərləri öz kitablarında belə qeyri-mötəbər zənlərə əsaslanan ictihadı rədd etmişlər. Bu ictihad məqbul deyil. Bu gün də kimlərsə hər hansı bir ad altında belə ictihad metodlarına üz tutsalar, düzgün deyil.

## Şəriət hökmlərinin tədqiqatında beynəlxalq qaydalara tabe olmamaq

İndi dünyanın bunu sevməməsinə, bu fiqh sözünün dünyada müştərisiz qalmasına görə – istər bunu açıq desinlər, istərsə də qəlblərində gizlətsinlər – səhv bir metodikadan

istifadə etmək yolverilməzdir. Təəssüf ki, bəzən əsasən materialist olan sivil dünya normalarına riayət etmək üçün şəriət hökmlərinin tədqiqat metodunu təhrif edirlər. Bundan da pisi odur ki, bəzən maddi gücləri razı salmaqdan ötrü, materialist dünyanın geniş yayılmış qaydalarına yox, hətta maddi və hegemon güclərin istəklərinə riayət etməkdən ötrü fətva verilir: "İslam Respublikasının dinc nüvə fəaliyyəti böyük güclərin bədgüman olmasına bais olduğu üçün qadağandır!" Qələt edib bədguman olublar.

## Düzgün şiə ictihadını işlətməyin nəticəsi

Əgər ictihad özünün kitab və sünnəyə əsaslanan düzgün və doğru üslubu ilə, düzgün, məntiqli, dəqiq və püxtələşmiş metodla aparılsa, çox yaxşıdır. İctihadlar müxtəlif nəticələrlə bitsə də, inkişafa səbəb olurlar. Bizim müctəhid və fəqihlərimiz tarix boyu müxtəlif məsələlərdə müxtəlif nəzərlər bildirmişlər. Şagird müəllimin fikrinin əleyhinə, şagirdi də onun fikrinin əleyhinə nəzərlər yürütmüş, mətləblər yazmışlar. Heç bir eybi yoxdur. Bu, inkişafa səbəb olur. Hövzədə bu ictihad güclənməlidir.

## Fiqhdən başqa elmlərdə də ictihada diqqətin zəruriliyi

İctihad yalnız fiqhə məxsus deyil; əqli elmlərdə, fəlsəfə və kəlamda da bu fənlərin mütəxəssisləri ictihad etməlidirlər. Əgər bu ictihad olmasa, durğun su kimi olacağıq.

Bu gün hövzə dünyanın müxtəlif fəlsəfə, fiqh və kəlam məsələlərindən kənarda qalmamalıdır. Dünyada müxtəlif məsələlərə dair bu qədər sual irəli sürülür; hövzənin cavabı nədir? Nə kənarda qalmalıdır, nə də bitərəf olmalıdır; bunların hər ikisi zərərlidir. Yeni düşüncə lazımdır. Dünyada sel kimi meydana çıxan müxtəlif ehtiyaclara cavab verilməlidir. Siz

onlara cavab hazırlamalısınız. Sizin cavabınız bu ehtiyaca və həmçinin müxtəlif məktəb və firqələrin cavablarına hesablanmalıdır. Əgər onların cavablarını yaddan çıxarsanız, sizin cavabınız öz təsirini bağışlaya bilməz. Gərək ortaya güclü, məntiqli və qaneedici cavab qoyasınız və cavablar bütün dünyaya yayılsın. Qeyd etdiyimiz kimi, İslam dünyasının elm ürəyi olan Qum şəhəri daim dünyaya fayda yetirməlidir. Bu gün xoşbəxtlikdən sürətli rabitə cihazları hamının ixtiyarındadır. Sizin burada dediyiniz bir sözü həmin saatda dünyanın o tərəfində dinləyə və ondan istifadə edə bilərlər.

## *Müxtəlif məzmun yenilikləri - yeniliyin əsas mənası*

Bu gün həm İslam quruluşunun, həm ölkənin, həm də bütün dünyanın müxtəlif ehtiyacları vardır. İslam epistemologiyasının, İslamın iqtisadi və siyasi doktrinasının, onların əsasını təşkil edən fiqh və hüquq nəzəriyyələrinin, təlim və tərbiyə sisteminin, əxlaqi, mənəvi və digər məfhumların izahı dəqiq, elmi, qaneedici və dünyanın geniş yayılmış düşüncələrinə hesablanmış şəkildə hazırlanmalıdır. Bu, hövzələrin işidir. Bu iş ictihadla mümkündür. Əgər biz bu işi görməsək, dinin bəşər həyatından çıxarılmasına öz əlimizlə kömək etmiş olacağıq; ruhaniliyin təcrid olunmasına öz əlimizlə kömək etmiş olacağıq. Yenilin mənası budur. Belə müxtəlif ictihad işləri yeniliyin əsasıdır.

## *Üslublarda yenilik*

Digər sahələrdə də mən nəyin yenilik olduğunu və nəyin olmadığını, daha doğrusu, hansı yeniliyin düzgün, hansının səhv olduğunu deyəcəyəm. Mənim sözüm həmişə bu olub, indi də budur, əvvəllər də müxtəlif məclislərdə hövzə

alimlərinə bunu demişik: Yenilik və dəyişiklik zəruri məsələdir və baş verəcək. Bu gün müxtəlif təbəqələrin, millətlərin və digər toplumların ətrafında darvaza və hasar yoxdur. Lakin bu yeniliyi və dəyişikliyi ya idarə etməli və istiqamətləndirməliyik, ya da özbaşına buraxmalıyıq. Əgər buraxsaq, uduzacağıq. Hövzənin böyükləri, təqlid müctəhidləri, mütəfəkkirlər, alim və müəllimlər kəmərlərini möhkəm bağlamalı, iradə göstərməli, bu yenilik üçün proqram hazırlamalı, onu istiqamətləndirməli və idarə etməlidirlər. Buna əsasən, yeniliyin əsas mənası budur: müxtəlif məzmun yenilikləri.

## *Universitet metodlarının icrası - yenilikdə yayınma*

Yenilik barədə səhv bir məna qəsd oluna və başa düşülə bilər. Bundan mütləq qaçmaq lazımdır. Yenilik tədris və təhsildə hövzənin çox faydalı olan ənənəvi metodlarını tərk edib onları bugünkü universitet metodları ilə əvəzləmək deyil. Belə bir yenilik və dəyişiklik çox səhvdir. Bu gerilikdir.

## *Universitet metodlarına qayıtmaq - irtica və gerilik*

Bu gün bizim qədim və klassik metodlarımız dünyada tanınır. Bəziləri ya təqlidçilik, ya yaradıcılıq üzündən həmin metodlara rəvac verirlər. Biz qədim Qərb üsullarından götürülmüş və yazılmış universitet üsullarımızı hövzəyə hakim edək?! Xeyr, biz bunu yenilik bilmirik. Əgər belə bir dəyişiklik baş versə, şübhəsiz, irtica və gerilikdir. Biz bunu qəbul etmirik.

## Hövzənin kalssik üsullarının gözəllikləri

### Azad müəllim seçimi

Elmi hövzədə bizim çox yaxşı üsullarımız var. Bunlar qədimdən adət olmuşdur; məsələn tələbənin müəllimi azad şəkildə seçməsi. Tələbə hövzəyə daxil olanda axtarıb özünün qəbul etdiyi və sevdiyi müəllimi tapır və onun dərsinə gedir.

### Əzbərçiliyin yerinə düşüncəyə təmayül

Hövzədə əsas iş düşünmək və diqqətlə araşdırmaqdır, əzbərləmək deyil. Əzbərçilik bu gün bizim yeni təhsil sistemimizin bəlasıdır. Biz bir müddətdir onunla mübarizə aparırıq. Bu hələ düzəlməmişdir, amma düzəlməlidir. Hövzədə ənənəvi olaraq əsas məsələ düşünmək olmuşdur.

### Dərslərin öncədən mütaliə edilməsi

Hövzə tələbəsi oxuduğu dərsi qabaqcadan mütaliə edib zehnini hazırlayır ki, müəllimdən yeni söz eşitsin.

### Dərslərin mübahisəsi

Dərsdən sonra onu bir sinif yoldaşı ilə mübahisə edir; bir dəfə bu ona dərs deyir, bir dəfə də o buna və bu yolla zehinlərinə hopur.

### Müəllimin dərsini yazmaq

Nəcəf kimi bəzi hövzələrdə müəllimin dərsini yazmaq adət olmuşdu. Qumda bunu az edirdilər, yaxud etmirdilər və çox nadir idi. Müəllimin dərsindən sonra savadlı bir tələbə oturub müəllimin dediyi həmin dərsi ehtiyacı olan bəzi tələbələr üçün yenidən deyirdi. Görün bu iş tələbənin elmini, savadını və məlumatını dərinləşdirmək üçün nə qədər təsirlidir. Bu ənənələri əldən vermək olmaz. Bunlar heyfdir.

## *Şagirdin müəllimə hörməti və onun qarşısında təvazökarlığı*

Müəllimə hörmət də bir məsələdir. Elmi hövzələrdə geniş yayılmış ənənələrdən biri şagirdin müəllim qarşısında təvazökarlığı, ona hörmət göstərməsidir. Öyrənci əxlaqı mövzusunda çoxlu kitablar yazılmışdır; yəni tələbənin müəllim qarşısında hansı vəzifələri və müəllimun onun üzərində hansı hüquqları var. Əlbəttə, qarşılıqlı olaraq tələbənin də müəllim üzərində haqları var. Müəllim yalnız dərsi deyib getməməlidir, şagirdin sözünü də dinləməlidir. Bunlar qədimdən adət olmuşdur. Bizim dövrümüzdə bəzi böyük alimlər vardı, indi də belələri var; şagird dərsdən sonra müəllimin evinədək onu müşayiət edir, elmi müzakirə aparır, söhbətləşir və sual verir; məclis elm məclisidir, araşdırma və sual-cavab məclisidir. Bunlar bizim hövzəmizin yaxşı ənənələridir. Digərlərinin bunları bizdən öyrənmək istədiyi halda biz bunları digərlərinin qüvvədən düşmüş və köhnəlmiş üsulları ilə əvəzləyək?! Deməli, bu ənənələr qalmalı və gücləndirilməlidir. Yenilik bunları dəyişdirmək deyil.

## *Hövzədə müsbət yeniliyin şərtləri*

## *Elmi fəaliyyətlərin günün ehtiyaclarına uyğun olması*

Müsbət yenilikdə mütləq lazım olan məsələlərdən biri budur ki, biz özümüzü və elmi fəaliyyətimizi ehtiyaclara uyğunlaşdıraq. Bizim xalqımızın ehtiyaclı olduğu və bizdən cavab istədiyi məsələlər var. Biz onları təmin etməliyik. Elə mövzular da var ki, xalqın onlara ehtiyacı yoxdur; çox işlənib, çox araşdırılıb. Onlarla məşğul olmamalıyıq. Bunlar çox əsaslı və mühüm məsələlərdir. Biz universitetdən istəyirik ki, öz fəaliyyətini cəmiyyətin ehtiyacları ilə uyğunlaşdırsın.

Universitetlə, müəllimlərlə və tələbələrlə üzləşdikdə bunu həmişə onlardan istəyirik. Deyirik ki, elmi fənlərinizi cəmiyyətin ehtiyaclarına uyğunlaşdırın, görün bizə nə lazımdır. Bu, hövzələrə daha çox lazımdır.

## *Yeniliyin hövzənin rəftar və əxlaq sisteminə uyğunlaşdırılması*

Sonrakı məsələ hövzələrin rəftar və əxlaq sistemi məsələsidir. Əgər yenilik baş verəcəksə, bu yenilik bu cəhətə də malik olmalıdır. Burada bir neçə mövzu var. Mən onları qeyd etmişəm:

## *Müəllimlərə hörmət*

Hövzələrin rəftar və əxlaq sistemi müəllimlərə hörmət istiqamətində olmalıdır; müəllimə hörmət, dəyərli kadrlara hörmət, xüsusən təqlid müctəhidlərini uca tutmaq. Heç kəs asanlıqla təqlid müctəhidliyi həddinə çatmır; bunun üçün çoxlu səlahiyyətlər lazımdır. Təqlid müctəhidləri əksərən elmi hövzələrin elmi zirvələri sayılırlar. Buna görə təqlid müctəhidlərinin hörməti qorunmalı, onlar uca tutulmalıdırlar.

## *Paklığa və mənəviyyata diqqət*

Hövzələrin rəftar və əxlaq sistemində başqa bir məsələ mənəviyyatdır, mənəvi paklıqdır. Bu çox əhəmiyyətli məsələdir. Hövzənin bugünkü gənci mənəvi saflıq məsələsinə keçmişdəkilərdən daha çox ehtiyaclıdır. Ümumi biheviorizm fənlərini mütaliə edənlər, bu fənlərdə işləyənlər bunu təsdiq edirlər. Bu gün bütün dünyada belədir; maddi sistem və maddiyyat təzyiqi gəncləri hövsələsiz edir, depressiyaya salır. Belə bir vəziyyətdə gənclərə yardım etmək üçün mənəviyyata və əxlaqa diqqət yetirmək lazımdır. Yalançı irfanların inkişaf etməsinin və bəzi adamların onlara üz tutmasının səbəbi

budur; ehtiyac var. Elmi hövzədə təhsil alan gəncimiz – istər qız, istər oğlan tələbə mənəvi paklığa ehtiyaclıdır. Bizdə mənəvi paklığın zirvə nöqtələri var. Bu Qumda yaşamış mərhum Hacı Mirzə Cavad ağa Məliki, mərhum Əllamə Təbatəbai, mərhum ağa Bəhcət, mərhum ağa Bəhaəddini hövzədə mənəvi paklığın zirvələri olmuşlar. Bunların rəftarı, həyatı və sözləri insanı sakitləşdirən, ona aramlıq verən, nur verən, qəlbləri işıqlandıran ən şəfalı amillərdəndir. Nəcəfdə böyüklər vardı; mərhum Axund Molla Hüseynqulunun şagirdləri, mərhum ağa Qazi və digərləri dəyərli şəxslər olmuşlar. Bunların düşüncə və irfan məktəbləri ilə işimiz yoxdur. Burada söhbət nəzəri məsələlərdən getmir. Onların müxtəlif məktəbləri vardı. Mərhum Seyid Mürtəza Kəşmiri mərhum Hacı Mirzə Əli ağa Qazinin müəllimlərindən biridir. Amma bunların düşüncə nihləsi bir-birindən tamamilə fərqlənir. O, bir kitabı qəti şəkildə qadağan edir, o biri isə həmin kitaba eşq bəsləyir; eybi yoxdur. Məşhəddə yaşayan bu böyük alimlər təqva və mənəvi paklıqla tanınırdılar; mərhum Hacı Mirzə Cavad ağa Tehrani, mərhum Hacı Şeyx Müctəba və digərləri. Əsas məsələ budur ki, bu paslı qəlbə mənəvi bir dil və ürəkdən gələn bir söz şəfa versin, bu pası təmizləsin. Lakin biz burada nəzəri irfanlar haqda danışmırıq.

## *Hövzənin davranış sisteminə inqilabçı təmayüllərin hakim olmasının zəruriliyi*

Hövzənin davranış və əxlaq sistemi barədə başqa bir amil hövzədə inqilabi təmayül və hisslərdir. Mənim əzizlərim! Ölkədə inqilabi mühitin inadkar və kinli düşmənləri var. Onlar inqilabi ab-havanın hakim olmasına qarşıdırlar, onu yox etmək istəyirlər. Gördünüz ki, bir zaman şəhadəti şübhə altına saldılar, cihadı şübhə altına saldılar, şəhidi şübhə altına saldılar, imamın nəzərlərini şübhə altına saldılar,

peyğəmbərləri şübhə altına saldılar. Problem bu deyil ki, kimsə bu məfhumlarla müxalifdir; problem budur ki, bu müxalifət cəmiyyətdə düşmən baxışından irəli sürülməli, yeni ab-hava yaranmalı və inqilab ab-havası yox olmalıdır. Elmi hövzədə və həmçinin cəmiyyətdə hamı bu məsələyə diqqət yetirməlidir. Təbii ki, elmi hövzələrdə də belədir. Bilirlər ki, siz ruhani yalnız bir fərd deyilsiniz; sizi dinləyənlər, sevənlər var, öz ətrafınıza təsir göstərirsiniz. Onlar inqilabi ab-havanı korlamaq, inqilabçı ruhanini təcrid etmək istəyirlər. Əgər Allah eləməmiş, hövzənin harasındasa Bəsic üzvünü təhqir etmək, şəhidi və şəhadəti təhqir etmək, bu xalqın uzunmüddətli cihadını sual altına qoymaq halları yaransa, faciədir. Hövzənin böyükləri ehtiyatlı olmalı və bunun qarşısını almalıdırlar.

## *İnqilabçı tələbələr barədə lazımi məqam və xatırlatmalar*

Bir məsələ də hövzənin aktiv və inqilabçı gənclərinə müraciətdir. Hövzə əksərən həmin inqilabçı tələbələrdən və aktiv gənclərdən ibarətdir. Mənim əzizlərim! Gələcək sizə məxsusdur. Ölkənin ümidi sizsiniz. Çox ehtiyatlı olmalısınız. Düzdür, inqilabçı və gənc tələbə əməl adamıdır, iş adamıdır, bu gün-sabah edən deyil, amma ehtiyatlı olmaq lazımdır.

## *İnqilabçı hərəkətləri ifrat və təfritdən qorumaq*

İnqilabçı hərəkət elə olmalıdır ki, ona ifratçılıq ittihamı irəli sürülə bilməsin. İfrat və təfritdən çəkinmək lazımdır. İnqilabçı gənclər bilsinlər: kənara çəkilməyin, sükutun və laqeydliyin ziyan vurduğu kimi, ifratçılıq da ziyan vurur. Ehtiyatlı olun ki, ifratçılıq baş verməsin. Əgər bizə verilən məlumatlar – nə

zamansa hövzənin bəzi müqəddəslərinə, böyüklərinə, bəzi təqlid müctəhidlərinə hörmətsizlik edilməsi düzgün olsa, bilin ki, bu, şübhəsiz, sapqınlıqdır, səhvdir. İnqilabçılıq bunları tələb etmir.

## *İnqilabçı qüvvələrin xüsusiyyətləri*

İnqilabçı agah və diqqətli olmalı, dövrün şəraitini yaxşı dərk etməlidir. Məsələ bu qədər sadə deyil ki, birini rədd, birini təsdiq, birini qəbul edək. Belə olmaz. Siz diqqətli olmalı, inqilabçı fəallığını qorumalı, problemlərə dözməli, digərlərinin tənəsinə görə üz çevirməməli, amma xamlıq da etməməlisiniz; ethiyatlı olun, məyus olmayın, səhnədə qalın, amma diqqətli və ehtiyatlı olun ki, sizin fikrinizcə bəzi şəxslərin etiraza layiq hərəkətləri sizi qəzəbləndirməsin, özünüzdən çıxarmasın. Məntiqlə və ağılla rəftar etmək lazımdır.

## *İnqilabçı qüvvələrə ifratçılıq ittihamı*

Əlbəttə, bunu da hamıya tövsiyə edirəm ki, inqilabçı qüvvələri ifratçılqda ittiham etməsinlər. Bəziləri bunu istəyirlər; inqilabçı qüvvəni, inqilabçı gənci, inqilabçı tələbəni, hər hansı səviyyədə olan inqilabçı alimi və müəllimi ifratçılıqda ittiham edirlər. Xeyr, bu da düşmənin idarə etdiyi bir səhvdir; aydın məsələdir. Deməli, nə o tərəfdən, nə bu tərəfdən.

## *Hövzədə yeniliyin idarəsinin zəruriliyi*

Bunlar yeniliyə aid məsələlər idi. İndi mən sizdən soruşuram: sistemli idarəçilik olmadan bu mürəkkəb, geniş, kompleks və müxtəlif cəhətlərə malik olan yeniliyi idarə etmək mümkündürmü? Biz bir neçə il öncə bu məsələ haqda bu elmi hövzədə bu gün bəziləri böyük təqlid

müctəhidlərindən olan və o zaman Müdərrislər Cəmiyyətində çalışan, bəziləri də dünyadan köçmüş şəxslərlə – Allah onlara rəhmət eləsin - söhbət etdik və onlar qəbul etdilər. Təqlid müctəhidlərinin və böyük alimlərin təsdiq etdiyi və hövzə məsələlərində fikir sahibi olan təşkilati bir qrup tərəfindən hövzənin idarəsi və müdiriyyəti zəruri və qaçılmaz bir işdir; başqa cür mümkün deyil. Bu mürəkkəb, mühüm və kompleks iş güclü bir müdiriyyət olmadan görülə bilməz.

İki məsələyə də toxunub söhbətimi bitirmək istəyirəm; məclisimiz çox uzun çəkdi. Siz qardaş və bacılardan üzr istəyirəm; bu yer çox geniş olsa da, siz sıx və çətin oturmusunuz. Həmçinin bayırda həyətdə, yaxud Böyük məscidin (məscidi-əzəmin) şəbistanlarında oturan qardaş və bacılardan üzr istəyirəm.

## *Hövzədə fəlsəfə və kəlama diqqətin zəruriliyi*

Bir məsələ fəlsəfə dərsi və fəlsəfə fənnidir. Diqqətli olun ki, fiqhin əhəmiyyəti və əzəməti fəlsəfə dərsinin, fəlsəfə fənninin və elminin əhəmiyyətini unutdurmasın. Bunların hər birinin öz funksiyası var. Fiqh fənninin də funksiyası var, fəlsəfənin də böyük funksiyaları var. İslam fəlsəfəsi həmişə elmi hövzələrdə olmuşdur və yenə də olmalıdır. Əgər siz onu tərk etsəniz, lazımi səlahiyyətləri olmayan digərlərinin götürməsi mümkündür; fəlsəfənin tədrisi və fəlsəfə elmi bəlkə də lazımi səlahiyyətlərə malik olmayan şəxslərin əlinə düşəcək. Əgər bu gün bizim quruluşumuz və cəmiyyətimiz fəlsəfədən məhrum olsa, müxtəlif şübhələr qarşısında, idxal olunan müxtəlif fəlsəfələr qarşısında əliyalın və müdafiəsiz qalacaq. Sizin cavabınızı verə bilən elm çox zaman fiqh deyil, əqli elmlərdir, fəlsəfə və kəlamdır. Bunlar lazımdır; bunlar hövzənin mühüm fənləridir. Başqa bir mühüm fənn təfsirdir; Quranla ünsiyyət, Quran bilgiləri. Biz təfsirdən məhrum

olmamalıyıq. Təfsir dərsi əhəmiyyətli dərsdir; fəlsəfə dərsi əhəmiyyətli dərsdir. Bunlar çox dəyərli fənlərdir.

## *Hövzənin qadın tələbələrinin əhəmiyyəti və dəyəri*

Son məsələ tələbə bacılar barədədir. Bu çox möhtəşəm və mübarək bir məsələdir. Qadın hövzələrində minlərlə alim, tədqiqatçı, fəqih və filosof yetişir. Bu çox əzəmətli iş olacaq. Görün materialist dünyanın qadın məsələsinə və qadın cinsinə baxışı necə də pis, təhqiramiz və azğın baxışdır. Müsəlman qadın alimlərin, məsələn universitet mənsubu olan elmli, dərrakəli, dindar və alim qadınların müxtəlif sahələrdə iştirakı dünyaya çox möhtəşəm təsirlər qoyur və inqilab üçün hörmət qazanır. Xanımlar yaxşı dərs oxumalıdırlar. Əlbəttə, xanımların dərs oxumasında son məqsəd yalnız müctəhid, yaxud filosof olmaq deyil. Ola bilsin bəzilərinin həvəsi, istedadı və vaxtı olsun, bəzilərinin isə olmasın. Son məqsəd İslam və Quran təlimləri ilə tanış olmaqdır. Bu, onların özü və digərləri üçün faydalı ola bilər.

İlahi! Deyib-eşitdiklərimizi Özün üçün və Öz yolunda olanlardan et!

İlahi! Bu deyilənlərə, eşidilənlərə, hövzədə görülən bu əzəmətli işlərə Özün Öz tərəfindən bərəkət ver!

İlahi! Bizim işimizi, sözümüzü, hərəkətimizi dövrümüzün imamının diqqət və razılığına şamil et! O həzrətin müqəddəs qəlbini bizdən razı et! Öz rəhmət və bərəkətini bu yolu açan Böyük İmamın və əziz şəhidlərin pak ruhlarına şamil et!

Allahın salamı, rəhməti və bərəkəti olsun sizlərə!

# İslam İnqilabının Böyük Rəhbərinin Qum Elmi Hövzəsinin tələbə, alim və müəllimləri ilə görüşdəki tələbləri

## *1. Hövzənin beynəlxalq, siyasi və problemli məsələlərdə fəal iştirakı*

Bəzi adamlar deyə bilərlər ki, əgər elmi hövzələr beynəlxalq məsələlərə, siyasi və problemli məsələlərə qoşulmasaydılar, bu qədər düşmənləri olmazdı və bugünkündən daha hörmətli olardı. Bu sofizmdir... Odur ki, elmi hövzələrin bu hərəkəti, beynəlxalq hadisələr, mühüm milli və qlobal məsələlərdə bitərəf qalmaması zəruri məsələdir və bunu yaddan çıxarmaq olmaz.

## *2. Hövzənin quruluş qarşısındakı vəzifələri: nəzəriyyə yürütmək və şübhələrə cavab vermək*

- Bir xalqın və bir ölkənin bütün idari məsələlərində nəzəriyyə yürütmək və siyasi nəzəriyyəçilik işi İslam quruluşunda din alimlərinin üzərinə düşür.

- Din alimlərinin bu şübhələri dəf etməsi, bunlarla mübarizə aparması, bu tozları cəmiyyətin zehnindən silməsi İslam quruluşu üçün başqa bir dayaq və dəstəkdir.

## *3. Qərbin humanitar elmlərinin yerinə İslamın humanitar elmlərinin qoyulması*

Mən universitetlərdə mövcud olan humanitar elmlərə və mahiyyətcə zəhərli olan bu elmlərin təhlükəsinə dair həm universitetlərə, həm də məmurlara xəbərdarlıq etmişəm. Həmin xəbərdarlıqlar bundan ötrüdür ki, bu gün geniş yayılmış humanitar elmlərin İslam hərəkətinə və İslam

quruluşuna mahiyyətcə müxalif və zidd olan, başqa bir dünyagörüşə əsaslanan, başqa sözü və məqsədi daşıyan məzmunları var. Bunlar öyrədildikdə müdirlər onların əsasında yetişirlər, sonra həmin müdirlər gəlib universitetin, ölkə iqtisadiyyatının, daxili və xarici siyasətin, təhlükəsizlik və digər məsələlərin başında dururlar.

## 4. Hövzə tələbələrinin məişətinin xalq tərəfindən təmin olunması

Hövzə tələbələrinin məişəti ənənəvi, çox mənalı və məqsədli olaraq xalq tərəfindən təmin olunmalıdır; xalq şəriət ödənişlərini verməlidir. Bu mənim fikrimdir.

## 5. Hövzələrin büdcəsinin dövlət tərəfindən və beytülmalla təmin olunması

Hövzələrin elə işləri var ki, müsəlmanların beytülmalının və hökumətlərin köməyi olmadan onların həyata keçməsi imkansızdır. Hökumətlər bu büdcələri təmin etməli və eyni zamanda onların işinə qarışmamalıdırlar.

## 6. Hövzələrdə yeniliyin idarəsi

Barəsində açıq danışmağın lazım olduğu başqa mühüm məsələ hövzələrdə yenilik məsələsidir. Bir neçə ildir elmi hövzələrdə, xüsusən də mübarək Qum Elmi Hövzəsində yenilik məsələsi gündəmdədir. Mənim sözüm həmişə bu olub, indi də budur, əvvəllər də müxtəlif məclislərdə hövzə alimlərinə bunu demişik: Yenilik və dəyişiklik zəruri məsələdir və baş verəcək.

Bu yeniliyi və dəyişikliyi ya idarə etməli və istiqamətləndirməliyik, ya da özbaşına buraxmalıyıq. Əgər buraxsaq, uduzacağıq. Hövzənin böyükləri, təqlid müctəhidləri, mütəfəkkirlər, alim və müəllimlər kəmərlərini

möhkəm bağlamalı, iradə göstərməli, bu yenilik üçün proqram hazırlamalı, onu istiqamətləndirməli və idarə etməlidirlər. Təqlid müctəhidlərinin və böyük alimlərin təsdiq etdiyi və hövzə məsələlərində fikir sahibi olan təşkilati bir qrup tərəfindən hövzənin idarəsi və müdiriyyəti zəruri və qaçılmaz bir işdir; başqa cür mümkün deyil. Bu mürəkkəb, mühüm və kompleks iş güclü bir müdiriyyət olmadan görülə bilməz.

## *7. Hövzələrdə ictihadı gücləndirmək*

Bu ictihad hövzədə güclənməlidir.

## *8. Əqli elmlərdə, fəlsəfə və kəlamda ictihad*

İctihad yalnız fiqhə məxsus deyil; əqli elmlərdə, fəlsəfə və kəlamda da bu fənlərin mütəxəssisləri ictihad etməlidirlər.

## *9. Hövzənin günün fiqh, fəlsəfə və kəlam ehtiyaclarına hazırlığı*

Bu gün hövzə dünyanın müxtəlif fəlsəfə, fiqh və kəlam məsələlərindən kənarda qalmamalıdır... Nə kənarda qalmalıdır, nə də bitərəf olmalıdır; bunların hər ikisi zərərlidir. Yeni düşüncə lazımdır. Dünyada sel kimi meydana çıxan müxtəlif ehtiyaclara cavab verilməlidir. Siz onlara cavab hazırlamalısınız... İslam epistemologiyasının, İslamın iqtisadi və siyasi doktrinasının, onların əsasını təşkil edən fiqh və hüquq nəzəriyyələrinin, təlim və tərbiyə sisteminin, əxlaqi, mənəvi və digər məfhumların izahı dəqiq, elmi, qaneedici və dünyanın geniş yayılmış düşüncələrinə hesablanmış şəkildə hazırlanmalıdır. Bu, hövzələrin işidir.

## 10. Elmi hövzənin yaxşı ənənələrini qorumaq və gücləndirmək

Elmi hövzədə bizim çox yaxşı üsullarımız var. Bunlar qədimdən adət olmuşdur... Bu ənənələr qalmalı və gücləndirilməlidir. Yenilik bunları dəyişdirmək deyil.

## 11. Elmi fəaliyyətlərimizin günün ehtiyaclarına cavab verməsi

Müsbət yenilikdə mütləq lazım olan məsələlərdən biri budur ki, biz özümüzü və elmi fəaliyyətimizi ehtiyaclara uyğunlaşdıraq.

## 12. Yeniliyin hövzənin davranış və əxlaq sistemi ilə uyğunluğu

Sonrakı məsələ hövzələrin rəftar və əxlaq sistemi məsələsidir. Əgər yenilik baş verəcəksə, bu cəhətə də malik olmalıdır.

## 13. Hövzənin davranış və əxlaq sistemində riayət olunmalı məsələlər:

### a) Müəllimlərə hörmət

Hövzələrin rəftar və əxlaq sistemi müəllimlərə hörmət istiqamətində olmalıdır.

### b) Mənəviyyata və mənəvi paklığa diqqət

Hövzələrin rəftar və əxlaq sistemində başqa bir məsələ mənəviyyatdır, mənəvi paklıqdır. Bu çox əhəmiyyətli məsələdir.

### c) Hövzənin davranış sisteminə inqilabi təmayüllərin hakim olması

Hövzənin davranış və əxlaq sistemi barədə başqa bir amil hövzədə inqilabi təmayül və hisslərdir. Mənim əzizlərim! Ölkədə inqilabi mühitin inadkar və kinli düşmənləri var. Onlar inqilabi ab-havanın hakim olmasına qarşıdırlar, onu yox etmək istəyirlər.

## 14. İnqilabçı tələbələr barədə diqqətəlayiq məqamlar

### İnqilabçı hərəkətlərin ifrat və təfritdən qorunması

İnqilabçı hərəkət elə olmalıdır ki, ona ifratçılıq ittihamı irəli sürülə bilməsin. İfrat və təfritdən çəkinmək lazımdır.

### Agahlıq və dövrü düzgün tanımaq

İnqilabçı agah və diqqətli olmalı, dövrün şəraitini yaxşı dərk etməlidir.

# Möhtəşəm iman

**Qum vilayətinin minlərlə Bəsic üzvü ilə görüşdəki çıxış**

**24 Oktyabr 2010**

Bismillahir-Rəhmanir-Rəhim.

Həmd və səna aləmlərin Rəbbinə məxsusdur. Ağamız və peyğəmbərimiz Əbülqasim Məhəmmədə və onun pak, seçilmiş və məsum ailəsinə, xüsusən də Allahın Yer üzündə saxladığı (İmam Mehdiyə) salavat və salam olsun! Salam olsun, sənə, ey sərvərimiz və mövlamız, ey Fatimə Məsumə, ey Musa ibn Cəfərin qızı! Allahın mələklərinin və seçilmiş bəndələrinin salam olsun sənə, sənin pak ata-babalarına!

## *Bəsicin əhəmiyyəti*

### Bəsic üzvlərinin izdihamlı toplantısı – quruluşun əzəmətinin göstəricisi

Əziz Bəsic üzvlərinin, səmimi və mərifətli qəlblərin, güclü və möhkəm iradələrin bu müqəddəs mərkəzdə, böyük və məsum xanımın - Musa ibn Cəfərin (ə) qızının pak ruhu yanında toplaşmasının özü İslam quruluşunun əzəmətini və inkişafda olmasını göstərmək üçün bir meyar, əlamət və bayraqdır.

## *Quruluşu təhlükələrdən qorumaqda Bəsic gənclərinin rolu*

Əgər bu quruluşun canlı, fəal, iradəli, məqsədli və inkişafda olması üçün heç bir dəlilimiz olmasaydı da, onun və İran xalqının bu əzəmətli hərəkətinin düşmənin ən mürəkkəb təxribatları və ən təhlükəli işləri qarşısında toxunulmaz olduğunu göstərmək üçün ölkə boyu Bəsic adı altında milyonlarla aktiv, mömin, sədaqətli və agah gəncin toplaşması

kifayət edərdi. Sözsüz ki, bu, şüarçılıq deyil, məntiqi dəlillərə əsaslanan bir sözdür.

## *İmam - Bəsic təfəkkürünün banisi*

### İmam tərəfindən Bəsicin təsis edilməsinə şəraitin yaradılması

Bəsic Allah-Taalanın o saleh bəndəyə, o böyük insana, imamlardan sonra İslam tarixinin bənzərsiz, yaxud bənzəri az olan şəxsiyyətinə bəxş etdiyi ilahi qüdrət əlamətlərindən biridir. Böyük İmamın irəli sürdüyü, yaratdığı, bütün qüvvəsi ilə arxasında durduğu, bu yeni ağacı suvarıb nəhayət barlı-bəhrəli ağaca, "Rəbbinin izni ilə hər vaxt bəhrəsini verən" ağaca çevirdiyi ümumi Bəsic və Məzlumlar Bəsici fikri o böyük kişiyə, Allahın saleh və müti bəndəsinə ilahi lütflərdən biri idi. İmamın bəsirətli gözü bu ilahi qüdrət və yardım əlamətlərini görürdü. Bizim eybimiz budur ki, bəzən ilahi yardımlara toxunuruq, amma onları yaxşı görmürük, Allahın bizə necə böyük yardımı olduğunu ayırd edə bilmirik; o isə görürdü.

O bir dəfə mənə buyurdu ki, inqilabın əvvəlindən bu günə qədər - o zaman təxminən 1986-ci il idi – hər yerdə bizə yardım edən və işlərimizi düzəldən qüdrət əlini görürəm. O bu qüdrət əlini görürdü.

## *İmamın İran xalqına güclü inamı*

İmamın İran xalqına baxışı digərlərindən fərqlənirdi. O zaman dini və qeyri-dini elm adamlarının, siyasi xadimlərin çoxu İran xalqı haqda qəribə mühakimələr yürüdürdülər; bəziləri bu xalqı imanlı, bəziləri sədaqətli bilmirdi, bəziləri də onların gücünə və vəfadarlığına şübhə ilə yanaşırdı. Biz bunları çoxlarından eşitdik. İmam isə 1962-ci ildə, bu möhtəşəm toplantıların heç birinin olmadığı zaman bu Qum

şəhərində, bu Böyük məsciddə dedi ki, əgər biz xalqa çağırış etsək, Qum səhrası insanla dolar, hamı ləbbeyk deyər. Onun xalqa baxışı belə idi.

## *İmamın xalqı tanıması*

İmam xalqı tanıdı; xalqın canında və qəlbində misləri qızıl edən bu iksirə bənzər dəyərli qüvvəni kəşf etdi və işlətdi. Odur ki, böyük maneələrə rəğmən, inqilab qələbə çaldı. Heç bir analitik burada bu hadisənin baş verəcəyinə inanmırdı. O isə Allaha arxalandı, Allaha təvəkkül edib işə girişdi, xalqın qəlbi ilə ünsiyyət yaratdı, xalq səhnəyə çıxdı və bu möhtəşəm hərəkət baş verdi. Sonra da Bəsic məsələsini irəli sürdü.

## *Bəsicin səmərəliyi*

### Bəsicin davamlı faydalığı

Siz Böyük İmamın öz əli ilə bu torpaqda əkdiyi pak və gözəl ağacın şirin və dadlı meyvələrisiniz. Bu bar hələ də davam edir və davam edəcək. Necə ki, buyurdu: "Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt verər". Torpaq yararlı və toxum təmiz olduqda bitki qurtaran deyil və heç bir amil ona zərər yetirə bilməz. Bəsic belə pak və gözəl ağacdır.

## *Müharibə dövründə Bəsicin rolu*

Bəsic çoxlu imtahanlar vermişdir. Sizdən qabaqkı gənc nəsil məcburi müharibədə böyük işlər gördü. Biz ətirli istedad güllərinin çiçək açmasını bu gənclərin vücudunda gördük. 22-23 yaşlı gənc peşəkar və təcrübəli bir komandir kimi əsgərləri toplayıb onlara başçılıq edirdi, yol göstərirdi, öz yerində işlədir və qələbə çalırdı. Bunlar adi məsələlər deyil. Müharibə

dövründə Bəsic öz öhdəsinə düşəni yerinə yetirdi. Həm ordu, həm korpus qəbul və etiraf edirdilər ki, bu uzun və məşəqqətli cəbhənin bütün hissələrində Bəsicin iştirakı təyinedicidir.

## *Müharibədən sonrakı cihadlarda Bəsicin rolu*

Məcburi müharibə bitəndə dayaz düşüncəli adamlar Bəsicin də bitdiyini düşünürdülər. Lakin Bəsic qaldı; çünki mücahidlik qalmışdı; çünki cihad davam edirdi. Harada cihad varsa, Bəsic oradadır; elmdə, siyasətdə, ictimai fəaliyyətlərdə, geniş və əzəmətli beynəlxalq məsələlərdə. Bu mücahidliklər davam edir və davam edəcək.

## *Bəsic - imanın və mücahid əməlin sintezi*

Bəsicin mənası iman və əməlin birləşməsidir; sırf şəxsi əməlin yox, mücahid əməlin. İslama görə əməlsiz iman minimum həddir. Kamil və həqiqi iman isə əməl meydanında cihadla yanaşı olandır: "İman gətirib hicrət edənlər, Allah yolunda cihad edənlər və sığınacaq verib kömək edənlər – məhz onlar həqiqi möminlərdir. Onları bağışlanma və tükənməz (gözəl) ruzi gözləyir!"

Həqiqi mömin imanı cihad, hicrət və yardımla yanaşı edən şəxsdir. Bəsicin səciyyəsi budur. Bu ayə və çoxlu ayələr Allaha yaxınlaşmaq üçün əməlsiz və cihadsız imanı kafi bilməyimizə dair səhv və azdırıcı fikri rədd edir. Bəsicin şərti əməllə, özü də mücahid əməllə yanaşı olan imandır. Deməli, cihadın müxtəlif sahələri vardır.

## *Bəsicin müxtəlif cəhətlərdən inkişafı*

Bəsic bu günə qədər inkişaf etmişdir. Bəsicin müxtəlif cəhətlərdən inkişaf etməsi onu tanıyan hər bir kəsin gözlədiyi kimidir; həm kəmiyyət inkişaf etmişdir, həm keyfiyyət və mənəviyyat, həm də insanın qəlbinə təsir göstərən və onu

tərpədən maneə və əngəllər, yəni vəsvəsələr qarşısında müqavimət. Bəsic bu sahələrdə öz imtahanını vermişdir.

## *Bəsic hərəkəti*

Bəsic hərəkətinin xüsusiyyətləri

Bizim hamımız üçün, bütün əziz Bəsic üzvləri üçün, bu əzəmətli meydanın hər hansı bir nöqtəsində çalışan gənclər üçün lazımi xüsusiyyətlər bu üç elementdən ibarətdir: agahlıq, ixlas, zamanında və qədərincə əməl. Bu üç elementi həmişə bir-birinin yanında saxlayın və nəzərdən qaçırmayın. Bu üç şərt bizə meyar olmalıdır: agahlıq, ixlas, zamanında və qədərincə əməl.

## *Agahlıq*

### Yolu təyin etməkdə agahlığın rolu

Yolu təyin edən agahlıqdır. Bu möhtərəm və əziz zabit çox haqlı olaraq dedi ki, Bəsic üzvləri mürəkkəb şəraitlərdə öz zehinlərində, düşüncə və şəxsiyyətlərində zəriflik yaradıb tanımağı bacardılar. 2009-cu ilin hadisələri bunu göstərdi. Çoxlarının səhv etməsi mümkün idi, səhv etdilər də; baxmayaraq ki, onların əksəriyyəti tez bir zamanda səhvlərini düzəltdilər. Amma əzəmətli Bəsic bu agahlıq meyarını və agahlıq bayrağını qorudu və səhvə düşmədi.

## *Haqqı batildən ayırmaq üçün haqqı tanımağın lazım olması*

Əmirəl-möminin (ə) buyurmuşdur: "Haqq insanlarla tanınmır". Haqqı şəxsiyyətlərlə tanımaq olmaz. Hörmətli və tanınmış bir şəxsiyyətdir; məqbul və möhtərəmdir. Amma o, haqqın meyarı ola bilməz. Bəzən hörmətli şəxsiyyətlər, məsələn Peyğəmbərin (s) bəzi səhabələri yolu yanlış gedirlər, səhv edirlər. Haqqı tanımaq və yolu seçmək lazımdır ki,

hansısa şəxsin haqq, yaxud nahaq olduğunu bilək. Kim bu yolu getsə, haqdır; kim haqq yolu ilə getməsə, nahaqdır. Haqqı tanımaq lazımdır. Bəsicin bayrağı altına toplaşmış mömin gənclər bu agahlığı göstərdilər, agah olduqlarını nümayiş etdirdilər. Agahlıq birinci şərtdir. Gələcəkdə də belə olmaq lazımdır.

Təhlil və seçim qabiliyyəti əldə etmək lazımdır. Bütün bu işlərin banisi, cəmiyyətin və bu əzəmətli hərəkətin üzərində həyat haqqı olan imam buyurdu ki, mən İslamdan ayrılsam, xalq məndən üz çevirər. Meyar İslamdır, şəxslər deyil. Bu, imamın sözüdür. O bizə öyrətdi ki, yolu təyin edək, düzgün hərəkəti təyin edək, düşmənin planını anlayaq, oxuyaq və hansı işin düşmənin xeyrinə, hansı işin isə onun zərərinə olduğunu bilək. Deməli, agahlıq birinci şərtdir; onu unutmaq olmaz.

## *İxlas*

### İxlas - Allah yolunda hərəkətin şərti

İkinci element ixlasdır. Buyurdu ki, əgər kimsə Allah yolunda cihad edərkən şəxsi bir istək dalınca, qənimət ardınca gedib öldürülsə, Allah yolunda şəhid sayılmır. Şəhadətin və Allah yolunda mücahid olmağın şərti hərəkətin Allah yolunda və Allah üçün, yəni ixlaslı olmasıdır. Şəxsi maraqlar, qrup maraqları, qohumluq və dostluqlar bizim hərəkətimizə təsir göstərsə, bu ixlası korlayar, problem yaradar.

## *Zamanında və qədərincə əməl*

Üçüncü element zamanında və qədərincə əməl etməkdir. Anları tanımaq lazımdır. Əgər insan zamanı tanımasa, harada hansı işi görməyin lazım olduğunu bilməsə, ondan böyük səhvlərin baş verməsi mümkündür.

## *Nəfslə cihad - Bəsic hərəkətinin əsas şərtlərinə yiyələnməyin yolu*

Bizim Bəsic üzvü olan gənclərimiz - oğlan və qızlarımız müxtəlif sahələrdə çalışırlar, düşüncə fəaliyyəti, elmi, siyasi və ictimai fəaliyyətlər göstərirlər. Bunların hansı Allah üçün və vəzifəni yerinə yetirmək üçün olsa, Allah yolunda cihaddır. Bəsic üzvü bu işləri görən şəxsdir. Bunların hamısında həmin aydın və düzgün xətti - inqilab xəttini, quruluşu qorumaq və dini dirçəltmək xəttini izləmək lazımdır. Bu üç şərtə yiyələnmək üçün daxilimizdə özümüzlə mübarizə aparmalı, böyük cihad etməliyik. Nəfslə cihad bu gün bizim hamımızın ehtiyaclı olduğumuz bir işdir.

## *Düzgün xətti təyin etmənin yolu*

### Hadisələri düzgün dərk etmək üçün düşmənin istiqamətlərini öyrənmək

Hadisələri düzgün dərk etmək üçün lazım olan amillərdən biri budur ki, düşmənin hansı xətti izlədiyini bilək.

## *Həqiqətləri tərsinə göstərmək - düşmənin yumşaq müharibədə əsas istiqamətlərindən biri*

Bu gün düşmənin yumşaq müharibənin mühüm ünsürlərindən sayılan əsas xətlərindən biri həqiqətləri və müxtəlif hadisələri tərsinə göstərməkdir. Düşmənin bu sahədə apardığı təbliğatın özü onun zəifliyinə dəlildir. Düşmən real aləmdə harada problemə düçar olur və bacarmırsa, təbliğatın həcmini artırır.

## *Düşmənin təbliğatının məqsədi*

Əgər bu gün düşmənin böyük təbliğat üsullarına – internetə, səsli və görüntülü vasitələrə, müxtəlif yerlərdə, həmçinin ölkəmiz daxilindəki mikrofonlarına nəzər yetirsək, onların əsas işlərinin ölkə hadisələrini tərsinə göstərmək, ölkənin vəziyyətini məyusedici, ümidsiz, süquta, tənəzzülə və çıxılmaz vəziyyətə doğru getdiyini göstərmək olduğunu görərik. Onların uyğun yönümdə böyük səylərinin özü real aləmdəki acizliklərini göstərir.

## *Onuncu hökumət zamanı düşmən təbliğatının çoxalmasının səbəbi*

Düşmən bütün otuzillik dövrdə bu səyi göstərmişdir. Əlbəttə, bu gün bu səy daha da artmışdır. Bu gün iş başında olan hökumət və ölkə məmurları inqilab şüarlarını artırdığından və daha ciddi şəkildə irəli sürdüyündən bu təbliğat çoxalmışdır. Bu gün imamın xətti, inqilabın xətti, xalq üçün iş xətti çox qabarıq və aydın görünür, məmurlar xalqla və xalqdan olduqlarını hiss edirlər; xalq da bunu hiss edir.

## *Yumşaq müharibənin nümunələri*

### Daxili nümunələr

Düşmən özünün informasiya vasitələrində daim deyir ki, iqtisadiyyat çöküb, çıxılmaz vəziyyət yaranıb, çoxlu problemlər var, sabah filan olacaq və sair. Bəzi adamlar da bu sözlərə inanır və onları daxildə təkrarlayırlar. Çaxnaşma zamanı öz imtahanlarını verən bəzi şəxslər seçki və iğtişaşlardan öncə bizə müraciət edirdilər ki, ağa, gələn il, yəni 2009-cu il çətin il olacaq, iqtisadi vəziyyət belədir, elədir; şəraiti ağır, qaranlıq, problemli və çıxılmaz göstərirdilər; məmurları bir formada ümidsiz etmək istəyirdilər, xalqı başqa

bir formada. Bu təbliğat onların məmurların və xalqın bu əzəmətli və sürətli hərəkətindən geri qaldıqlarını göstərir. Deməli, düşmənin məqsədi bilindikdə insanın reallığa baxışı düzgün və təsirli olur.

## *Xarici və beynəlxalq nümunələr*

Xarici və beynəlxalq siyasətdə özümüzün bəzi mətbu orqanlarımızda da gördünüz, çaxnaşma müəlliflərinin ötən ildəki bəzi fikirlərində də müşahidə etdiniz. Daim təkrar edirdilər ki, biz dünyada xar olduq, İslam Respublikası dünyada rəzil oldu, dəyərsiz oldu və sair. Bu gün reallığa baxanda görürük ki, dünyanın müxtəlif xalqları - müsəlman və qeyri-müsəlman xalqlar arasında İslam Respublikasının hörməti günbəgün artmışdır. İran xalqının düşmənləri bunu bilir, anlayır, duyur və təbii ki, gizlədirlər.

## *Prezidentin Livana səfəri*

Prezidentin Livana səfəri nə üçün əhəmiyyətsiz sayılmalıdır?! Bu önəmli hadisə idi. Hansısa ölkənin, xüsusən hegemon ölkələrin başçıları üçün belə bir hadisə baş versəydi, mediada və siyasi təhlillərdə o barədə çox geniş reportajlar hazırlayardılar. Bizimlə qonşu olmayan, hamısı müsəlman olmayan, müsəlman və məsihilərdən ibarət olan, müsəlmanların da şiə və sünnilərdən təşkil olunduğu bir xalq İran xalqının prezidentini belə müxtəlif və rəngarəng tərkibdə və belə izdihamla qarşılayır və sevgi bildirir. Bunun nümunəsi azdır; bu misilsizdir. Dünyada heç bir ölkə belə bir hadisə ilə üzləşmir. Hansı ölkənin başçısı başqa ölkəyə gedəndə belə hadisələr baş verir?! Bu hadisə yalnız Livana məxsus deyil. Əgər bu gün bizim ölkəmizin yüksək məmurları Misirə də getsələr və orada xalqa imkan verilsə, həmin hadisə baş verər; Sudana da getsələr və orada xalqa imkan verilsə, həmin hadisə

baş verər; hansı İslam ölkəsinə getsələr, əgər imkan verilsə, həmin hadisə baş verər. Bu, İran xalqının əzəmətini göstərir. Bunu siz etdiniz. Bu fəxr sizə məxsusdur. Əgər burada milyonlarla fəal gəncin dəstəkləmədiyi xalqdan uzaq bir hökumət olsaydı, belə bir hadisə baş verməzdi. Bu siz gənclərə məxsusdur.

İndi isə düşmənin təbliğatına baxın; bunun tam qarşı tərəfidir. Söyləməyə məcbur olduqları zaman həqiqəti əksinə izah edirlər; məcbur olmadıqda isə gizlədir və üstünü örtürlər.

## Düşmənin Bəsic əleyhinə təbliğatı

Bu məsələ Bəsicin özü barədə də belədir. Düşmən bir dönəmdə müxtəlif beynəlxalq tribunalardan Bəsic əleyhinə hücuma keçdi; bu gün də bu az-çox davam edir. Bacardıqlarını dedilər, Bəsici xalqın gözündən salmaq üçün onu təbliğat atəşinə tutdular, amma bacarmadılar.

## Bəsicin parlaq kimliyini qorumaqda ilahi lütf

"Allah sözləri ilə haqqı gerçəkləşdirəcək". Allah-Taala belə aydın həqiqətin gizli qalmasına qoymur. Buna görə, Allaha şükür olsun ki, bizim ölkəmizdə Bəsicin hörməti günbəgün artmışdır. Ölkə boyu müxtəlif sahələrdə gənclər Bəsicə iradə və əzmkarlıq timsalı olan parlaq və əzəmətli bir kimlik kimi baxırlar. Siz Bəsic üzvləri bunu gücləndirməlisiniz. Bunu qeyd etdiyim həmin üç elementlə - agahlıq, ixlas, zamanında və qədərincə əməl elementləri ilə gücləndirin.

## *Bəsicin gələcək problemlərə qələbəsi üçün lazım olan məsələlər*

### Əməldə mötədilliyə riayət etmək

İfrat da olmamalıdır, təfrit də. Diqqətli olun; ifrat da təfrit qədər ziyan vurur. Əməl etməmək şübhəsiz, zərərlidir, amma əməldə ifrata varmaq da o qədər zərərlidir. Ehtiyatlı olun.

### *Bəsicdə inqilabi həvəsi artırmağın zəruriliyi*

İnqilabi həvəsi azca da azaltmaq olmaz. Mənim və sizin qəlblərimizdə inqilabi maraq günbəgün artmalıdır.

### *İradə və əzmkarlığı gücləndirmək*

Dünya məzlumlarının qarşısında olan bu müxtəlif problem dağları möminlərin polad kimi möhkəm iradə və əzmkarlığından başqa bir güclə aradan qalxmayacaq. Məqsəd yalnız ölkənin vəziyyətini düzəltmək deyil, İslam dünyası və hətta bəşəriyyət İslamın və İslam ümmətinin yardımına möhtacdır.

### *Allaha diqqət və ilahi övliyalara təvəssül*

Qarşıda çoxlu problemlər var; iradə və əzmkarlıq lazımdır, uzaqgörənlik lazımdır. Bu iradə və əzmkarlıq qalmalı, bu inqilabi həvəs günbəgün artmalıdır. Allaha təvəssül və diqqət, ilahi övliyalara təvəssül, ibadət yoluna, Allaha təzim və təfəkkür yolu bizim üzümüzə həmişə açıq olmalıdır. Biz bu yolla özümüzü gücləndirməliyik.

### *İnqilabi həvəsi işlətməkdə təfəkkür, diqqət və agahlıq*

Bu inqilabi həvəs qalmalıdır, amma ehtiyatlı olun ki, dəyərli olan bu həvəs və həyəcan öz yerində işlədilsin, boş

yerə sərf olunmasın. Bunun təfəkkürə, agahlığa və diqqətə ehtiyacı var.

## *İran xalqının qarşısındakı üfüq*

Şübhəniz olmasın ki, İran xalqının və İslam ümmətinin sabahı bu gündən dəfələrlə yaxşı olacaq. Görün İran xalqı otuz il öncədən - yəni inqilabın əvvəlindən bu günə qədər siyasi, elmi, ictimai və digər sahələrdə nə qədər inkişaf etmişdir. Bilin ki, gələcək illərin inkişafı ilə bugünkü inkişaf arasındakı fərq bundan da çox olacaq, xalq günbəgün inkişaf edəcək. İran xalqının hərəkəti heç bir sahədə dayanmayacaq və inşallah ilahi və dini hidayətin, Quran hidayətinin düzgün xətti və düzgün yolu ilə irəliləyəcək. İran xalqının gələcəyi parlaqdır və bu, İslam dünyasına və İslam ümmətinə təsir göstərəcək, inşallah müsəlman xalqları günbəgün daha artıq oyadacaq. Ümidvarıq Allah-Taala dövrün imamının zühurunu yaxınlaşdırsın! Bizi hüzuru və qeybi dövründə o həzrətin köməkçilərindən etsin! O həzrətin müqəddəs qəlbini bizdən razı eləsin!

İlahi! O həzrətin duasını bütün İran xalqına, xüsusən də əziz Bəsic üzvlərimizə şamil et!

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!

# İslam İnqilabının Böyük Rəhbərinin Qum vilayətinin Bəsic üzvləri ilə görüşdəki tələbləri

## *1. Bəsicin bütün sahələrdə mücahidliyinin qalması*

Məcburi müharibə bitəndə dayaz düşüncəli adamlar Bəsicin də bitdiyini düşünürdülər. Lakin Bəsic qaldı; çünki mücahidlik qalmışdı; çünki cihad davam edirdi. Harada cihad varsa, Bəsic oradadır; elmdə, siyasətdə, ictimai fəaliyyətlərdə, geniş və əzəmətli beynəlxalq məsələlərdə. Bu mücahidliklər davam edir və davam edəcək.

## *2. Agahlığın, ixlasın, zamanında və qədərincə əməlin meyar olması*

Bizim hamımız üçün, bütün əziz Bəsic üzvləri üçün, bu əzəmətli meydanın hər hansı bir nöqtəsində çalışan gənclər üçün lazımi xüsusiyyətlər bu üç elementdən ibarətdir: agahlıq, ixlas, zamanında və qədərincə əməl. Bu üç elementi həmişə bir-birinin yanında saxlayın və nəzərdən qaçırmayın. Bu üç şərt bizə meyar olmalıdır: agahlıq, ixlas, zamanında və qədərincə əməl.

## *3. Təhlil qabiliyyəti və haqqı batildən seçim bacarığı əldə etmək*

Haqqı tanımaq və yolu seçmək lazımdır ki, hansısa şəxsin haqq, yaxud nahaq olduğunu biləк. Kim bu yolu getsə, haqdır; kim haqq yolu ilə getməsə, nahaqdır. Haqqı tanımaq lazımdır... Təhlil və seçim qabiliyyəti əldə etmək lazımdır. Bütün bu işlərin banisi olan imamın cəmiyyətin və bu əzəmətli hərəkətin üzərində həyat haqqı vardır.

## *4. Lazım olan işi zamanında təyin etmək üçün dövrü tanımaq*

Üçüncü element zamanında və qədərincə əməl etməkdir. Anları tanımaq lazımdır. Əgər insan zamanı tanımasa, harada hansı işi görməyin lazım olduğunu bilməsə, ondan böyük səhvlərin baş verməsi mümkündür.

## *5. Bütün fəaliyyətlərdə inqilab xəttini, quruluşu qorumaq və dini dirçəltmək xəttini diqqətdə saxlamaq*

Bizim Bəsic üzvü olan gənclərimiz - oğlan və qızlarımız müxtəlif sahələrdə çalışırlar, düşüncə fəaliyyəti, elmi, siyasi və ictimai fəaliyyətlər göstərirlər. Bunların hansı Allah üçün və vəzifəni yerinə yetirmək üçün olsa, Allah yolunda cihaddır. Bəsic üzvü bu işləri görən şəxsdir. Bunların hamısında həmin aydın və düzgün xətti - inqilab xəttini, quruluşu qorumaq və dini dirçəltmək xəttini izləmək lazımdır.

## *6. Agahlıq, ixlas, zamanında və qədərincə əməl şərtlərini əldə etmək üçün nəfslə cihad etmək*

Bu üç şərtə yiyələnmək üçün daxilimizdə özümüzlə mübarizə aparmalı, böyük cihad etməliyik. Nəfslə cihad bu gün bizim hamımızın ehtiyaclı olduğumuz bir işdir.

## *7. Hadisələri düzgün dərk etmək və düzgün yolu tanımaq üçün düşməni tanımaq*

Hadisələri düzgün dərk etmək üçün lazım olan amillərdən biri budur ki, düşmənin hansı xətti izlədiyini bilək.

İmam buyurdu ki, mən İslamdan ayrılsam, xalq məndən üz çevirər. Meyar İslamdır, şəxslər deyil. Bu, imamın sözüdür. O bizə öyrətdi ki, yolu təyin edək, düzgün hərəkəti təyin edək,

düşmənin planını anlayaq, oxuyaq və hansı işin düşmənin xeyrinə, hansı işin isə onun zərərinə olduğunu bilək.

## 8. Agahlıq, ixlas, zamanında və qədərincə əməl şərtləri ilə parlaq Bəsic kimliyini gücləndirmək

Ölkə boyu müxtəlif sahələrdə gənclər Bəsicə iradə və əzmkarlıq timsalı olan parlaq və əzəmətli bir kimlik kimi baxırlar. Siz Bəsic üzvləri bunu gücləndirməlisiniz. Bunu qeyd etdiyim həmin üç elementlə - agahlıq, ixlas, zamanında və qədərincə əməl elementləri ilə gücləndirin.

## 9. İfrat və təfritdən çəkinmək

İfrat da olmamalıdır, təfrit də. Diqqətli olun; ifrat da təfrit qədər ziyan vurur. Əməl etməmək şübhəsiz, zərərlidir, amma əməldə ifrata varmaq da o qədər zərərlidir. Ehtiyatlı olun.

## 10. İnqilabçı həvəsini və marağını günbəgün artırmaq

İnqilabi həvəsi azca da azaltmaq olmaz. Mənim və sizin qəlblərimizdə inqilabi maraq günbəgün artmalıdır...

Bu iradə və əzmkarlıq qalmalı, bu inqilabi həvəs günbəgün artmalıdır. Allaha təvəssül və diqqət, ilahi övliyalara təvəssül, ibadət yoluna, Allaha təzim və təfəkkür yolu bizim üzümüzə həmişə açıq olmalıdır. Biz bu yolla özümüzü gücləndirməliyik.

## 11. Problemlərə qalib gəlmək üçün Bəsicin ehtiyacı olan amillər

Dünya məzlumlarının qarşısında olan bu müxtəlif problem dağları möminlərin polad kimi möhkəm iradə və əzmkarlığından başqa bir güclə aradan qalxmayacaq. Məqsəd

yalnız ölkənin vəziyyətini düzəltmək deyil, İslam dünyası və hətta bəşəriyyət İslamın və İslam ümmətinin yardımına möhtacdır. Qarşıda çoxlu problemlər var; iradə və əzmkarlıq lazımdır, uzaqgörənlik lazımdır...

Bu inqilabi həvəs qalmalıdır, amma ehtiyatlı olun ki, dəyərli olan bu həvəs və həyəcan öz yerində işlədilsin, boş yerə sərf olunmasın. Bunun təfəkkürə, agahlığa və diqqətə ehtiyacı var.

# Möhtəşəm dözüm

**Qum Elmi Hövzəsinin xarici tələbələri ilə görüşdəki çıxış**

**25 Oktyabr 2010**

Bismillahir-Rəhmanir-Rəhim.

Həmd və səna aləmlərin Rəbbinə məxsusdur. Ağamız və peyğəmbərimiz Əbülqasim Məhəmməd Mustafaya və onun pak, seçilmiş, hidayət edən və məsum ailəsinə, xüsusən də Allahın Yer üzündə saxladığı (İmam Mehdiyə) salavat və salam olsun!

Salam olsun, sənə, ey Fatimə Məsumə, ey Musa ibn Cəfərin qızı! Allahın salam olsun sənə, sənin pak və məsum ata-babalarına!

## *Müsəlman İranda xarici tələbələrin mövqeyi*

Çox şadam ki, bu gün siz əziz qeyri-iranlı tələbə və alimlərlə, həmçinin bu təhsil müəssisəsinin müəllim və müdirləri ilə görüşmək səadətinə nail oldum.

Qeyri-iranlı tələbə və alimlər bilsinlər ki, onlar müsəlman İranda qərib deyillər. Siz hətta qonaq da deyilsiniz. Siz ev sahibisiniz. Siz mənim əziz övladlarımsınız. Biz əsl İslam təlimlərini öyrənmək həvəsi ilə bu diyara səfər etmiş bu aşiq pərvanələrə "xoş gəldiniz" deyirik. Biz əsl İslam təlimlərini və Əhli-beyt (ə) bilgilərini imkanımız qədərincə sizə öyrətməyi özümüzə borc bilirik.

## *İnqilabın birinci dərsi - İran xalqının diqqətini İslam ümmətinə yönəltmək*

İslam inqilabının və mübarək İslam Respublikası quruluşunun bizə öyrətdiyi birinci dərs bu idi ki, baxışımızı İran xalqı hüdudundan geniş İslam ümmətinə yönəldək.

Böyük İmamımız bizə öyrətdi ki, baxışımız əzəmətli ümmətə yönəlməlidir. Düzdür, İran tağut dövründə diktatura və müstəmləkədən cana gəlmişdi, əzilirdi və xilas edilməli idi. Lakin əsas təzyiq və əsas hücum İslam ümmətinə yönələn tarixi hücumdan ibarət idi. Dünyanın ən həssas coğrafi nöqtələrinin birində yerləşən böyük İslam ümməti böyük güclərin müdaxiləsi, böyük qüdrətli dövlətlərin tamahkarlığı və hegemonluğun təcavüzü nəticəsində bir neçə əsr zəifliyə, geriliyə, müstəmləkəyə, maddi və elmi yoxsulluğa düçar olmuşdu. İslam inqilabının baxışı İslam dünyasına yönəlmişdi, hegemonluğun zalım və təcavüzkar əlinin İslam ümməti üzərindən götürülməsini istəyirdi. Buna görə İranda inqilab qələbə çalanda dünyanın şərqində və qərbində yaşayan bütün müsəlman xalqlar həyatlarına yeni mehin əsib havanı dəyişdirdiyini hiss etdilər, qurtuluş yarandığını duydular. Odur ki, İslam inqilabının qələbəsi və İslam quruluşunun təşkil edilməsi ilə Afrikada, Asiyada və digər bölgələrdə yaşayan müsəlmanlar öz qarşılarında yeni yolun açıldığını duydular. Biz bunu imamdan öyrəndik və İslam Respublikası quruluşunun bu aydın xətti bu günədək davam etmişdir.

## *İnqilabın ixracının düzgün anlamı və üsulu*

Böyük işin bir hissəsi sizin görməkdə olduğunuz işdir. Siz əsl xilaskar İslam təlimləri ilə tanış olmaq üçün yüzə yaxın ölkədən buraya toplaşmısınız. Məqsəd bu deyil ki, biz inqilabı siyasi ənənələrdə və siyasi leksikonda başa düşülən formada bu və ya digər ölkəyə ixrac edək. İnqilabı siyasi yollarla ixrac etmək olmaz; iniqlabı hərbi və kəşfiyyat üsulları ilə yaymaq olmaz. Bu səhvdir. Biz əvvəldən bu yolu bağladıq. İslam Respublikasının işi müsəlmanların kimlik hiss etməsi, İslam kimliyi duyması, bəşəriyyətin xilaskarı olan İslam təlimləri ilə tanış olması üçün uca İslam bilgilərinin yenidən istehsalıdır;

bilsinlər ki, Allah-Taala Peyğəmbəri "onların ağır yükünü yüngülləşdirən və üstlərindəki buxovları açan" göndərmişdir. İslam dini şirk dolu mühitlərdə insanların ayağına dolanmış bu zəncirləri açmaq istəyir. Bəs bu zəncirlər nədir? İslam ümməti qafillik səbəbindən uzun müddət bu həqiqətləri unutmuşdu.

## *Müstəmləkəçi düşmənlərin planı qarşısında inqilabın rolu*

İslam ümməti azad ola, inkişaf edə, alim, əziz və iqtidarlı qala bilər. Bunlar İslam təlimləri sayəsində mümkündür. Hegemonluq və müstəmləkəçi təşkilatlar iki yüz il boyu bu məfhumları müsəlmanların yadından çıxarmağa çalışdılar, onların siyasi və iqtisadi mərkəzlərini və yerli mədəniyyətlərini istismar edib talamaq üçün onları öz kimliklərindən xəbərsiz etdilər. İnqilab İslam ümmətinə bunları xatırlatdı.

## *İnqilabın ixracında xarici tələbələri rolu*

Siz bu gün İslam Respublikasının elmi paytaxtı olan Qum şəhərində mübarək Mustafa Universitetində bu təlimlərlə tanış olmaq kimi böyük imkan əldə etmisiniz: "Dini mənimsəsinlər və qayıtdıqda onları (Allahın əzabı ilə) qorxutsunlar". Siz özünüz mühiti aydınlatmaq üçün işıq ola bilərsiniz. Bu gün İslam dünyasının buna ehtiyacı var.

## *Dözüm və müqavimət - xarici tələbələrin problemləri aradan qaldırmaqda həyati əhəmiyyətli sərvətləri*

Əlbəttə, siz burada qürbətdə yaşayırsınız. Bura sizin eviniz olsa da, öz ailənizdən, qohumlarınızdan uzaqsınız, çətinlikləriniz var, problemləriniz var; özünüzün, həyat yoldaşlarınızın, ailələrinizin problemləri var. Dözümlü olun. Allah-Taala peyğəmbərliyinin əvvəlində öz əziz elçisinin (s)

önünə bir neçə əsas məsələ qoydu. O bu bir neçə mühüm məsələyə və istiqamətə diqqət yetirib bu ağır və bənzərsiz missiyanı yerinə yetirə bildi. Bu xətlərdən biri dözüm idi: "Bağışlayan və Mehriban Allahın adı ilə. Ey (libasına) bürünən (Peyğəmbər)! Qalx və (qövmünü Allahın əzabı ilə) qorxut! Öz Rəbbini uca tut! Libasını təmizlə! Pis şeylərdən uzaqlaş! (Etdiyin yaxşılığı) çox bilib başa qaxma! Rəbbinin yolunda (bütün çətinliklərə) döz!". Allah-Taala dözüm məsələsini Peyğəmbərin (s) qarşısına qoydu. Dözmək lazımdır.

## *Dözümün mənası*

Dözüm möhkəm olmaq, yorulmamaq və problemlərə yenilməməkdir.

## *İmam Xomeyni - dözüm və müqavimət örnəyi*

Bizim hamımız üçün müxtəlif problemlər yaranır. Gərək məğlub olmayaq. Bu dərsi bizim Böyük İmamız əməldə öyrətdi; dözdü. İmam bu Qum şəhərində ayağa qalxanda ətrafındakı bir qrup tələbədən başqa heç bir köməkçisi yox idi; qərib idi. İmam öz vətənində, öz şəhərində qərib idi, amma müqavimət göstərdi. O böyük insan müxətəlif maddi və mənəvi təzyiqlərlə üzləşdi, amma möhkəm dayandı: "Mömin möhkəm dağ kimidir; yellər onu tərpədə bilmir". Bu fırtınaların heç biri onun polad kimi möhkəm iradəsini tərpədə bilmədi; dayandı. Zirvədə bulaq daşanda yamaclar da sulanır. Onun dözümü digərlərinə də dözməyi öyrətdi, onlar da dözdülər. Böyük İran xalqı bu dözümlə bütün bu təxribatlara qalib gəldi.

## *İslam inqilabının bugünkü iqtidarı – xalqın dözüm və müqavimətinin nəticəsi*

Siz bilirsiniz ki, İran İslam Respublikasının qələbəsindən bu günə qədər bu xalqın və bu quruluşun əleyhinə nə qədər

təxribat, nə qədər gizli və zəhərli xəncərlər işlədilmişdir. Bizim əleyhimizə görülən işlərin yalnız biri səkkizillik müharibə idi. Bizi səkkiz il müharibəyə vadar etdilər. İslam Respublikası əleyhinə bir təxribat otuzillik embarqodur. Bu gün embarqo hayqırırlar, amma embarqo bu günə məxsus deyil, İslam Respublikası otuz ildir iqtisadi embarqodadır. Bu xalqın dözümü və müqaviməti bu xəbisliklərin, ədavətlərin və əngəllərin hamısına qalib gəldi. Bu gün Allahın köməyi və izni ilə İslam Respublikası siyasi və təhlükəsizlik baxımdan iqtidarın zirvəsindədir. Dözümü və müqaviməti unutmayın. Bu, uca məqsədi olan hər bir insanın həyatında mühüm amildir.

## *Əhli-beytin (ə) sözünü dirçəltmək - xarici tələbələrin əsas məqsədi və missiyası*

Siz İslamın ehtiyatlarısınız. Siz İslam üçün əzəmətli sərvətlərsiniz. Burada yaxşı dərs oxuyun, inqilab şəraitində və İslam Respublikası quruluşunda yaxşı nəfəs alın və Allaha ümidlə lazım olanda öz xalqınızın yanına qayıdın, elm vasitəsi ilə, səbir, əxlaq, təvazökarlıq, xalqa məhəbbət və sevgi silahı ilə bu həqiqətləri ötürün. Sizin burada təhsil almanızın məqsədi siyasi məqsəd deyil, elmi və tərbiyəvi məqsəddir. Bu çox şəffaf və aydın məsələdir. Elmin hər yerdə müştərisi var; yaxşı sözün və işıqlı təlimin hər yerdə müştərisi var.

## *Əhli-beytin (ə) sözünü dirçəltməyin yolu*

İmam Əli ibn Musa Rza (ə) öz səhabələrindən birinə buyurdu: "Allah bizim əmrimizi dirçəldənlərə rəhm eləsin!" Rəvayətçi soruşdu ki, sizin əmriniz, sözünüz, sizin əhəmiyyət verdiyiniz mövzu necə dirçəlir?

## *İslam elmləri və Əhli-beyt (ə) təlimləri ilə silahlanmaq və onları xalqa ötürmək*

Buyurdu ki, bizim elmlərimizi, Əhli-beyt (ə) təlimlərini öyrənib xalqa, müştaq qəlblərə və araşdırıcı zehinlərə ötürsünlər. Əhli-beyt (ə) təlimlərini təbliğ etmək üçün sizin qapıları döyməniz əsla lazım deyil; kobudluq etməyə, onunla-bununla dalaşmağa heç bir lüzum yoxdur. Bu qədər kifayətdir ki, Əhli-beyt (ə) təlimlərini düzgün öyrənək və onu digərlərinə ötürək. Bu tövhid təlimləri, bu insanşünaslıq bilgiləri, bəşər həyatının müxtəlif məsələlərini ehtiva edən bu təlimlərin özü cazibəlidir, ürəkləri cəlb edir və imamların yoluna çıxarır.

## *İranda xarici tələbələrin cəm olmasının səmərələri*

**1. Müsəlmanların yerli mədəniyyətləri ilə tanışlıq və bir-birinin uca məqsəd və amallarından bəhrələnmək**

Burada sizin üçün böyük bir fürsət yaranmışdır. Siz müxtəlif milliyyətlərdən, müxtəlif ölkələrdən buraya toplaşmısınız. Sizin hər biriniz burada öz müsəlman qardaşları və onların yerli mədəniyyətləri ilə tanış olmaq imkanı əldə edir.

Siz burada Avropa qitəsindən tutmuş Şərqi Asiyaya qədər hər yerlə əlaqə yarada bilərsiniz; Afrikadan gəlib burada Orta Şərq ölkələri ilə rabitə qura bilərsiniz. Xalqların ən gözəl gülləri buraya toplaşmışlar. Bir-birinizlə tanış olun, bir-birinizi tanıyın, bir-birinizin mədəniyyətini, arzularını və müxtəlif milliyyətlərdən olan qardaşların malik olduğu uca məqsədləri bir-birinizdən öyrənin; bu zaman müsəlman ümumi məlumat əldə edər.

## 2. Ümumdünya İslam Elm Cəmiyyətinin ilk nüvəsini yaratmaq

Bu sizin üçün çox böyük fürsətdir. Bu fürsət başqa yerdə qarşıya çıxmaz. Burada İslam elminin beynəlxalq nüvəsi təşkil olunmuşdur. Sizin bir-birinizin yanında oturmanız, eyni mühitdə nəfəs almanız, bir-birinizlə tanışlığınız burada Ümumdünya İslam Elm Cəmiyyətinin ilk nüvəsini təşkil edir. Bu fürsətdən maksimum istifadə edin.

## Gənclik fürsətindən istifadə

Gənclikdə Allahla rabitəni gücləndirmək

Siz gəncsiniz. Gəncin ən böyük sərvəti onun pak və işıqlı qəlbidir. Mənim əzizlərim! Bu işıqlı qəlbdən istifadə edib Allah-Taala ilə rabitənizi möhkəmləndirin. Hazırlığı olan gənc təzimlə, zikrlə, münacat və təvəssüllə öz qəlbini Allah-Taala ilə tanış etsə, "nur üstünə nur" ayəsinin nümunəsi yaranacaq, qəlblərinizə ilahi mərifət nuru saçacaq. Günahdan uzaqlaşmaq, Allahla ünsiyyət qurmaq və namazı qənimət saymaq mühüm işlərdəndir.

## Namaza diqqətin əhəmiyyəti

Allahın ən böyük nemətlərindən biri namazdır. Namaz bizə hər gün bir neçə dəfə mütləq öz Allahımızla danışmaq imkanı verir. Allah-Taalaya müraciət edək, Ondan kömək istəyək, Ona ehtiyacımızı söyləyək, bu yalvarışla və bu ehtiyacla özümüzün Rəbbin dərgahına sadiqliyimizi gücləndirək. Böyüklər namaza çox əhəmiyyət verirdilər. Namaz hamının bacardığı bir ibadətdir. Biz çox zaman namazın qədrini və əhəmiyyətini dərk etmirik. Namaz qılmaq yalnız boynumuzdakı vəzifənin götürülməsi üçün deyil. Bu, böyük fürsətdir və ondan istifadə etmək lazımdır. Buyurublar ki, namaz sizin evinizdə bir çay kimidir; siz gündə beş dəfə bu

çayda yuyunursunuz. Bu yuyunmalar gənc qəlblərdə əbədi təsirlər buraxa bilər; paklıq və təqva ilə Allah-Taaladan güclü və təsirli sözü hədiyyə almaq olar.

## *İmamın sözünün təsiri - Allahla möhkəm rabitənin səmərəsi*

Çətin zamanlarda və bütün hallarda bizim Böyük İmamımızın bir sözünün bütün ölkədə heyrətamiz təsir buraxmasının bir səbəbi onun mənəviyyatı idi, daxili saflığı idi, Allahla rabitəsi idi, gecə yarısı axan göz yaşları idi. Hələ imam sağ ikən övladı mərhum Hacı Seyid Əhməd mənə dedi ki, imam gecə yarısı həddən artıq ağlayır; belə ki, onun gözünün yaşını silmək üçün adi dəsmal kifayət etmir, məcbur olub göz yaşını əl-üz dəsmalı ilə silir. O güclü kişi bir xalqı titrədə bilən ağır hadisə və itkilərlə üzləşirdi, amma yerindən tərpənmirdi. Onun üçün böyük güclərin heç bir əzəmət və heybəti yox idi. Lakin həmin kişi ilahi əzəmət qarşısında dua və münacat edərək belə ağlayırdı. Bunlar çox qiymətlidir. Bu fürsətlərin qədrini bilin.

Mən yenə də deyirəm: siz əzizlərlə görüşməyə çox şad oldum. Cənab Ərafiyə və Mustafa Universitetinin məsul işçilərinə, əməkdaşlarına, müəllimlərə və bu əzəmətli işdə əməyi olan bütün şəxslərə səmimi təşəkkürümü bildirməliyəm. İnşallah Allah onların hamısını, sizin hamınızı və bu işə kömək göstərən bütün şəxsləri öz lütf və mərhəmətinə şamil etsin!

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!

# İslam İnqilabının Böyük Rəhbərinin Qum Elmi Hövzəsinin xarici tələbələri ilə görüşdəki tələbləri

## *Problemlər qarşısında müqavimət*

Bizim hamımız üçün müxtəlif problemlər yaranır. Gərək məğlub olmayaq... Dözümü və müqaviməti unutmayın. Bu, uca məqsədi olan hər bir insanın həyatında mühüm amildir.

## *2. İlahi elm, paklıq və təqva əldə etmək üçün gənclik fürsətindən yararlanmaq*

Siz gəncsiniz. Gəncin ən böyük sərvəti onun pak və işıqlı qəlbidir. Mənim əzizlərim! Bu işıqlı qəlbdən istifadə edib Allah-Taala ilə rabitənizi möhkəmləndirin. Hazırlığı olan gənc təzimlə, zikrlə, münacat və təvəssüllə öz qəlbini Allah-Taala ilə tanış etsə, "nur üstünə nur" ayəsinin nümunəsi yaranacaq, qəlblərinizə ilahi mərifət nuru saçacaq...

Paklıq və təqva ilə Allah-Taaladan güclü və təsirli sözü hədiyyə almaq olar.

## *3. Dini təlimləri yaymaq üçün xarici tələbələrin inkişafı və öz vətənlərinə qayıtması*

Siz İslamın ehtiyatlarısınız. Siz İslam üçün əzəmətli sərvətlərsiniz. Burada yaxşı dərs oxuyun, inqilab şəraitində və İslam Respublikası quruluşunda yaxşı nəfəs alın və Allaha ümidlə lazım olanda öz xalqınızın yanına qayıdın, elm vasitəsi ilə, səbir, əxlaq, təvazökarlıq, xalqa məhəbbət və sevgi silahı ilə bu həqiqətləri ötürün.

## *4. Ümumi məlumat əldə etmək və bir-birinin uca məqsədlərini öyrənmək üçün xarici tələbələrin qarşılıqlı rabitə və münasibətləri*

Siz müxtəlif milliyyətlərdən, müxtəlif ölkələrdən buraya toplaşmısınız. Sizin hər biriniz burada öz müsəlman qardaşları və onların yerli mədəniyyətləri ilə tanış olmaq imkanı əldə edir. Siz burada Avropa qitəsindən tutmuş Şərqi Asiyaya qədər hər yerlə əlaqə yarada bilərsiniz; Afrikadan gəlib burada Orta Şərq ölkələri ilə rabitə qura bilərsiniz. Xalqların ən gözəl gülləri buraya toplaşmışlar.

# Möhtəşəm agahlıq

**Qum vilayətinin tələbə və gəncləri ilə görüşdəki çıxış**

**26 Oktyabr 2010**

Bismillahir-Rəhmanir-Rəhim.

Həmd və səna aləmlərin Rəbbinə məxsusdur. Ağamız və peyğəmbərimiz Əbülqasim Məhəmməd Mustafaya və onun pak, seçilmiş, hidayət edən və məsum ailəsinə, xüsusən də Allahın Yer üzündə saxladığı (İmam Mehdiyə) salavat və salam olsun! Salam olsun, sənə, ey sərvərimiz, ey Fatimə Məsumə, ey Musa ibn Cəfərin qızı! Allahın salamı olsun olsun sənə, sənin pak, seçilmiş və məsum ata-babalarına!

Ölkənin gənc olmasının səmərələri

Nisbətən bu uzun səfərin son günlərində siz əziz gənclərlə görüşmək sanki yeni bir həyatdır, nəfəs təzələməkdir. Gənclər, gənc hissləri, gəncin düşüncəsi, ruhiyyəsi və həvəsi hər bir mühiti təsir altına salır. Ölkənin ümumi ab-havasının Allahın köməyi ilə iradə, əzmkarlıq, ağıl və fəallıqla dolmasının bir səbəbi ölkə əhalisinin əksəriyyətini gənclərin təşkil etməsidir. Bu məclis də tam mənada gənc məclisidir.

## *Qum gənclərinə dair mövzular*

### Qumlu gəncin xüsusiyyətləri

### *1. Fərasət və sayıqlıq*

Qumun gəncləri barədə mənim həm xatirələrim var, həm də geniş məlumatım. Tələbələrin arasında digər şəhərlərdən gəlmiş gənclər olsa da, əksəriyyət, yaxud böyük əksəriyyət qumlu gənclərdir. 1962 və 63-cü illərdə mübarizələrin güclənməsindən öncə biz burada Qum gənclərinin fərasət və sayıqlıq əlamətini müşahidə etdik. Mənim yadımdan çıxmır; məqbərənin küçəsinin önündə, yaxud xiyabanın o tərəfində

Ərk küçəsində qəzet köşkü vardı. Qəzetlərin xəbərlərini oraya vururdular. Biz dərsdən qayıdanda dayanıb bu xəbər başlıqlarına baxırdıq. Əyalət və vilayət əncümənləri məsələsində tağut hökuməti geri çəkilməyə məcbur olub uyğun qərarı ləğv edəndə məqbərənin bu küçəsinin ətrafında və İrəm xiyabanında olan gənclər – biz bu gəncləri çox zaman görürdük, amma onların siyasi düşüncə və hadisələrlə maraqlandığını təsəvvür etməzdik – ruhaniliyin tağut hökuməti üzərində qələbəsi münasibəti ilə bizi təbrik edirdilər. Zahirən hadisələrdən kənarda qalan qumlu gənclər bizimlə tanış olmaya-olmaya gəlib biz hövzə tələbələrini təbrik edirdilər.

O zaman Qumda universitet tələbəsi yox idi; onlar şagirdlər, yaxud işsiz gənclər idilər. Mən o vaxtdan qumlu gənclərin bu ruhiyyəsi, ruhaniliyin tağut hökuməti ilə mübarizəsinə, hərəkatına və vuruşmasına bu qədər həssas olması barədə düşünürdüm. Sonralar 1977-ci ilin hadisələri baş verəndə isə Qum özünü göstərdi.

## *2. Mübarizə və cihad meydanının bayraqdarı*

### Tağut quruluşu ilə mübarizə

Xalqın küçə və meydanlara çıxmasının, rejimin dəmir pəncələri qarşısında müqavimətinin rəhbərliyini həqiqətən və sözün əsl mənasında Qum başladı. Həmin qumlu gənclər küçələrə çıxdılar, qanları töküldü. Əlbəttə, tağut quruluşunun polislərini də çox incitdilər. Qum gənclərinin qoçaqlığı və fərasəti polisləri çox çaşdırırdı. Sonra inqilab baş verdi. Qum hər yerdə ön sıralarda durdu. Bu Əli ibn Əbu Talib (ə) diviziyası müqəddəs müdafiənin ön xətlərində vuruşan uğurlu diviziyalardan idi. Qumlular bütün böyük imtahanların öhdəsindən yaxşı gəldilər. Ön sırada da gənclər dururdu. Mən istəyirəm ki, bu gün emosiyası, düşüncəsi, həvəsi və şüuru

olan siz gənclər Qumun gənc nəslinin bir neçə onillikdən bu yana sahib olduğu bu fəxrli kimliyi göz önündə saxlayasınız.

## Müqəddəs müdafiədə və sonrakı işlərdə fəallıq

Qumlular inqilabda fəallıq göstərdilər, müqəddəs müdafiədə fəallıq göstərdilər. Müharibə bitəndən sonra, xüsusən də Böyük İmamın vəfatından, onun sayəsinin bizim başımız üzərindən əskilməsindən sonra qumlu gənclərin fəallığı daha da artdı. Bu, mühüm məsələdir.

## İnqilabın ilk onilliyinin sonlarında düşmənin siyasəti

Qumda inqilabın antitezisi layihəsi

Diqqət yetirin; inqilabın ilk onilliyinin sonlarından inqilabın düşmənləri və düşmən cəbhəsi iranlı ekspertlərdən istifadə edib bir siyasət planlaşdırdı. Çünki iranlı ekspertlərdən başqaları bu məsələyə diqqət yetirə bilməzdilər. Onların məşvərət tərəfləri iranlılar idilər. O siyasət bu idi ki, Qumda inqilabın antitezisini hazırlasınlar. İnqilabın Qumdan baş qaldırdığı kimi, əksinqilab cərəyanı da Qumda yaransın.

## "İnqilabın antitezisi" layihəsini icra etmək üçün Qumun seçilməsinin səbəbi

Qum ruhaniliyin mərkəzidir. Elmi hövzə Qumdadır, amma hövzə mənsubları əslində bütün ölkənin sakinləridir. Qumda yaşayan bu hövzə tələbəsi öz şəhərində, kəndində nüfuzlu şəxsdir. Onlar bütün ölkədən buraya toplaşmışlar. Bu hövzənin adamlarının tətillərdə, yaxud hansısa bir münasibətlə evlərinə getmələri hövzənin bütün ölkəyə səpələnməsi deməkdir. Deməli, burada hansısa fikir, ideya, iradə, hərəkət və istiqamət olsa, əslində bütün ölkədə mövcud olacaq. Bunu

əcnəbilər anlamırlar; amerikalılar bu həqiqəti təhlil edə bilməzlər. Bunu özümüzünkü, bir iranlı, ruhaniliyin xisləti ilə tanış olan bir şəxs anlaya bilərdi. Bunu onlara öyrətdilər. Bu məqsədlə Qumda çaxnaşma yaratmağa çalışdılar. Mən ad çəkmək istəmədiyimdən bunun üzərindən keçirəm.

## *Antitezis planı ilə mübarizədə xalqın və qumlu gənclərin agahlığı*

1979-80-ci illərdə həm Qum əhalisi, həm Təbriz əhalisi qəhrəmanlıq göstərdilər; yalnız meydana çıxmaq və yumruq düyünləmək qəhrəmanlığı yox, hətta mənəvi qəhrəmanlıq, şüur və düzgün təhlil qəhrəmanlığı. İmamın vəfatından sonra da bu məsələ başqa bir formada Qumda baş verdi. Burada da müxaliflər və düşmənlər - əsasən sərhəd xaricində olan düşmənlər, çünki əsas onlardır - burada bu antitezisi yaratmağı planlaşdırmışdılar. Əgər qumlular qafil olsaydılar, əgər Qum gənclərinin təhlil qabiliyyəti olmasaydı, lazımi sayıqlığı göstərməsəydilər, problemlər daha çox olardı. Həqiqət budur. Bunlar Qum gəncləri barədə həqiqətlərdir.

Çoxlu mövzularda, o cümlədən bugünkü mövzuda mənim əsas müraciət tərəfim siz gənclərsiniz. Çünki iş sizinkidir, ölkə də sizə məxsusdur. Biz bir neçə günlük qonaqlarıq. Bizim növbəmiz, işimiz və dövrümüz bitmişdir. Bundan sonra sizin dövrünüzdür. Bu ölkəni idarə etməli, indiyədək əldə edilmiş nailiyyətlərdən istifadə edib müxtəlif səviyyələrdə bu milli iqtidarı, milli başucalığını təkmilləşdirməli olanlar sizsiniz. Bu, tarixdə sizə yönəlik bir vəzifədir. Buna görə də mənim müraciətim sizədir.

## *Düşmənin uzunmüddətli proqramları qarşısında diqqətəlayiq məqamlar*

### Düşmən qarşısında uzunmüddətli proqramın zəruriliyi

Əgər düşmən cəbhəsinin bizim ölkəmiz və inqilabımız üçün uzunmüddətli proqramının olduğunu qəbul ediriksə, deməli, bizim də uzunmüddətli proqramımız olmalıdır. İslam oyanışı sarıdan güclü təhdid olunan İslam və inqilab düşmənləri cəbhəsinin uzunmüddətli proqramının olmamasını qəbul etmək olmaz. Buna heç kəs inana bilməz. Buna inanmaq üçün çox sadəlövh və avam olmalıyıq. Mütləq uzunmüddətli proqramları var. Bəzən ölkədə baş verən və əcnəbi əlin göründüyü bu hadisələr birdəfəyə yaranmış şeylər deyil, bir anda ortaya çıxmır. Bunlar üçün də ortamüddətli və uzunmüddətli proqramları olmuşdur; proqram hazırlamışlar və o proqramın nəticəsi bu olub. Belə deyil ki, həmin gecə qərar versinlər və sabah o işi görsünlər. Xeyr, mən 2009-cu il təxribatlarında bəzi dostlara fakt və əlamətlərini göstərdim. Ən azı 10-15 il öncədən proqram vardı. İmamın vəfatından sonradan proqram hazırlamışdılar. O proqramların təsiri 1999-cu ildə göründü; universitet məhəlləsi məsələləri və çoxlarınızın xatırladığı, bəlkə də yaxşı yadda saxlamadığı hadisələrdə. Ötən il baş verən hadisələr həmin proqramlar üçün yenidən canlanma oldu. Əlbəttə, vaxtı və müxtəlif cəhətləri nəzərə almaqla bu işi görməyə çalışdılar, amma Allaha şükür olsun ki, məğlub oldular; belə də olmalı idi. Deməli, düşmən cəbhənin uzunmüddətli proqramı var.

## *Düşmənlər tərəfindən uzunmüddətli proqramların davam etməsinə diqqət yetirmək*

Onlar bu gün məğlub olduqlarına görə məyus olub əl çəkmirlər. Xeyr, növbəti on il, iyirmi il, qırx il üçün planlar hazırlayırlar. Gərək hazır olasınız.

## *Düşüncə, siyasət və mədəniyyət mərkəzlərində uzunmüddətli layihə və proqramlar hazırlamağın lazım olması*

Bizim uzunmüddətli proqramımız olmalıdır. Əlbəttə, uzunmüddətli proqramı hazırlamağın yeri bura deyil. Düşüncə mərkəzləri, siyasi və mədəni mərkəzlər bu işlərlə məşğul olurlar. Onlar bu işləri görməlidirlər və görürlər də.

## *Agahlıq və ona aid məsələlər*

### Agahlıq - uzunmüddətli proqramda əsas şərt

Mənim ümumi şəkildə deyək istədiyim budur ki, uzunmüddətli proqram üçün əsas şərt vardır. Mən bunu dəfələrlə demişəm. Burada da onun barəsində bir qədər söhbət etməyi lazım bilirəm. Bu, agahlıq məsələsidir.

## *Agahlığın əhəmiyyəti*

Mən agahlıq barədə ötən il və ondan öncə çox söhbət etmişəm. Digər şəxslər də bu haqda danışıblar. Gördüm ki, bəzi gənclər də bu sahədə çox yaxşı işlər görmüşlər. Mən yenə də agahlıq üzərində təkid etmək istəyirəm. Mənim təkidim əslində bu məqsədlədir ki, müraciət tərəfi, meydan sahibi və vəzifəyə məsuliyyətli olan sizin özünüz bu işlərlə və agahlıq əldə etməyə dair proqramlarla məşğul ola, bu mühüm ehtiyacı təmin edəsiniz. Agahlıq işıq saçan projektordur; agahlıq

qibləni və qütbü göstərən kompasdır. İnsan bir səhrada kompassız hərəkət etsə, təsadüfən məqsədə çatmaq ehtimalı azdır. Daha güclü ehtimal budur ki, yolu azıb çoxlu problem və çətinliklərə düşsün. Xüsusən qarşıda düşmən olduqda adama kompas lazımdır. Əgər kompas olmasa, siz yaraqsız vəziyyətdə düşmən mühasirəsində qalarsınız. O zaman daha əlinizdən bir şey gəlməz. Deməli, agahlıq kompas və projektordur. Agahlıq zülmətləri aydınlaşdırır və bizə yolu göstərir.

## *Uğur qazanmaqda agahlığın rolu*

Sözsüz ki, tam uğur qazanmaq üçün agahlıq lazımi şərtdir, amma təklikdə kifayət etmir. Biz hövzə tələbələrinin sözü ilə desək, uğurun tam səbəbi deyil; uğur üçün digər şərtlər də lazımdır. Əgər vaxt qalsa və yadıma düşsə, söhbətimin axrında buna işarə vuracağam. Agahlıq lazımi şərtdir. Əgər başqa bütün amillər olsa, agahlıq olmasa, məqsədə və uğura çatmaq çox çətin olar.

## *Agahlığın növləri*

### Birinci səviyyə: dünyagörüşü seçməkdə geniş və dərin agahlıq

Agahlığı iki səviyyədə tərif edə bilərik. Bir səviyyə təməl səviyyə və agahlığın dərin qatıdır. İnsan dünyagörüşü seçimində və tövhid məfhumlarının əsaslı dərkində təbiət aləminə qarşı tövhid baxışı ilə bir agahlıq əldə edir.

## *Maddi və tövhid dünyagörüşlərinin fərqi*

Tövhid baxışı ilə maddi baxış arasında fərq bundadır: Tövhid baxışına görə bu dünya nizam-intizamlı bir məcmudur, təbiət məqsədlidir. Bu təbiətin bir hissəsi olan vücudumuz və həyatımız da məqsədlidir; məqsədsiz dünyaya

gəlməmişik. Bu, tövhid baxışının nəticəsidir. Elmli və qüdrətli Allahın varlığına etiqadın mənası budur. Məqsədli olduğumuzu anladıqda o məqsədi axtarmağa başlayırıq. Bu axtarışın özü ümidverici bir səydir. Biz o məqsədi tapmağa çalışırıq. Məqsədi tapdıqda, onun nə olduğunu anladıqda ona çatmaq üçün fəaliyyət başlayır. Bu zaman bütün həyat fəaliyyətdən ibarət olur; özü də məqsədli və hədəfli fəaliyyətdən. Digər tərəfdən, bunu da bilirik ki, tövhid baxışına görə, məqsəd yolunda hər bir fəaliyyət və zəhmət insanı mütləq nəticəyə çatdırır. Bu nəticələrin dərəcələri var və şübhəsiz ki, gözəl bir nəticəyə çatdırır. Bu baxışla insanın həyatında daha məyusluq, ümidsizlik, çaşqınlıq və qüssə olmur. Siz vücudunuzun, yaranmanızın, həyatınızın və tənəffüsünüzün bir məqsədlə həyata keçdiyini bildikdə o məqsədi axtarırsınız, ona çatmaq üçün hərəkət edir və fəaliyyət göstərirsiniz. Varlığın yaradanı olan Allah-Taalaya görə bu hərəkətin özünün də mükafatı və savabı var. Hansı nöqtəyə çatsanız, əslində məqsədə çatmısınız. Odur ki, tövhiddə mömin üçün ziyan və zərər ümumiyyətlə təsəvvür olunmur. Buyurub ki, iki ən yaxşı haldan biri bizi gözləyir. Ya bu yolda öldürüləcəyik - bu ən yaxşıdır; ya da düşməni ortadan götürüb məqsədə çatacağıq - bu da ən yaxşıdır. Deməli, burada zərər yoxdur.

Bunun tam qarşı tərəfi maddi baxışdır. Maddi baxış əvvəla insanın yaranışını, dünyadakı varlığını məqsədsiz bilir. Ümumiyyətlə nə üçün dünyaya gəldiyini bilmir. Düzdür, dünyada özü üçün məqsədlər tərif edir: pul əldə etsin, eşqinə qovuşsun, vəzifəsi yüksəlsin, fiziki ləzzətlərə nail olsun, elmi ləzzətlərə nail olsun; özü üçün belə məqsədlər tərif edə bilər, amma bunların heç biri təbii məqsəd deyil, zəruri olaraq onun vücudu ilə yanaşı deyil. Allaha etiqad olmadıqda əxlaq da mənasız olur, ədalət də. Şəxsi ləzzət və maraqdan başqa heç

bir şeyin mənası olmur. Əgər şəxsi mənafe yolunda insanın ayağı daşa dəyib əzilsə, zərər çəkmiş və xəsarət görmüşdür. Əgər mənafeyini təmin edə bilməsə, əgər çalışa bilməsə, növbə ümidsizliyə, məyusluğa, intihara və digər məntiqsiz işlərə çatır. Deməli, tövhid baxışı ilə maddi baxış arasındakı, ilahi inamla maddi inam arasındakı fərq budur. Bu, agahlığın ən əsas təməlidir.

Bu baxışla insan mübarizə apardıqda bu mübarizə müqəddəs bir iş olur. Əgər silahlı müharibə də olsa, belədir. Mübarizə ümumiyyətlə bədbinlik və bədxahlıq əsasında baş vermir. Mübarizə yalnız insanın özünün yox, bütün insaniyyətin xeyrə, kamiliyyə, rifaha və uca məqamlara nail olması üçündür. Bu baxışla həyat gözəl və bu geniş meydanda hərəkət etmək ürəkaçan olur.

## *Allahı yad etmək - agahlıqda əsas təməl*

İnsanın yorğunluğu Allah-Taalanı yad etməklə və məqsədi yada salmaqla aradan qalxır. Bu, etiqadın əsas təməlidir; agahlığın əsas təməlidir. Bu agahlıq çox lazımdır. Biz buna malik olmalıyıq. Agahlıq əslində cəmiyyətdə bütün insani səy və mübarizələrin şərtidir. Bu, agahlığın bir səviyyəsidir.

## *İkinci səviyyə: ətraf hadisələrə qarşı agahlıq*

Agahlığın bu geniş səviyyəsindən və dərin qatından əlavə müxtəlif hadisələrdə insan üçün agahlığın və avamlığın yaranması mümkündür. İnsan agahlıq əldə etməlidir.

## *Bu növ agahlığın məna və məfhumu*

Bu agahlığın mənası nədir? Agahlıq əldə etmək nə deməkdir? İnsan necə bu agahlığı əldə edə bilər? Müxtəlif hadisələrdə lazım olan, Əmirəl-mömininin (ə) rəvayət və kəlamlarında təkid göstərilən bu agahlığın mənası odur ki,

insan ətrafında baş verən, qarşısına çıxan və onunla əlaqədar olan hadisələrdə fikirləşsin, onların yanından avam və bəsit şəkildə keçməməyə çalışsın, Əmirəl-mömininin (ə) sözü ilə desək, nəticə çıxarsın: “Allah təfəkkür edib nəticə çıxaran insana rəhm eləsin!” Fikirləşsin və bu fikir əsasında nəticə çıxarsın, məsələləri müqayisə etsin və bu nəticə ilə agahlığa nail olsun. Hadisələrə düzgün baxmaq, düzgün nəticə çıxarmaq, onlar barədə fikirləşmək insanda agahlıq, yəni göz açıqlığı yaradır və insanın həqiqətə gözü açılır.

## *Agah insanın xüsusiyyətləri*

Əmirəl-möminin (ə) başqa bir yerdə buyurur: “Agah insan eşidən, fikirləşən və görən insandır”. Agah insan eşidən, qulağını bağlamayan, eşitdikdə düşünən və hər hansı bir şeyi eşidən kimi rədd, yaxud qəbul etməyən şəxsdir. Düşünmək lazımdır; baxmaq və gözü açmaq lazımdır. Avamlıq uçurumlarından sürüşüb yıxılan bir çox insanların iradı budur ki, baxmadılar, gözlərini aydın həqiqətlərə yumdular. İnsan baxmalıdır; baxsa, görəcək. Biz çox zaman bəzi şeylərə ümumiyyətlə baxmaq istəmirik; ümumiyyətlə baxmaq istəməyən bəzi sapqın adamlar var. İnadkar düşmənlə işimiz yoxdur; bu barədə sonra danışacağıq: “Həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər”. Bəzi adamlar məsələyə qərəzli şəkildə və inadla yanaşırlar. Bəli, hər halda düşməndir, söhbət ondan getmir; söhbət meydanda olan məndən və sizdən gedir. Əgər biz agah olmaq istəyiriksə, gözümüzü açmalı və görməliyik; görüləsi şeylər var. Əgər biz onların yanından tez keçsək, onları görməsək, təbii ki, səhv edəcəyik.

## Erkən İslam çağından avamlığa dair nümunələr

Mən tarixdən bir misal vurum. Siffeyn döyüşündə Müaviyənin ordusunun məğlub olmasına az qalırdı; tamamilə məhv edilməsinə bir şey qalmırdı. Canlarını xilas etmək üçün düşündülər ki, Quranları nizələrə taxıb meydana gətirsinlər. Quran vərəqlərini nizələrə taxıb dedilər ki, Quran bizimlə sizin aranızda hakim olsun; Quran nə desə, onu edək. Bəli, avamların xoşuna gələn yaxşı bir iş idi. Qoşunun içindən sonralar xəvaricdən (separatçılardan) olub Əmirəl-mömininə (ə) qarşı xəncər çəkən bir qrup dedi ki, yaxşı sözdür, bunlar pis söz demirlər, Quranı hakim etmək istəyirlər. Baxın, bura aldanma yeridir. Burada insan ayağının altına baxmadığına görə sürüşür. Əgər sürüşsə, heç kəs onu bağışlamaz, çünki ayağının altına baxmayıb, ayağının altındakı yemiş qabığını görməyib. Onlar baxmadılar. Əgər həqiqəti anlamaq istəsəydilər, o, gözlərinin önündə idi. Quranın hakim edilməsinə və onun hökmünə tabe olmağa dəvət edən şəxs seçilmiş və itaəti vacib olan imamla vuruşur. O, Qurana necə inana bilər?! Əmirəl-möminin Əli ibn Əbu Talib (ə) bizim nəzərimizcə Peyğəmbər (s) tərəfindən təyin edilmiş xəlifədir. Amma bunu qəbul etməyən şəxslər də o zaman üçüncü xəlifədən sonra hamının onunla beyət və xilafətini qəbul etdiyini bilirdilər. O bu yolla imam və İslam cəmiyyətinin itaəti vacib olan hakimi olmuşdu. Onunla vuruşan, onun əleyhinə xəncər çəkən şəxslə vuruşmaq bütün müsəlmanların vəzifəsi idi. Əgər Quranı nizəyə taxan bu şəxs Qurana etiqadlıdırsa, Quran deyir ki, nə üçün Əli (ə) ilə vuruşursan? Əgər həqiqətən Qurana etiqadlıdırsa, əllərini qaldırıb "mən vuruşmuram" deməli və xəncərini yerə atmalıdır. Bunu görməli və anlamalı idilər. Bu, çətin məsələ idi?! Bu, dərki

mümkün olmayan bir problem idi?! Səhlənkarlıq etdilər. Bu olur avamlıq. Əgər azca düşünüb fikirləşsəydilər, həqiqəti anlayardılar. Çünki bunların özləri Mədinədə Əmirəl-mömininin (ə) səhabələri olmuşdular; Osmanın öldürülməsində Müaviyənin adamlarının və köməkçilərinin əlinin olduğunu görmüşdülər. Osmanın öldürülməsinə onlar şərait yaratdılar və sonra qisas üçün köynəyini bayraq etdilər. Onların özləri bu işi gördülər, təqsirkar özləri idilər, amma təqsirkar axtarırdılar. Baxın, bu avamlıq diqqətsizlikdən irəli gəlir, baxmamaqdan irəli gəlir, aydın bir həqiqətə göz yummaqdan irəli gəlir.

## *İndiki zamanda avamlığa dair bir nümunə*

Sonuncu iğtişaşlarda bəziləri səhv etdilər. Bu, avamlığa görə idi. Böyük və əzəmətli bir seçkilərdə saxtakarlıq iddiası etməyin yolu bəllidir. Saxtakarlığın baş verdiyini düşünən şəxs əvvəla buna dəlil göstərməlidir. Bundan əlavə, dəlil göstərsə də, göstərməsə də, qanun yolu müəyyən etmişdir; şikayət edə bilər. Gərək yoxlanıb araşdırılsın, bitərəf şəxslər gəlib baxsınlar və saxtakarlığın edilib-edilmədiyi bəlli olsun. Yolu budur. Biz də buna çox kömək etdik. Mən qanuni müddəti uzatdım; hətta dedik ki, insanlar özləri kamera önünə gəlib saysınlar. Əgər kimsə bu yolu qəbul etmirsə, deməli, inadkarlıq edir... Diqqət yetirin. Burada məqsəd ötən hadisələr haqda fikir bildirmək deyil, misal vurmaq istəyirik.

## *Agahlığa nail olmağın cəmiyyət üçün mümkünlüyü və asanlığı*

Deməli, agahlığa nail olmaq çətin iş deyil. Əgər siz baxıb məntiqli və qanuni bir yolun olduğunu görürsünüzsə və kimsə o məntiqli və qanuni yoldan imtina edib ölkə üçün zərərli olan, xalqın maraqlarına zərbə vuran bir iş görürsə, ədalətli,

normal və tərəfsiz baxışla onun haqsız olduğu bəllidir. Bu aydın bir məsələdir, aydın bir mühakimədir. Buna görə görürsünüz ki, xalqın agah olmasını istəmək çətin və mümkünsüz bir işi istəmək deyil. Agahlığa nail olmaq çox çətin iş deyil. Agahlıq əldə etmək bu qədər lazımdır ki, insan müxtəlif tələlərə - dostluqların, düşmənliklərin, nəfs istəklərinin və müxtəlif tələsik mühakimələrin tələsinə düşməsin. İnsan bu qədər baxıb fikirləşsə, həqiqəti görə bilər. Agahlıq bu fikirləşməkdən, bu baxmaqdan ibarətdir, artıq gözlənti deyil. Beləliklə anlamaq olar ki, agahlığa nail olmaq hamının işidir; hamı agah ola bilər.

## *Avamlıqda diqqətsizliyin rolu*

Əlbəttə, bəzi adamlar inadkarlıq və bədxahlıq üzündən deyil, diqqətsizlik üzündən avamlıq edirlər. İnsan öz canını çox istəsə də, bəzən maşın sürərkən bir an diqqətinin yayınması, yuxulaması və qəzaya düşməsi mümkündür. Bu sahədə baş verən yayınmaları günah saymaq olmaz, amma əgər davamlı olsa, avamlıqdır və daha məqbul deyil.

## *Xalqı məlumatlandırmaq - düşmənin yumşaq muharibəsi qarşısında gənclərin vəzifəsi*

Bu gün yumşaq müharibədə düşmənin əsas işi ölkənin siyasi mühitini bulaşdırmaqdır; bunu nəzərdən qaçırmayın. Bu gün düşmənin ən mühüm işi budur. Siyasi işlərlə məşğul olan və məlumatlı insanlar bilirlər ki, bu gün böyük güclərin qüdrəti atom bombalarından və banklarında yığılmış sərvətlərdən daha çox onların təbliğat imkanlarındadır, hər yerə çatan gur səslərindədir. Təbliğat üsullarını da yaxşı bilirlər; bu sahədə doğrudan da inkişaf etmişlər. Bu gün qərblilər - istər avropalılar, istər amerikalılar təbliğat işində modern və çox mütərəqqi üsullar bilirlər. Biz bu sahədə

gerideyik. Onların ən əsas işlərindən biri təbliğatı bacarmalarıdır. Bu təbliğat üsulları ilə, ajiotajla, həqiqətin ziddinə olan söz yığını göndərməklə cəmiyyətlərin vəziyyətini dəyişdirməyə və təsir göstərməyə çalışırlar. Bu məsələyə diqqət yetirmək və bundan ehtiyatlı olmaq lazımdır. Bu gün bu baxımdan bizim gənclərimizin üzərinə ağır vəzifə düşür. Sizin yalnız özünüzün həqiqəti təyin etməniz kifayət etmir, öz ətraf mühitinizi də məlumatlandırmalı və onlar üçün də məsələləri aydınlaşdırmalısınız.

## *Beynəlxalq təbliğat vasitələri ilə cəmiyyətin həqiqətlərini tərsinə göstərmək*

Bir mühüm məsələ budur ki, nahaq insanın qarşısında həmişə çılpaq görünmür ki, nahaq olduğu anlaşılsın. Nahaq çox zaman haqq libası ilə, yaxud haqqın bir parçası ilə meydana çıxır. Əmirəl-möminin (ə) buyurmuşdur ki, əgər haqq və nahaq açıq şəkildə və pərdəsiz meydana çıxsalar, ixtilaf olmaz; hamı haqqı sevər və nahaqqa nifrət bəsləyər. Lakin haqqın bir hissəsini nahaqqın bir hissəsi ilə qarışdırırlar, tamamən nahaq olmasına qoymurlar. Odur ki, insanlar səhvə düşürlər. Bundan çox ehtiyatlı olmaq lazımdır. Bu gün beynəlxalq təbliğat şəbəkələri sizin ölkənizdə, cəmiyyətinizdə, sizin İslam quruluşunuzda həqiqətləri tərsinə göstərməyə çox israrlıdır. Təbliğat imkanları da çoxdur, daim çalışırlar. Əlbəttə, bəzi şəxslər də bilərəkdən, bəziləri də bilmədən daxildə həmin sözləri təkrarlayır və işıqlandırırlar.

## *Səhvin qarşısını almaq üçün agahlığı təkmil edən amillər*

Burada bir məsələyə diqqət yetirmək lazımdır. Bəzən agahlıq var, amma eyni zamanda səhv davam edir. Dedik ki, agahlıq uğur üçün kifayət edən şərt deyil, lazım olan şərtdir.

Burada bəzi amillər var. Biri iradə və əzmkarlığın olmamasıdır. Bəziləri həqiqətləri bilirlər, amma işə qərar vermirlər, deməyə qərar vermirlər, haqq mövqedə dayanmağa və haqqı müdafiə etməyə qərar vermirlər. Əlbəttə, bu qərar verməməyin də səbəbləri var: bəzən tənbəlliyə görədir, bəzən nəfsdir, bəzən ehtiraslardır, bəzən şəxsi mənafe güdməkdir, bəzən inadkarlıqdır; bir söz deyib və indi bu sözün üstündə durmaq istəyir, sözündən dönməyi eyib bilir. Hədisdə buyurulur: "Allah inadkara lənət eləsin!" Bəzi insanların məlumatı var, həqiqəti də bilirlər, eyni zamanda müxalif cinahlara və düşmən cinahlarına kömək edirlər. Peşman olub qayıdan bu şəxslərin çoxu bir zaman radikal inqilabçılar idilər, amma bir gün görürsünüz ki, tam əks tərəfdə dayanıb inqilab düşməninə xidmət edirlər. Bu sözügedən amillərə görədir; nəfsi istəklərə, ehtiraslara, maddi istəklərə qərq olmaq. Bunların əsas səbəbi də Allahı yada salmamaq, vəzifəni unutmaq, ölümü və qiyaməti unutmaqdır. Bunlar istiqamətlərin 180 dərəcə dəyişməsinə səbəb olur.

Əlbəttə, bəzi adamlar da səhv edirlər; hamını müqəssir bilmək olmaz. Biz hörmət əlaməti olaraq bunlara hədiyyə kimi pul verən bəzi adamları da gördük. Bunlar da pulu aldılar və adının rüşvət olduğunu bilmədilər. Real aləmdə baş verənlər bir-birinə bənzəyir, lakin önəmli olan bunun adının rüşvət olub-olmamasını bilməkdir. Siz elə yerdəsiniz ki, bu işi onun istəyinə uyğun şəkildə görə bilərsiniz. O gəlib əlinizi öpür və sizə pul verir. Bunun adı rüşvətdir. Haram rüşvət budur.

İğtişaş zamanı da belə oldu. Bəziləri bu iğtişaşa və çaxnaşmaya qoşuldular, amma adının təxribat olduğunu bilmədilər; anlamadılar ki, bu, Əmirəl-mömininin (ə) buyurduğu fitnədir: "Fitnə əl-ayağı altda qalanları əzib məhv edir". Onlar bunun fitnə olduğunu anlamadılar. Bir nəfər bir söz dedi, bunlar da təkrarladılar. Buna görə hamını eyni

hökmlə ittiham etmək olmaz; düşmənin hökmü diqqətsizlik edənin hökmündən fərqlidir. Və təbii ki, diqqətsizi oyatmaq lazımdır.

## *Agahlıq - İranı başıuca etmək üçün lazım olan şərt*

Mən siz gənclərə demək istəyirəm: Siz müsəlman İranı qurmaq, yəni həm əziz vətəninizi, xalqınızı və tarixinizi başıuca etmək, həm də əzəmətli İslam qarşısındakı vəzifənizi yerinə yetirmək üçün - bu gün kimsə müsəlman İranın başucalığı üçün çalışsa, həm öz vətəninə, xalqına və tarixinə xidmət etmişdir, həm də bəşəriyyətin xilas amili olan əziz İslama – ayıq-sayıq olmalısınız, səhnədə olmalısınız, agahlığı rəhbər tutmalısınız. Ehtiyatlı olun ki, avamlığa düçar olmayasınız.

Düşməni tanıyın, onun görkəminə aldanmayın. Materialistlik, maddiyyata təmayül, materialist təfəkkür və sivilizasiya bəşəriyyətin və sizin düşməninizdir.

## *Qərbin texnologiya və sərvətinin aqibəti*

Qərb dünyası iki-üç əsr bundan öncədən üstün elmə və üstün texnologiyaya nail oldu, sərvətin yolunu tapdı; müxtəlif ictimai məktəblər, fəlsəfi-ictimai təfəkkürlər meydana çıxdı: humanizm təfəkkürünə əsaslanan liberalizm, demokratiya düşüncəsi və sair. Bunların, yaxud bu düşüncələrlə məşğul olan şəxslərin məqsədi bəşəri rahatlığa, aramlığa və rifaha qovuşdurmaq idi, baş verənlər isə bunun əksinə oldu. Bəşər humanizm təfəkkürü sayəsində və humanist quruluşlarda nəinki insaniyyətə və rifaha nail olmadı, hətta ən çox müharibələr, ən çox qırığınlar, rəhmsizliklər və insanın insana qarşı ən çirkin rəftarları bu dövrdə baş verdi.

Bu sahədə daha öndə olanlar daha pis oldular. Dünən qəzetdə bir material oxudum; Amerika mənbələrinə istinadla yazılmışdı ki, ABŞ əlli il ərzində dünyada səksən hərbi çevriliş etmişdir. Sərvətin, texnologiyanın, silah-sursatın və daha nələrin zirvəsinə çatan şəxslərin vəhşilikləri budur; insan öldürmək bunlar üçün adi işdir, öz sözləri ilə desək, soyuqqanlıdırlar. Qərb ədəbiyyatında yazırlar ki, filankəs soyuqqanlılıqla adam öldürdü. Bu, sonsuz rəhmsizliyin əlamətidir. Yalnız onların işğalı altında olan və hərbi yolla zəbt etdikləri Əfqanıstanda, İraqda və digər regionlarda yox, öz ölkələri daxilində də belədirlər. Onların real həyatlarını təsvir edən ədəbiyyatlarına baxın; incəsənət və ədəbiyyatları həyatlarında nə baş verdiyini göstərir. Onlar üçün adam öldürmək çox asan işdir. Digər tərəfdən, cəmiyyətlərində, gənclər arasında depressiya, həyata ümidsizlik və ictimai qaydalar əleyhinə üsyan halları var. Orada gənclərin geyim formaları və bəzənmə tərzləri əksərən onlara hakim olan vəziyyətdən təngə gəldiklərinə görədir. Bu, qərblilərin yaratdığı məktəb və quruluşların təcrübəsidir. Bütün bunların səbəbi dindən, mənəviyyatdan və Allahdan uzaqlaşmalarıdır.

## *İran xalqı - bugünkü materialist dünyada yeni hərəkətin öncülü*

Siz bu gün onlara əks istiqamətdə hərəkət edirsiniz. Siz ilahi təfəkkürlə elmə yiyələnmək istəyirsiniz; təbii və insani imkanları xalqların, öz xalqınızın və bəşəriyyətin maddi və mənəvi xeyri üçün toplamaq istəyirsiniz. Sizin istiqamətiniz ilahi istiqamətdir. Bu, uğurlu olacaq, inkişaf edəcək. Bu, iki-üç əsrdir Qərb tərəfindən başlanmış səhv və sapqın hərəkətin qarşı tərəfində olan hərəkətdir. Bu, mübarək hərəkətdir və davamlı olacaq.

## *Dünyaya hakim olan səhv üsullarla mübarizədə lazım olan şərait*

Müsəlman iranlı gənc özünü hazırlamalı, inkişaf yolunda Allah-Taalaya arxalanmalı, Ondan yardım ummalı, agah şəkildə irəliləməlidir. Bu zaman dünyaya hakim olan yanlış üsulla mübarizə aparmaq üçün münasib imkanlar əldə olunacaq və inşallah bu inqilabın və İslamın təsvir etdiyi bütün amal və arzular əldə olunacaq.

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!

# İslam İnqilabının Böyük Rəhbərinin Qum vilayətinin tələbə və gəncləri ilə görüşdəki tələbləri

## 1. Milli iqtidarı qorumaqda gənclərin vəzifəsi

Bu ölkəni idarə etməli, indiyədək əldə edilmiş nailiyyətlərdən istifadə edib müxtəlif səviyyələrdə bu milli iqtidarı, milli başucalığını təkmilləşdirməli olanlar sizsiniz. Bu, tarixdə sizə yönəlik bir vəzifədir.

## 2. Düşmən qarşısında uzunmüddətli proqram hazırlamaq

Əgər düşmən cəbhəsinin bizim ölkəmiz və inqilabımız üçün uzunmüddətli proqramının olduğunu qəbul ediriksə, deməli, bizim də uzunmüddətli proqramımız olmalıdır. İslam oyanışı sarıdan güclü təhdid olunan İslam və inqilab düşmənləri cəbhəsinin uzunmüddətli proqramının olmamasını qəbul etmək olmaz. Buna heç kəs inana bilməz. Buna inanmaq üçün çox sadəlövh və avam olmalıyıq... Bizim də uzunmüddətli proqramımız olmalıdır.

## 3. Cəmiyyətin agahlıq əldə etməsi

Agahlıq bu fikirləşməkdən, bu baxmaqdan ibarətdir, artıq gözlənti deyil. Beləliklə anlamaq olar ki, agahlığa nail olmaq hamının işidir; hamı agah ola bilər... Mən siz gənclərə demək istəyirəm: Siz müsəlman İranı qurmaq, yəni həm əziz vətəninizi, xalqınızı və tarixinizi başıuca etmək, həm də əzəmətli İslam qarşısındakı vəzifənizi yerinə yetirmək üçün - bu gün kimsə müsəlman İranın başucalığı üçün çalışsa, həm öz vətəninə, xalqına və tarixinə xidmət etmişdir, həm də bəşəriyyətin xilas amili olan əziz İslama – ayıq-sayıq

olmalısınız, səhnədə olmalısınız, agahlığı rəhbər tutmalısınız. Ehtiyatlı olun ki, avamlığa düçar olmayasınız.

## *4. Dünyaya hakim olan yanlış üsulla mübarizə aparmaq üçün gənclərin hazırlığı və Allaha arxalanması*

Müsəlman iranlı gənc özünü hazırlamalı, inkişaf yolunda Allah-Taalaya arxalanmalı, Ondan yardım ummalı, agah şəkildə irəliləməlidir. Bu zaman dünyaya hakim olan yanlış üsulla mübarizə aparmaq üçün münasib imkanlar əldə olunacaq.

# Möhtəşəm xidmət

**Qum vilayətinin icra məmurları ilə görüşdəki çıxış**

**27 Oktyabr 2010**

Bismillahir-Rəhmanir-Rəhim.

Həmd və səna aləmlərin Rəbbinə məxsusdur. Ağamız və peyğəmbərimiz Əbülqasim Məhəmməd Mustafaya və onun pak və seçilmiş ailəsinə, xüsusən də Allahın Yer üzündə saxladığı (İmam Mehdiyə) salavat və salam olsun!

Salam olsun, sənə, ey sərvərim və mövlam, ey Fatimə Məsumə, ey Musa ibn Cəfərin qızı! Allahın salamı olsun olsun sənə, sənin pak və məsum ata-babalarına!

İran xalqının və Qum şəhərinin səmimi və ixlaslı xidmətçiləri ilə bu gün çox şirin olan bu görüşə çox şad oldum. Mən Qum şəhərinin abadlığına və bu əziz xalqın rifahına kömək etməkdən ötrü zəhmət çəkib Quma təşrif buyurduqlarına və həzrət Məsumənin məqbərəsinə gəldiklərinə görə möhtərəm Dövlət Şurasına təşəkkür edirəm. Hər hansı bir sahədə xidmət göstərən siz möhtərəm məclis iştirakçılarının hamısına təşəkkür edirəm. Ümidvaram ki, Allah-Taala sizə yardım etsin, sizdən razı olsun və inşallah bu əziz, mömin və aktiv xalqı sözün əsl mənasında razı sala biləsiniz.

## *Xalqa xidmətin dəyər və əhəmiyyəti*

Hər bir şəxs üçün böyük bir səadət xidmət səadətidir. Allah-Taalaya görə insana xidmət etmək öz-özlüyündə bir dəyər və savabdır. Əgər xidmət etdiyiniz xalq imana, cihada və ictimai hərəkətlərdə ali hisslərə malik olan bir xalq olsa, o xalqa xidmət göstərmək daha dəyərli olacaq. Qum xalqına xidmət də belədir. Bu mömin xalq ötən on illər ərzində ağır vəzifələrlə qarşı-qarşıya qaldıqda öz imtahanını yaxşı vermiş və başıuca çıxmışdır. Bu xalqa xidmət göstərmək həqiqətən

böyük səadətdir. Əziz və möhtərəm qardaş və bacılar bunun qədrini bilsinlər.

## *Qum şəhərinin əhəmiyyəti*

Tağut dövründə Qumun vəziyyəti və əhəmiyyəti

Qum tağut hakimiyyəti tərəfindən sevilmirdi. Onun sevilməməsi də bu şəhərin mənəvi və həqiqi imtiyazlarına görə idi; dindarlığına görə, ruhaniliklə rabitəsinə görə, bu şəhərdə olan elmi hövzəyə görə. Rza xanın zülmünə qarşı ilk mübarizə Qumdan başlandı. Mərhum Hacı ağa Nurullah İsfahani Rza xan hakimiyyətinin əvvəllərində onun diktaturası ilə mübarizə aparmaq üçün Qumu öz sığınacağı etdi, Quma gəldi. Ölkə alimləri müxtəlif şəhərlərdən Quma toplaşdılar. Bu mübarizə təbii ki, hərbi və diktator Pəhləvi hökumətinin təzyiqi ilə üzləşdi, mərhum Hacı ağa Nurullah zəhərlənib şəhadətə qovuşdu. Ondan sonra bu pak məqbərənin həyətində təqvalı bir din aliminin hicabın qadağan olunması əleyhinə fəryadı ucaldı və hamının diqqətini cəlb etdi. Rza xan Tehrandan Quma gəldi, həmin alim, təqvalı, mömin, mücahid və mənəviyyatlı kişini döydü. Qumda Pəhləvi rejiminə qarşı mübarizənin belə keçmişi var. Deməli, məsələ yalnız 1962-ci ildə başlayan ruhani mübarizələri dövründən sonraya aid deyil. Bunların hamısı tağut hökumətinin Qumla bir düşmən kimi rəftar etməsinə bais olmuşdu. Buna görə Qumda abadlıq yox idi, lazımi büdcələr ayrılmırdı, müxtəlif imkanlar yox idi, Quma digər yerlərdən daha az diqqət yetirirdilər. Tağut dövründə xalqın çoxlu ehtiyacları görməzliyə vurulurdu, xalqla maraqlanmırdılar. Onların başqa işləri vardı. Lakin bununla yanaşı Qum digər şəhərlərlə müqayisədə daha məhrum qalmışdı. Qumun vəziyyəti belə idi.

## *Qum inqilabdan sonra*

İnqilabdan sonra Quma xüsusi diqqət yetirildi. Həqiqətən məlumatlarda olduğu və mənim də təsdiqlədiyim kimi, beş il öncədən etibarən Qumun abadlaşması üçün hərəkət və kömək artdı, sürətləndi və nəzərəçarpacaq inkişaf yarandı. Bəli, bu faydalıdır, lakin davam etdirilməlidir. Əgər bu gün möhtərəm məmurların Qumun işlərinə dair göstərdikləri bu səy, bu həvəs və sevgi davam etsə, ümidvarıq keçmişin çoxlu gerilikləri inşallah tədricən düzəlsin. Və bu, ölkə üçün mühüm məsələdir.

## *Qumun beynəlxalq mövqeyi və əhəmiyyəti*

Quma xidmət etmək yalnız bir şəhərə xidmət deyil, ölkəyə və ölkənin imicinə xidmətdir. Çünki bura inqilabın özülüdür, ruhaniliyin özülüdür. Ən böyük elmi hövzə burada yerləşir. Görkəmli elmi və dini şəxsiyyətlər bu şəhərdə yaşayırlar və bura dünyanın ümumi diqqət mərkəzindədir. Siz baxın, bu bir neçə gündə dünyanın bütün media şəbəkələri Quma, Qum xalqına və Qum ruhaniliyinə yer ayırdılar. Bu, Qum şəhərinin əhəmiyyətini göstərir, bu şəhərin mərkəzliyini göstərir. Buna əsasən, bu şəhərə xidmət İslam Respublikasının imicinə xidmətdir.

## *Düşmənlərin İslam inqilabına qarşı daimi siyasəti*

### İnqilab və İslam simvollarını zəiflətmək

İnqilab illəri boyu düşmənlərin təbliğat proqramlarından biri inqilab və İslam simvollarını zəiflətmək olmuşdur. Milli səviyyədə İslamın və inqilabın simvolu olan hər bir şeyi zəiflətməyə çalışmışlar. Ruhaniliyi gözdən salmaq və məsxərə etmək də bu qəbuldəndir; bir çox İslam təlimlərini zəiflətmək,

aşağılamaq və müxtəlif şəxslər tərəfindən irad bildirilməsi də bu qəbildəndir; Qumu gözdən salmaq da bu qəbildəndir.

## *Düşmənlərin Qum barədə xüsusi proqramı*

Qum üçün proqram hazırladılar. Mən dünən də burada keçirilən məclisdə dedim: düşmən cəbhənin qərarı bu idi ki, İslam əzəmətinin və inqilab bayrağının Qumda ucaldıldığı kimi, inqilabın antitezisini də Qumda yaratsınlar, buranı əksinqilabi mərkəzə çevirsinlər. Bunun üçün çalışdılar, proqram hazırladılar, müxtəlif üsullara əl atdılar. O cümlədən Qum xalqının düşüncə və hissləri üzərində işlədilər, onları yox etməyə, yaxud zəiflətməyə çalışdılar. Buna əsasən, bu illərdə çox işlər görülmüşdür.

## *Xalqın oyanışı və güclü imanı - Qumda düşmən planlarını təsirsiz edən amil*

Xalqın bütün bu düşmən səylərinə cavabının belə fəal və əzəmətli olması - Qum xalqı bu bir neçə gündə qəhrəmanlıq yaratdı – bu xalqın oyaq olduğuna görədir; bu, imanın bu qəlblərə güclü təsirinin əlamətidir. Çünki düşmən heç nə əsirgəməmişdir. Quma diqqət çoxdur.

## *Düşmənlərin Qum təxribatını zərərsizləşdirməyin yolu*

### Şəhərin əsl problemlərini öyrənmək və xalqa xidmət göstərmək

Bu təbliğatı zərərsizləşdirmək lazımdır və bu, xalqa xidmətlə, yardımla, bu şəhərin və bu xalqın əsl problemlərini bilməklə mümkündür. Buna görə bu gün bu məclisdə siz möhtərəm məmurların hüzurunda mənim tövsiyəm budur ki, bacardığınız qədər bu xalqa xidmət göstərin və bu xalqın problemlərini həll etməyə çalışın.

## *Problemləri aradan qaldırmaqda prioritetlərə diqqət*

Təbii ki, dövlət qurumlarının imkanları məhduddur. Odur ki, prioritetləri nəzərə almaq lazımdır. Həmişə belədir. Baxıb nəyin prioritet olmasını bilmək lazımdır. Mənim fikrimcə Qum şəhərinin icrada olan mühüm məsələləri diqqətlə sıralanmalıdır. Bu gün möhtərəm nazirlər kabinetinin burada qəbul etdiyi, həmçinin möhtərəm prezidentin bu şəhərə səfərlərində qəbul olunan qərarlar dəqiq və tam şəkildə icra olunmalıdır. Möhtərəm məmurlar çalışıb bu qərarların hamısını diqqətlə, səylə və sonacan yerinə yetirsinlər.

## *Su problemi*

Allaha şükür olsun ki, bir neçə ildir Qum üçün çox əsaslı və həyati məsələ olan su probleminin həlli istiqamətində işlər başlanmış və nisbətən yaxşı nəticələr əldə edilmişdir. Lakin bu iradə və səy davam etdirilməlidir ki, inşallah şirin su Qum şəhərinə çatsın və xalqın ağzını şirinləşdirsin.

## *Məhrum bölgələr*

Qumun məhrum bölgələri məsələsinə toxunuldu, həm cənab vali, həm də möhtərəm vitse-prezident çıxışlarında bunu qeyd etdilər. Bu çox mühüm məsələdir. Onlar bəzi bölgələrin adını çəkdilər, bəzilərinin adını isə çəkmədilər. Qumda çoxlu əhalisi, inqilabı çox sevən insanları olan məhrum bölgələr var. Bütün məhrumiyyətlərinə rəğmən, qeyd olunan stansiya bölgəsinin əhalisi inqilab və onun amallarına ən həvəskar və ən maraqlı insanlardandır. Biz bundan xəbərdarıq. Müqəddəs müdafiə dövründə də belə olub, ondan sonra da belə olmuşdur. Yaxud Qumun yoxsul və geri qalmış məhəllələrindən olan Şah İbrahim məhəlləsi və digər məhəllələrinin rifah, səhiyyə, təhsil və xidmət məsələləri üçün

əsaslı işlər düşünmək lazımdır. Birdəfəyə bir hərəkət edilsin ki, sonra inşallah adi qaydasına düşsün.

## *Səhiyyə*

Qumun problemlərindən biri səhiyyə məsələsidir. Burada olduğum bu bir neçə gündə mənə müxtəlif kanallarla şəhərin daha artıq səhiyyə imkanlarına ehtiyacı barədə fikirlər çatdı. Əlbəttə, bu sahədə bəzi qərarlar qəbul olunmuşdur və inşallah icra ediləcək, lakin daha ciddi yanaşmaq lazımdır. Eşitdim ki, ehtiyaclı sahələrdən biri tibb və səhiyyənin qadın bölmələridir. İnşallah bu məsələyə diqqət yetirilsin.

## *Əl işləri*

Mən birinci gün etdiyim çıxışda da toxundum ki, Qum şəhərinin əl işləri məsələsi mühüm məsələdir. Biz Qumda olanda və ondan öncə bu şəhər çox gözəl və dəyərli xalçaçılıqla məşhur idi. Buna kömək olunmalıdır. Bu şəhərin bu imkanı çox mühüm bir imkandır. Hər yerdə eşitmişdik, Qumun qadın və kişiləri də bu xalçaçılıqla fəxr edirdilər; burada toxunurdu və "Nəxfirəng xalçası" adı ilə məşhur olmuşdu. Bilmirəm ki, indi də həmin adla tanınır, yoxsa yox. Xalçaçılıq və digər əl işləri məsələlərinə diqqət yetirilsin. Bu, xalqı öz məişəti daxilindən bəhrələndirə və vəziyyətini yaxşılaşdıra bilər.

## *Sənaye və əkinçilik*

Sənaye məsələsinə toxundular; çox yaxşıdır. Buranın əkinçiliyi barədə eşitdim ki, Tehran və Vəramindən Müseylə tarlalarına su çəkilməsi nəzərdə tutulub. Bu, hökumətin layihələrindəndir və öncədən qərar qəbul etmişlər. Bu çox yaxşı və önəmli işdir; inşallah icra olunsun.

## *Məmurların Qumun bütün problemlərini həll etməyə çalışması*

Allaha şükür olsun ki, indiki hökumətin dövründə böyük işlər görülmüşdür. Burada da qeyd olundu ki, doqquzuncu və onuncu hökumətlərdə əvvəllər görülənlərdən bir neçə dəfə artıq olan dəyərli işlər görülmüşdür, lakin eyni zamanda hələ də ehtiyaclar var. Bu ehtiyaclar azalmışdır, lakin onların tamamilə aradan qaldırılması üçün daha çox çalışmaq lazımdır və bu vəzifə sizin üzərinizə düşür.

## *Məmurların xidmət göstərməsində diqqətəlayiq məqamlar*

### Məmurların xalqla münasib rəftarının əhəmiyyəti

Çox mühüm məsələlərdən biri idarələrin müxtəlif səviyyəli məmurlarının xalqla və müraciət edənlərlə rəftarı məsələsidir; gülər üz, gülər üz!

*Düyün açmırsansa, düyün vurma özün,*
*Əlin açıq deyilsə, gülər olsun üzün!*

Bəzən bir məmur ondan gözləniləni yerinə yetirə bilmir; idarənin büdcəsi azdır, imkanları azdır; eybi yoxdur. Əgər xalqla imkan daxilində, amma gülər üzlə, açıq qucaqla və səmimi şəkildə rəftar olunsa, razı qalarlar. Bəzən Tehranda bizim dəftərxanamıza müraciətlər olunur; kiminsə istəyi olur və biz onu həyata keçirə bilmirik. Deyirlər ki, bəli, istəyiniz bizə çatdı, amma bu işi görə bilmirik; ya qanun imkan vermir, ya da başqa problem var. Müraciət edən adam deyir ki, bu iş görülməsə də, mənim istəyimə diqqət yetirib onunla maraqlandığınız üçün sizdən razıyam. Xalq məmurların onların dərdini hiss etməsindən və qəmlərinə şərik olmasından

razı qalır. Sözsüz ki, çalışıb imkan daxilində onların ehtiyaclarını təmin etsinlər. Lakin qeyd etdik ki, hökumətin imkanları məhduddur, biz bütün lazımi işlər üçün hökumətin əlinin açıq olduğunu güman edə bilmərik. Xeyr, müxtəlif cəhətlərdən çoxlu məhdudiyyətlər var, amma mümkün olan həddə həyata keçirək və bunu gülər üzlə edək, xalqla mehriban olaq. Bu, bizim və bütün məmurların öhdəsinə düşən mühüm işlərdəndir.

## *Xidmət göstərərkən mənəvi mükafatın əhəmiyyətinə diqqət yetirmək*

Müxtəlif sahələrdə - istər təhsil işində, istər xidmətlərdə, istər sənayedə, istər əkinçilikdə, istər mədəni sahələrdə, istər səhiyyədə, istər polis və təhlükəsizlik işlərində və sair işlərdə çalışan siz möhtərəm məmurlar bilin ki, etdiyiniz bu xidmətin mükafatı yalnız idarə tərəfindən verilən maaş deyil, əsl mükafat Allahın yanındadır. Allah-Taalanın verdiyi mükafat dünyada insana verilən mükafat və muzdlardan dəfələrlə üstün, dəyərli və şirindir; istər maddi mükafatlardan, istər hətta təşəkkürdən. Ola bilsin biz bir zaman bir iş görək və xalq bizə təşəkkür etsin. Bu da bir muzddur, lakin ilahi muzd bunlardan çox üstündür. Siz bir xidmət göstərirsiniz, bir qayğıkeşlik edirsiniz, vaxt ayırırsınız, iş saatından artıq çalışır və xidmət göstərirsiniz. Bunu heç kəs anlamaya da bilər, amma Allah bilir. Bu çox zaman baş verir. Bu 31-32 illik xidmət dövründə heç kəs bilmədən, hətta özündən yuxarıların, aşağıların, yaxud həmkarlarının da xəbəri olmadan qayğıkeş bir işlə məşğul olan insanlarla dəfələrlə rastlaşmışıq. Bir qovluğa baxarkən, bir işlə məşğul ikən iş vaxtı bitib, deyib ki, yarım saat da, bir saat da qalıb bu işi bitirim; heç kəs bilməyib və heç kəs təşəkkür etməyib. Bilin ki, bunlar Allahın yanında qalır. Heç kəs bilməsə də, ilahi yazarlar bilir və mələklər qeyd

edirlər. Gözlərin və ürəklərin hamısının ilahi lütfə, mərhəmətə və bağışa ehtiyaclı olduğu zaman bunlar sizin gözünüzə və qəlbinizə aydınlıq gətirəcək. Bunlar qiyamətin çətin və dəhşətli günündə sizin üçün kölgə olacaq. İlahi mükafat çox üstündür.

## İşdən yorulmamaq - mənəvi mükafata diqqətin səmərəsi

Bu mükafata diqqət yetirin. Bilin ki, gördüyünüz hər bir iş, xalqa göstərdiyiniz hər bir xidmət Allah-Taalanın yanında qeyd olunur və qorunur. Bu ruhiyyə ilə işlədikdə işdən yorulmayacaqsınız, iş bizi əldən salmayacaq. Həm də bizim ölkəmizin işə həqiqətən ehtiyacı var.

## Elmi, ictimai və sənaye sahələrində inkişaf sürətinin artırılması

Biz bütün sahələrdə sürətlə irəliləməliyik. Elm sahəsində bizi 100-150 il geridə saxlayıblar; sənaye sahəsində də həmçinin, müxtəlif ictimai sahələrdə də həmçinin.

## İnqilabdan öncəki fəsadlı hökumətlərin xəyanətinin nəticəsi

Fəsadlı, diktator, şəhvətpərəst və tamahkar, inqilabdan öncəki son bir neçə onillikdə isə həm də əcnəbilərə sıx bağlı hökumətlər bu ölkəni fəlakətə sürüklədilər.

## Qacar və Pəhləvi xəyanətlərinin aqibət və təsirləri

Bir zaman yalnız istibdad vardı, diktatura vardı - Nasirəddin şah diktaturası, Fətəli şah diktaturası; amma daha asılılıq yox idi. Amma bir zaman ölkənin vəziyyəti elə bir həddə çatdı ki, həm diktatura vardı, hegemonluq vardı, xalqa

zülm vardı, həm də əcnəbiyə köləlik. Vəhşi bir canavar kimi xalqa zülm edən quldur Rza xan ingilis ərbablarının bütün istəklərini yerinə yetirirdi. Neft müqaviləsini alıb, səhv etməsəm, sobaya atdı və yandırdı. Bir neçə gündən sonra isə qabaqkı neft müqaviləsinin müddətini otuz il də artırıb daha pis və rüsvayçı bir müqavilə imzaladı. Dövlət məmurları da ona tabe idilər. Rza xan gedəndən sonra o zaman Maliyyə naziri olan Tağızadəyə dedilər ki, nə üçün bu müqaviləni imzaladın. Dedi ki, mən bir alət idim; yəni Rza xanın özü rəis idi. Öz xalqı qarşısında belə vəhşicəsinə, həyasızcasına, heç bir şeyi nəzərə almadan və aqressiv rəftar edən bu insan ingilislərin qarşısında xar və zəlil idi; onlar iş başına gətirmişdilər. Bir müddət o qütbdən bir qədər başqa qütbə yönəlmək istədi; almanlara təmayül göstərdi. Götürüb zəlil bir qul kimi İrandan xaric etdilər və oğlunu yerinə təyin etdilər. Bizim ölkəmiz uzun illər belə yaşamışdır. Bu xalq uzun illər bu şəkildə müstəbid, fəsadlı, diktator və sərvət yığmaqda olan hökumətlərin təzyiqi altında yaşamışdır. Ölkənin harasında gözəl bir yer vardısa, Rza xan öz adına keçirmişdi; Mazandaranda, Xorasanda və digər yerlərdə. Sərvət topladılar, əmlak topladılar, özləri üçün ləl-cəvahirat yığdılar, axırda milli sərvətlərdən də götürüb qaçdılar. Bu xalqın milyardlarla dolları Amerikaya aparılmışdır. Biz inqilabın əvvəlində Amerikadan Pəhləvi sülaləsinin özü ilə apardığı sərvətləri İran xalqına qaytarmasını istədik, amma qulaq asmadılar. Bəlli idi ki, qulaq asmayacaqlar; bunların hamısı eyni tipdəndir.

## *İranda İslam inqilabının səmərələri*

Bu xalq inqilabın sayəsində öz həyatını yeniləmək istədi, yeni həyat yolu keçdi, böyük işlər gördü. Daha böyük işlər isə qarşıdadır; həm elmi baxımdan, həm texniki baxımdan, həm xidmətlər baxımından, həm müxtəlif təşkilatlar, koordinasiya

və sistem yaratmaq baxımından görməli olduğumuz çoxlu işlər qarşıdadır. Bu xalq üçün nə qədər işləsəniz, çox deyil. Mənim sizə tövsiyəm budur. Mən yenə də bu şəhərdə sakin olan siz möhtərəm məmurların hamısına, möhtərəm valiyə və digər məmurlara təşəkkür edir və birinci gün də dediyim sözü təkrarlamaq istəyirəm: Dövlət qurumları diqqətli olsunlar; əgər hansısa məsələdə öz aralarında fikir ayrılığı varsa da, bunun tüstüsünün xalqın gözünə dolmasına və xalqa toxunmasına imkan verməsinlər.

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!

## *İslam İnqilabının Böyük Rəhbərinin Qum vilayətinin icra məmurları ilə görüşdəki tələbləri*

### 1. Qumun abadlığı üçün ciddi çalışmaq

İnqilabdan sonra Quma xüsusi diqqət yetirildi. Həqiqətən məlumatlarda olduğu və mənim də təsdiqlədiyim kimi, beş il öncədən etibarən Qumun abadlaşması üçün hərəkət və kömək artdı, sürətləndi və nəzərəçarpacaq inkişaf yarandı. Bəli, bu faydalıdır, lakin davam etdirilməlidir. Əgər bu gün möhtərəm məmurların Qumun işlərinə dair göstərdikləri bu səy, bu həvəs və sevgi davam etsə, ümidvarıq keçmişin çoxlu gerilikləri inşallah tədricən düzəlsin. Və bu, ölkə üçün mühüm məsələdir.

### *2. Xalqa xidmət göstərmək və Qumun həqiqi problemlərini öyrənmək üçün daha çox çalışmaq*

Müxtəlif üsullara əl atdılar. O cümlədən Qum xalqının düşüncə və hissləri üzərində işlədilər, onları yox etməyə, yaxud zəiflətməyə çalışdılar... Bu təbliğatı zərərsizləşdirmək

lazımdır və bu, xalqa xidmətlə, yardımla, bu şəhərin və bu xalqın əsl problemlərini bilməklə mümkündür. Buna görə bu gün bu məclisdə siz möhtərəm məmurların hüzurunda mənim tövsiyəm budur ki, bacardığınız qədər bu xalqa xidmət göstərin və bu xalqın problemlərini həll etməyə çalışın.

## *3. Dövlət imkanlarını bölməkdə Qum şəhərinin prioritet və zərurətlərinə diqqət yetirmək*

Təbii ki, dövlət qurumlarının imkanları məhduddur. Odur ki, prioritetləri nəzərə almaq lazımdır. Həmişə belədir. Baxıb nəyin prioritet olmasını bilmək lazımdır.

## *4. Qumun mühüm məsələlərini siyahıya almaq*

Mənim fikrimcə Qum şəhərinin icrada olan mühüm məsələləri diqqətlə siyahıya alınmalıdır.

## *5. Bütün qərarları sona qədər və dəqiq yerinə yetirmək*

Bu gün möhtərəm nazirlər kabinetinin burada qəbul etdiyi, həmçinin möhtərəm prezidentin bu şəhərə səfərlərində qəbul olunan qərarlar dəqiq və tam şəkildə icra olunmalıdır. Möhtərəm məmurlar çalışıb bu qərarların hamısını diqqətlə, səylə və sonacan yerinə yetirsinlər.

## *6. Qum şəhərinin ən mühüm problemlərinin həlli:*

### a) Qumun su problemini həll etmək üçün səyləri davam etdirmək

Allaha şükür olsun ki, bir neçə ildir Qum üçün çox əsaslı və həyati məsələ olan su probleminin həlli istiqamətində işlər

başlanmış və nisbətən yaxşı nəticələr əldə edilmişdir. Lakin bu iradə və səy davam etdirilməlidir ki, inşallah şirin su Qum şəhərinə çatsın və xalqın ağzını şirinləşdirsin.

## *b) Qumun məhrum bölgələrinin müxtəlif çatışmazlıqlarını aradan qaldırmaq*

Qumun məhrum bölgələri məsələsinə toxunuldu, həm cənab vali, həm də möhtərəm vitse-prezident çıxışlarında bunu qeyd etdilər. Bu çox mühüm məsələdir. Onlar bəzi bölgələrin adını çəkdilər, bəzilərinin adını isə çəkmədilər. Qumda çoxlu əhalisi, inqilabı çox sevən insanları olan məhrum bölgələr var. Bütün məhrumiyyətlərinə rəğmən, qeyd olunan stansiya bölgəsinin əhalisi inqilab və onun amallarına ən həvəskar və ən maraqlı insanlardandır. Biz bundan xəbərdarıq. Müqəddəs müdafiə dövründə də belə olub, ondan sonra da belə olmuşdur. Yaxud Qumun yoxsul və geri qalmış məhəllələrindən olan Şah İbrahim məhəlləsi və digər məhəllələrinin rifah, səhiyyə, təhsil və xidmət məsələləri üçün əsaslı işlər düşünmək lazımdır. Birdəfəyə bir hərəkət edilsin ki, sonra inşallah adi qaydasına düşsün.

## *c) Qumun səhiyyə məsələsinə əhəmiyyətli yanaşmaq*

Qumun problemlərindən biri səhiyyə məsələsidir. Burada olduğum bu bir neçə gündə mənə müxtəlif kanallarla şəhərin daha artıq səhiyyə imkanlarına ehtiyacı barədə fikirlər çatdı. Əlbəttə, bu sahədə bəzi qərarlar qəbul olunmuşdur və inşallah icra ediləcək, lakin daha ciddi yanaşmaq lazımdır. Eşitdim ki, ehtiyaclı sahələrdən biri tibb və səhiyyənin qadın bölmələridir. İnşallah bu məsələyə diqqət yetirilsin.

## ç) Qumun əl işləri və xalçaçılıq məsələsinə diqqət yetirmək

Mən birinci gün etdiyim çıxışda da toxundum ki, Qum şəhərinin əl işləri məsələsi mühüm məsələdir. Biz Qumda olanda və ondan öncə bu şəhər çox gözəl və dəyərli xalçaçılıqla məşhur idi. Buna kömək olunmalıdır. Bu şəhərin bu imkanı çox mühüm bir imkandır. Hər yerdə eşitmişdik, Qumun qadın və kişiləri də bu xalçaçılıqla fəxr edirdilər; burada toxunurdu və "Nəxfirəng xalçası" adı ilə məşhur olmuşdu. Bilmirəm ki, indi də həmin adla tanınır, yoxsa yox. Xalçaçılıq və digər əl işləri məsələlərinə diqqət yetirilsin. Bu, xalqı öz məişəti daxilindən bəhrələndirə və vəziyyətini yaxşılaşdıra bilər.

## d) Qumun sənaye və əkinçiliyinə dair dövlət layihələrini icra etmək

Sənaye məsələsinə toxundular; çox yaxşıdır. Buranın əkinçiliyi barədə eşitdim ki, Tehran və Vəramindən Müseylə tarlalarına su çəkilməsi nəzərdə tutulub. Bu, hökumətin layihələrindəndir və öncədən qərar qəbul etmişlər. Bu çox yaxşı və önəmli işdir; inşallah icra olunsun.

## e) Qumun bütün problemlərini aradan qaldırmaq üçün məmurların daha artıq çalışması

Allaha şükür olsun ki, indiki hökumətin dövründə böyük işlər görülmüşdür. Burada da qeyd olundu ki, doqquzuncu və onuncu hökumətlərdə əvvəllər görülənlərdən bir neçə dəfə artıq olan dəyərli işlər görülmüşdür, lakin eyni zamanda hələ də ehtiyaclar var. Bu ehtiyaclar azalmışdır, lakin onların tamamilə aradan qaldırılması üçün daha çox çalışmaq lazımdır və bu vəzifə sizin üzərinizə düşür.

## 7. Müxtəlif səviyyəli məmurların xalqla münasib rəftarı

Çox mühüm məsələlərdən biri idarələrin müxtəlif səviyyəli məmurlarının xalqla və müraciət edənlərlə rəftarı məsələsidir; gülər üz, gülər üz!

*Düyün açmırsansa, düyün vurma özün,*
*Əlin açıq deyilsə, gülər olsun üzün!*

Bəzən bir məmur ondan gözləniləni yerinə yetirə bilmir; idarənin büdcəsi azdır, imkanları azdır; eybi yoxdur. Əgər xalqla imkan daxilində, amma gülər üzlə, açıq qucaqla və səmimi şəkildə rəftar olunsa, razı qalarlar. Bəzən Tehranda bizim dəftərxanamıza müraciətlər olunur; kiminsə istəyi olur və biz onu həyata keçirə bilmirik. Deyirlər ki, bəli, istəyiniz bizə çatdı, amma bu işi görə bilmirik; ya qanun imkan vermir, ya da başqa problem var. Müraciət edən adam deyir ki, bu iş görülməsə də, mənim istəyimə diqqət yetirib onunla maraqlandığınız üçün sizdən razıyam. Xalq məmurların onların dərdini hiss etməsindən və qəmlərinə şərik olmasından razı qalır. Sözsüz ki, çalışıb imkan daxilində onların ehtiyaclarını təmin etsinlər. Lakin qeyd etdik ki, hökumətin imkanları məhduddur, biz bütün lazımi işlər üçün hökumətin əlinin açıq olduğunu güman edə bilmərik. Xeyr, müxtəlif cəhətlərdən çoxlu məhdudiyyətlər var, amma mümkün olan həddə həyata keçirək və bunu gülər üzlə edək, xalqla mehriban olaq. Bu, bizim və bütün məmurların öhdəsinə düşən mühüm işlərdəndir.

## 8. Ölkənin inkişaf sürətini artırmaq

Biz bütün sahələrdə sürətlə irəliləməliyik. Elm sahəsində bizi 100-150 il geridə saxlayıblar; sənaye sahəsində də

həmçinin, müxtəlif ictimai sahələrdə də həmçinin. Fəsadlı, diktator, şəhvətpərəst və tamahkar, inqilabdan öncəki son bir neçə onillikdə isə həm də əcnəbilərə sıx bağlı hökumətlər bu ölkəni fəlakətə sürüklədilər...

Bu xalq... böyük işlər gördü, daha böyük işlər isə qarşıdadır; həm elmi baxımdan, həm texniki baxımdan, həm xidmətlər baxımından, həm müxtəlif təşkilatlar, koordinasiya və sistem yaratmaq baxımından görməli olduğumuz çoxlu işlər qarşıdadır. Bu xalq üçün nə qədər işləsəniz, çox deyil. Mənim sizə tövsiyəm budur.

# Möhtəşəm elm

**Qum Elmi Hövzəsinin bir qrup müəllim və nümunəvi tələbəsi ilə görüşdəki çıxış**

**28 Oktyabr 2010**

Bismillahir-Rəhmanir-Rəhim.

Həmd və səna aləmlərin Rəbbinə məxsusdur. Ağamız və peyğəmbərimiz Əbülqasim Məhəmməd Mustafaya və onun pak, seçilmiş, hidayət edən, məsum və möhtərəm ailəsinə, xüsusən də Allahın Yer üzündə saxladığı (İmam Mehdiyə) salavat və salam olsun!

# Birinci hissə: Giriş

Bu gecə bizim ömrümüzün yaxşı gecələrindən və bu məclis ən gözəl və ən yaddaqalan məclislərdən biri idi. Mən çox həzz aldım. 2007-ci ildə Tehranda da bizim belə bir məclisimiz oldu və hövzə alimlərinin bir qrupu təşrif buyurub söhbət etdilər. O gecə də mən həqiqətən bu alim gəncləri, fəal zehinləri və aydın düşüncələri görməkdən həzz aldım. Bu gecə həmin xatirə yenidən canlandı və Allaha şükür olsun ki, sizdən çox yaxşı sözlər eşitdik. Təbii ki, bizim də sözümüz var və vaxta uyğun olaraq, deyəcəyik. Bundan əlavə, mənim nəzərdə tutduğum mətləblərin çoxunu bu möhtərəm cənablar ən gözəl formada və ən gözəl sözlərlə bəyan etdilər.

## *Moizə; Allah-Taalanın Musa peyğəmbərə (ə) vəhyi*

Mən bir rəvayət qeyd etmişəm. Əvvəl onu deyim ki, həm bizim dilimiz bu şərafətli hədislə bərəkətlənsin, həm də məclis Əhli-beyt (ə) sözləri ilə ətirlənsin. Hədisin sənədi də yaxşıdır: Vəsail kitabında Nəfslə cihad bölməsindədir. İmam Sadiq (ə) nəql edir ki, Allah-Taala Musa peyğəmbərə (ə) buyurdu: "Ey Musa! Bəndələrim mənə üç yoldan daha sevimli bir yolla yaxınlaşa bilməzlər". Musa dedi ki, onlar nədir? Allah buyurdu: "Ey Musa! (onların birincisi) dünyada zahidlikdir...".

## *Zahidlik*

Birinci xüsusiyyət zahidlikdir. Biz bu hədisləri minbər və çıxışlarda dəfələrlə xalqa oxuyur və təkrarlayırıq. Bəzi əzizlər buyurdular ki, əgər bu sözlər bizim ürəyimizdən gəlməsə, əməlimizdə təcəssüm olunmasa, təsir bağışlamayacaq. Zahidliyin mənası dünyanı birdəfəlik kənara qoymaq deyil. Bu nə din böyüklərinin rəftarında görünüb, nə də zahidliyin

leksik mənasında. Zahidlik meyl salmamaq, həris olmamaq, dünyadan və maddi gözəlliklərdən yapışmamaqdır. Dünyadan yapışmayaq. Həyatda bir insanın ən yaxşı nailiyyəti də budur; özünü dünyaya yapışdırmasın, dünyaya bağlamasın və bu bərbəzəklərdən asmasın. Bu zaman insan özü də rahat olar.

*Əgər bu bazarda qazanc varsa, şad dərvişə məxsusdur,*
*İlahi, mənə dərvişlik və şadlıq neməti bəxş et!*

Əziz İslam Peyğəmbərindən (s) nəql olunmuşdur ki, Allahdan istəmişəm bir gün ac qalım, bir gün tox; ac olan gün Allahdan istəyim, tox olan gün isə Allaha şükür edim. Zahidlik məsələsində məzəmmət olunan dünya yalnız pul və həyatın maddi bərbəzəyi deyil, məqam, vəzifə, rütbə, hörmət, sevilmək və bu kimi məsələlər də ondandır. Dünya üçün işləmək, dünya üçün dərs oxumaq, dünya üçün çalışmaq - bunların hamısı zahidlikdə kənara qoyulması və rəğbət göstərilməməsi təkidlə istənilən məsələlərdir.

## Təqva

Sonra buyurur ki, günahlardan çəkinmək və təqvalı olmaq. Bəli, əsas məsələ təqvadır.

## Allah qorxusundan ağlamaq

"Və mənim qorxumdan ağlamaq". İnsanın vacib, yaxud müstəhəb ibadətlərini yerinə yetirmək kifayət etmir. Ürək haqqa səcdə etməlidir. Ürək yönəlməlidir. Əgər yönəlsə, o zaman göz yaşı axar. Allah qorxusundan ağlamaq ürəyin diqqətindən irəli gəlir, dərkdən, təzimdən doğur. Bizə bunu əmr ediblər; bizim buna ehtiyacımız var. Bunlar bizim ehtiyaclarımızdır. Əgər bütün məntiqli və düzgün vasitələri təmin etsək, amma bizdə bu ruh olmasa, bu mənəviyyat

olmasa, bu əxlaq olmasa, iş faydasız, yaxud az faydalı olacaq, inkişaf etməyəcək. Bizim öz qəlbimizin möhkəmlik üçün təvəssül və təzimə ehtiyacı var.

## *Dində qəlbin məhkəmlənməsinin əhəmiyyəti*

Mərhum ağa Bəhcət buyururdu ki, bu duanı çox oxuyun: "Ya Allahu, ya Rəhmanu, ya Rəhim! Ya Muqəllibəl-qulub! Səbbit qəlbi əla dinik". Yəni ey Allah, ey Rəhman, ey Rəhim, ey qəlbləri dəyişən, mənim qəlbimi öz dinin əsasında möhkəmləndir! O, fərzi bir irada cavab da verirdi; ola bilsin kimsə desin ki, "qəlbimi öz dinin əsasında möhkəmləndir" – sözünü nə üçün deyirik? Bizim dinimiz düzgündür, məntiqlidir, möhkəmdir; yəqin bu, aşağı təbəqələr üçündür. O buyururdu ki, insanın qəlbi, imanı və dindarlığı hansı dərəcədə olsa, o dərəcədən enmək geriyə qayıtmaqdır. Bu duanın mənası odur ki, dini həmin yüksək dərəcədə saxla və möhkəmləndir. Əgər belə olsa, o zaman həyat şirin və ölüm rahat olar.

## *Ölüm məsələsinin əhəmiyyəti*

Bizim əsas problemlərimizdən biri ölmək problemidir. İmam Səccad (ə) Allah-Taalaya deyir: "Bizi yolunu azmış yox, hidayət olmuş halda, könülsüz yox, itaətkar halda və günahkar yox, tövbə edən halda öldür!". İnsan bütün ömrü boyu hidayət yolunda olub, amma yenə imam dua edir ki, bizi belə öldür. Bəlli olur ki, təhlükəli məsələdir.

## *Zahidliyin, təqvanın və ağlamağın mükafatı*

Hədisin davamında buyurur: "Musa dedi ki, ey Allah, onlar nədir?" Allah buyurdu: "Ey Musa! onlar dünyada zahidlikdən, günahlardan çəkinib təqvalı olmaqdan və mənim qorxumdan ağlamaqdan ibarətdir". Musa (ə) dedi ki, ey Rəbb, bu işləri

görən şəxsin mükafatı nədir? Allah-Taala buyurdu: "Ey Musa! Dünyada zahidlik edənlər cənnətdə olarlar. Mənim qorxumdan ağlayanlar elə uca məqama çatarlar ki, heç kəs onlarla şərik olmaz". Bu yüksək məqam onların kövrək qəlbinin, həssas ürəklərinin Allah zikri qarşısında kiçildiyi və bu kiçikliyin onların gözünü ağlatdığı insanlardır. "Günahlardan çəkinənlərə gəldikdə isə mən (qiyamətdə) hamını yoxladığım zaman onları yoxlamayacağam". Bu da insanın təbii olaraq etdiyi bəzi səhv və səhlənkarlıqlara Allahın göz yumması deməkdir.

Bu hədisin sənədi də mötəbərdir; İbn Əbi Ümeyr nəql edir. Və bildiyiniz kimi, İbn Əbi Ümeyrin mürsəl hədisləri müsnəd kimidir.

## *Mənəviyyat - hövzənin əsas işi*

Haqlı olaraq buyurdular ki, tələbə hövzəyə və bu yola daxil olanda mənəviyyata və ruhaniliyə sözün həqiqi mənasında şövq və rəğbətlə daxil olur. Bunda şübhə yoxdur. Biz bu yolda illərlə getdik, hərəkət etdik, dərs oxuduq, nəfəs çəkdik. Lakin eyni zamanda Allah-Taalaya sığınmaq, Allahdan kömək istəmək və Ondan uğur diləmək lazımdır. Allahın yardımı olmasa, iş çox çətin olar. İmam Səccad (ə) Səhifeyi-Səccadiyyənin bir duasında deyir: "Mən öz nəfsi sarıdan səndən xəcalətli olan, nəfsinə qəzəblənən və səndən razı olan adamam". Bu hansı haldır; bu necə vəziyyətdir ki, İmam Səccad (ə) xəcalətli olduğunu deyir?

Hər halda, mənəviyyat işi və mənəvi aləmə könül vermək hövzədə əsas işdir. Buna hamımız diqqət yetirməliyik. Hövzədə mənəviyyatın azlığı bizə zərər yetirir.

## *Müəllimlərin tələbələrə nəsihət verməsinin lazım olması*

Allahın lütfü ilə hövzədə elə şəxslər var ki, onların qəlbindən süzülən və yalnız dilin vərdişi olmayan mənəviyyat zülalı hamımızı doyura bilər. Xüsusən gənc tələbələrin buna hamıdan artıq ehtiyacı və bu sözlərə hamıdan çox hazırlıqları və təsirlənmə imkanları var.

Bəzən dərsdə müəllim bir münasibətlə iki kəlmə söz deyir və tələbə tamam dəyişir. İmam müxtəlif münasibətlərlə bəzən dərsin birinci, bəzən də sonuncu günü mənəvi və ruhi məsələlərdə malik olduğu qəribə bəyanla bəzən elə cümlələr deyirdi ki, tələbələr ağlayırdılar. Mərhum Ayətullah Bürucerdinin vəfatından sonra Səlmasi məscidində imam üçün minbər qurdular. Ondan qabaq imam minbərə çıxmırdı, güman ki, ağa Bürucerdinin hörmətinə görə yerdə oturub dərs deyirdi. İmam minbərin üzərində oturdu. Bu yeni bir şey idi. İmamı təbəssüm tutdu. Sonra dərhal vəziyyətini dəyişdirib dedi: "Mərhum ağa Naini minbər üzərində oturduğu birinci gün ağlayıb buyurdu ki, bu, Şeyx Ənsarinin oturduğu minbərdir; indi iş elə yerə çatıb ki, bu minbərin üstündə biz oturmalıyıq". Bu söz tələbələri silkələdi; sonra da geniş söhbət etdi.

Məşhəddə Xorasan Elmi Hövsəsinin məşhur müəllimi olan mərhum Hacı Şeyx Haşim Qəzvini - nitq və mətləb zənginliyi baxımından biz başqa heç bir hövzədə onun bənzərini görmədik; nə Qumda, nə də Nəcəfdə - bəzən təxminən bir saat sürən Məkasib və yaxud Kifayə dərsinin ortasında on dəqiqə, yaxud daha çox nəsihət verirdi, tələbələr göz yaşı tökürdülər. Gəncin qəlbi hazırdır, bunu əldən verməyin; bir hədis oxuyun, iki kəlmə nəsihət verin. Bu əvvəl bizim özümüzə nəsihətdir. Mənim oxuduğum bu hədisin ilk müraciət tərəfi və nəticə

çıxarmalı olan ilk şəxs hədisi deyənin özüdür. Özünüz üçün də faydalı olacaq. Hövzənin buna ehtiyacı var.

Siz görün Nəcəfdə mərhum Hacı Mirzə Əliağa Qazi kimi isti nəfəsli bir insan nə qədər faydalar yetirdi. Mərhum ağa Qazinin şagirdləri harada oldularsa, faydalı oldular. Bir nümunəsi mərhum Əllamə Təbatəbaidir. O, Qumu nura boyadı. Qumda əqli elmləri o başlatdı, davam etdirdi və bu yolda əziyyətlər çəkdi. Mərhum ağa Qazinin digər şagirdləri və ondan təsirlənənlər haraya getdilərsə, belə oldu; Tehranda, Azərbaycanda, Nəcəfin özündə, Bürucerddə və digər yerlərdə harada onun şagirdləri vardısa, mənəviyyat mərkəzi və ruhanilik işığı oldular. Bunları görməzdən gəlmək olmaz.

Tələbələrə nəsihət verin, onları təfəkkürə, diqqətə, ölümü yada salmağa çağırın, uca məqamlara çatmaq və xalqın diqqətini cəlb etmək üçün dərs oxumaqdan çəkindirin. Tələbələr Allah üçün, Allah yolunda və Allahla dərs oxusunlar. O zaman hövzə bərəkətli olacaq.

# İkinci hissə: Elmi nümunələr tərəfindən irəli sürülən mövzuların araşdırılması

## Deyilən istək və arzuların reallaşmasının lazımlığı

Cənabların buyurduğu bu məsələlərin hamısı lazımi məsələlər idi. Mən onların başlıqlarını qeyd etdim. Həqiqətən bu məsələlərin heç biri az əhəmiyyətli məsələ deyildi; bəziləri olduqca əhəmiyyətli idi, bəziləri də əhəmiyyətli.

## *İstək və arzuların reallaşmasının şərtləri*

### *1. Əməldə ixlas*

Əvvəla ixlaslı olmasaq, Allah yolunda çalışmasaq, Allah üçün işləməsək, nəfsimizin istəklərindən və dünyagirliyimizdən irəli gələn problemləri tərk etməsək, bu istək və arzuların - onların çoxu arzu idi - həyata keçməsi mümkün olmayacaq; kiçik məsələlərdən ötrü bir-birimizin yaxasını tutsaq, müxtəlif dəstələr yaratsaq, heç bir şey olmadan hay-küy salsaq, bəllidir ki, bu arzulara çatmayacağıq və bu böyük işləri görməyə vaxt qalmayacaq.

### *2. Allaha təvəkkül*

Və əgər bu istəklər həyata keçsə də, ruhsuz olacaq. Biz müasir bəşərin qəlbini İslam qarşısında kiçiltmək istəyirik; öz qəlbimiz kiçilmədən bu mümkündürmü?! Deməli, kiçilmək və təzim etmək lazımdır. Allahın yardımı olmadan mümkün deyil; elm, yaxşı düşüncə, yaxşı zehin, parlaq istedad və güclü səy ilahi yardımla yanaşı olmasa, nəticə əldə olunmayacaq. Bundan ötrü isə Allaha təvəkkül etmək və işləri Ona tapşırmaq lazımdır.

## İnqilabın sayəsində hövzə tələbələrinin hövzə məsələlərinə dair düşüncə və baxış səviyyəsinin yüksəlməsi

Deyilən mətləblərə və hövzə barədə irəli sürülən fikirlərə gəlincə isə, əvvəla qeyd etdiyim kimi, mən həqiqətən həzz aldım. Doğrudan da Allaha şükür edirəm. Necə yaxşı sözlər, necə yaxşı düşüncələr, necə biçimli mətləblər bəyan olundu. Bunlar çox dəyərlidir. Sizə deyim ki, biz bu hövzədə təhsil alanda bəlkə də bütün hövzədə müxtəlif sahələrdə mətləbləri belə qisimlərə bölən bir nəfər də tapılmazdı. Yaxşı alimlər vardı, yaxşı ziyalılar vardı; həm fəzilətli, həm aydın fikirli, həm də görkəmli şəxslər idilər. Amma o zaman hövzədə müxtəlif məsələlərə baxış və düşüncə səviyyəsi əsla bu həddə deyildi. Bunlar inqilabın səmərəsidir; imamın hövzələrdə vurub hamını oyatdığı zəngin səmərəsidir.

## *Hövzədə aydın düşüncəli və görkəmli alimlərin meydana çıxması*

Mən əminəm ki, əgər vaxt olsaydı və cənab Mühəddisi daha on nəfərin söhbət etməsinə icazə versəydi, şübhəsiz, on yeni mətləb, yeni mövzu və yeni söz də eşidərdik. Bu yaradıcı və yaxşı sözlər təşrif buyurub söhbət edən bu cənablara məxsus deyil. Şübhəsiz, hövzədə belə yaradıcı, maraqlı, gözəl və şirin sözləri olan çoxlu insanlar var. Mən cənabların hər birinə təşəkkür edirəm.

## *Məclisin aparıcısına minnətdarlıq*

Məclisin ortasında cənab Mühəddisinin bu qısa çıxışlarından da həqiqətən həzz aldıq. Mən onun həm şeirini, həm də nəsrini dəfələrlə özündən eşitmişəm, amma bu

axşamkılar çox gözəl idi; həm onun nəsri, həm şeiri, həm dediyi sözlər və işarə vurduğu maraqlı məqamlar. Bu da öz növbəsində çox gözəldir.

## *Məclisin natiqlərinə təşəkkür*

Dostların buyurduğu məsələlər barədə mənim fikirlərim var, lakin indi deməyə imkan yoxdur, vaxt ötmüşdür. Amma başqa mövzulardan bir neçə başlığı deyəcəyəm.

Əvvəlcə cənab Xosrovpənah danışanda mən onun sözlərinin xülasəsinin altından yazdım: "Afərin!" Sonra cənab Zibainejad söhbət etdi, maraqlı məqamlara toxundu. Onun sözlərinin altından da yazdım: "Afərin!" Sonra cənab Şəbzindədar və digərləri söhbət etdilər. Gördüm ki, mən bu sözü hamısı üçün yazmalıyam. Odur ki, bir "Afərin!" yazıb axıracan ox işarəsi çəkdim.

Mətləblər çox yaxşı idi. Əlbəttə, fikir və nəzərlər var, amma indi deməyə macal yoxdur. Qısa olaraq yalnız bir kəlmə deyəcəyəm.

## *Arzuları əməli proqramlardan ayırmaq*

Cənabların buyurduğu bəzi məsələlər aktual məsələlər deyil, arzulardır. Yaxşı olar ki, biz arzularla proqrama salınmalı məsələləri bir-birindən ayıraq.

**Əməli təklifləri həyata keçirmək üçün proqram hazırlamağın zəruriliyi**

Bu gün hövzənin proqram hazırlamağa ehtiyacı var.

## *Proqram yazmaq üçün mənzərə sənədi hazırlamaq*

Əlbəttə, mənzərə mütləq tənzim olunmalıdır. Bu düzgündür. Bir mənzərə sənədi, yaxud bəzi cənabların dediyi kimi ruhaniliyin və yaxud elmi hövzənin xartiyası lazımdır.

Bu yazılmalıdır. Lakin belə bir mənzərini, yaxud xartiyanı hazırlamağın özü mühüm bir işdir, əsaslı layihədir. Beş mütəfəkkir və mütəxəssisin oturub bir məmuriyyət xartiyası hazırlaması, yaxud bir mənzərə sənədi yazması çox asan deyil. Onun bir mənzərə sənədi olması üçün müqəddimələr lazımdır. Əlbəttə, əgər belə bir mənzərə sənədi hazırlansa, zamanı təyin olunmuş proqramları onun əsasında hazırlayıb yazmaq olar; dönəm məqsədlərini təyin etmək olar; onillik məqsəd, iyirmiillik məqsəd, əlliillik məqsəd.

Amalların həyata keçməsi üçün qısamüddətli və uzunmüddətli proqramın lazım olması

Əlbəttə, bu işlər (mənzərənin tənzim edilməsi) mümkündür, lakin indi bizə lazım olan proqram hövzənin reallıqlarına, əməli və mümkün işlərə hesablanmalıdır. Proqram boşluğunda yaşamaq olmaz. Proqram hazırlamaq lazımdır. Mütləq uzunmüddətli və qısamüddətli proqramlar yazılmalıdır. Deməli, əməli məsələlərə baxmaq lazımdır; yəni haqlı olan və bir gün şübhəsiz, həyata keçəsi arzulara. Mən məyus və bədbin insanlardan deyiləm, bu arzuların həyata keçəcəyinə əminəm, lakin bu, şərait və reallıqların necə getməsindən asılıdır.

## *İcra olunası məsələlərin proqrama salınmasının zəruriliyi*

Hadisələrdə təsirli amillər çox zaman müxtəlif olur. Bu hadisələrin əksəriyyəti də insan zehnindən və proqnozdan uzaqdır. Proqnozu mümkün olanlar bunlardır: "Əgər siz Allaha yardım göstərsəniz, O da sizə yardım göstərər"; "Kim Allah üçün çalışsa, Allah onun üçün çalışar"; "Allah Ona yardım edənlərə mütləq yardım edər". Çünki qeybdəndir və Allah-Taala buyurub ki, O, ən doğru danışandır. Bundan başqa bütün bu araşdırma və proqramlara irad tutula bilər;

çünki hadisələrdə təsirli amillər proqnozdan uzaqdır. Beynəlxalq güclər də bu gün bunu bilir və nəzərə alırlar. Siz görürsünüz ki, bəzi məsələləri proqrama salır, yaxud elan edirlər, amma sonra həyata keçmir. Bu, onların peşman olduqlarına görə deyil, mümkün olmadığını gördüklərinə görədir, gözlənilməyən hadisələrin qarşıya çıxdığına görədir. Buna əsasən, icrası mümkün olan işləri ciddi şəkildə ortaya qoymaq və izləmək lazımdır.

## *Humanitar elmlərə aid mövzular*

### İslam humanitar elmlərinə diqqətin və indiki humanitar elmlərin tərk olunmasının zəruriliyi

Əziz qardaşımız cənab Fətəlixaninin bəyan etdiyi humanitar elmlər barədə də bir məqama toxunum. Baxın, biz demirik ki, humanitar elmlər faydasızdır; biz deyirik ki, indiki formada olan humanitar elmlər zərərlidir. Söhbət bundan gedir. Bizim dediyimizlə onun buyurduğu ayrı-ayrı sözlərdir, təsdiq və inkar obyekti eyni deyil. Söhbət bundan getmir ki, biz sosiologiyanı, psixologiyanı, yaxud idarəetməni, yaxud pedaqogikanı istəmirik, yaxud bunlar yaxşı elmlər deyil, faydasızdır. Şübhəsiz ki, yaxşıdır və mütləq lazımdır. Mənim sözlərimdən biri hövzədə bu təlim-tərbiyə məsələsidir. Söhbət bundan getmir ki, bu elmlər faydalı deyil; söhbət bundan gedir ki, bu gün bizdə olanlar bizim dünyagörüşümüzdən fərqli bir dünyagörüşə əsaslanır. Humanitar elmlər təbabət kimi deyil, mühəndislik kimi deyil, fizika kimi deyil ki, dünyagörüşün, insana və dünyaya baxışın təsiri olmasın; təsiri var. Siz materialist olsanız, humanitar elmləri müəyyən formada tənzim edərsiniz. Bizim humanitar elmlərimiz 15-16-cı əsr Avropasının pozitivist düşüncələrindən qaynaqlanır. Ondan öncə isə humanitar elmlər olmamışdır. Onlar 18-19-cu əsrlərdə, bir qədər öncə və bir qədər sonra həmin iqtisadiyyatı,

sosiologiyanı yazıb təqdim etmişlər. Bu bizim işimizə yaramır.

## *Qərbin humanitar elmlərinin bizim cəmiyyətimizdə tədris olunmasının nəticələri*

Bu humanitar elmlər tələbəni elə yetişdirir ki, o elmin - istər iqtisadiyyatın, istər idarəçiliyin, istər pedaqogikanın aktual məsələlərinə baxış qeyri-islam baxışı olur. Universitetdə idarəetmə, yaxud iqtisadiyyat oxuyan dindar bir şəxslə dini əsaslar və bu kimi məsələlər barədə nə qədər danışırıqsa, görürük ki, batmır; rədd etmir, amma sizin dediyiniz İslam iqtisadiyyatı onun elmi nəticələri və bu elmdə öyrəndiyi qəti qaydalarla uyğun gəlmir.

## *Hövzədə İslam humanitar elmlərinin əsasını qoymaq*

Mən humanitar elmlərin elmi hövzəyə gəlməsinə əsla qarşı çıxmıram. Mən deyirəm ki, elmi hövzə İslam təfəkkürünə və İslam dünyagörüşünə əsaslanan humanitar elmlərin əsasını qoymalıdır. Bu işi inqilabın əvvəlində cənab Misbah və onun təşkilatı başladı. Əgər bu günə qədər davam etsəydi, yaxşı nəticələr hasil olardı. Bu işlərə başlamaq lazımdır. Bu mümkündür, amma ilk növbədə humanitar elmlərlə tanış olmaq lazımdır; buna şübhə yoxdur. Buna görə elmi hövzədə humanitar elmləri oxusunlar, öyrənsinlər, bu elmlərin müxtəlif məsələləri ilə tanış olsunlar, sonra İslamın əsaslarına müraciət edib görsünlər ki, onların İslam təfəkkürünə oxşar məsələləri necədir və necə formalaşır. Odur ki, mən humanitar elmlərin faydalı olmadığını demirəm; deyirəm ki, indi mövcud olan zərərlidir, yaxşısını yaratmaq lazımdır.

# Üçüncü hissə: Hövzəyə aid məsələlər

Mən burada hövzə barədə də bəzi mətləbləri qeyd etmişəm. Ola bilsin onların bəzisini çıxarım, yaxud bu az vaxtda zəruri saydıqlarımı deyim.

## *Elmi hövzələrdə elmin əsas iş olması*

Bir məsələ budur ki, hövzə əsasən elm üçündür; hövzə elmi hövzədir. Deməli, elm bu hövzənin həqiqi quruluşunu, təməlini və kimliyini təşkil edir. Bütün elmi hövzələr belədir, yalnız Qum Elmi Hövzəsi yox. Yəni hövzə elmə əsaslanır. Elmə əsaslanmanın da şərtləri var və bu şərtlərə əməl etmək lazımdır.

## *Elmi hövzələrin elmə əsaslanmasının şərtləri*

### 1- Sual və şübhəyə imkan yaratmaq və onlara qarşı elmi yolla mübarizə aparmaq

Şərtlərdən biri budur ki, elmə əsaslanan təşkilat sual doğuran, sual yaradan olmalıdır. Elmi mövzu ortaya qoyulduqda sual ortaya qoyulur. Sualı yaxşı qarşılamaq lazımdır. Necə ki, bizim dəyərli sələflərimizin elmi ənənəsində bu mövcud olmuşdur. Siz baxın, fiqhdə elmi çəkişmələr çoxdur, bəzən sərt sözlər də deyilir. Məsələn Hədaiq kitabının mərhum müəllifi Mədarik kitabının müəllifinə qarşı bəzən sərt sözlər işlədir. Qarşılıqlı olaraq Cəvahir kitabının mərhum müəllifi Hədaiq kitabının müəllifinə qarşı bəzi yerlərdə çox sərt sözlər deyir. Əvvəllər də belə olmuşdur. Mərhum Əllamə Müxtəlif kitabının çox yerində İbn İdrisə qəribə şəkildə hücum edir və çox kəskin fikir bildirir. Öz növbəsində İbn İdris Şeyx Tusi ilə eyni tərzdə rəftar etmişdir. Bu normaldır, eybi yoxdur, amma elm sahəsində. Əgər İbn İdris sağ olsaydı, əllamə onun arxasında

namaz qılar, əlini də öpərdi. Əgər Mədarik kitabının müəllifi olan seyid sağ olsaydı, Hədaiqin müəllifi və digərləri onun arxasında namaz qılar, əlini də öpərdilər. Bunda şübhə yoxdur. Amma elmi məsələdə bir-biri ilə toqquşurlar. Bunun eybi yoxdur.

Bu toqquşmaların mənası odur ki, sual vermək, irad bildirmək, şübhə irəli sürmək, yeni məsələ və yeni üslub ortaya qoymaq eyib deyil. Əgər deyilən məsələ səhvdirsə, elmi üsulla rədd etmək lazımdır. Yəni elmi səhvlə üzləşdikdə ona göz yummaq olmaz. Kimsə elmi cəhətdən səhv etmişsə, göz yummaq və hörmətini saxlayıb bir söz deməmək düzgün deyil. Xeyr, elmi məsələlərdə belə bir şey yoxdur. Elmi yolla qarşısına çıxmaq lazımdır, amma sualın önünü kəsmək olmaz. Hövzə sualı kəsməməlidir. Sualı kəsmək elmi kəsməklə nəticələnir. Sualın yolunu bağlamaq olmaz.

## *2- Azadfikirlilik və müxalif nəzərləri bəyan etməyə imkan yaratmaq*

Başqa bir məsələ budur ki, hövzə azadfikirlidir. Elmiliyin xüsusiyyəti azadfikirli olmaqdır. Elmdə qapalılığın mənası yoxdur. Yəni əgər alimiksə, elmi hövzəyiksə, elmi işdə çalışırıqsa, düşüncəni azad qoymaq lazımdır; sözsüz ki, düşüncə sahibi üçün. Bəllidir ki, bir elmi təşkilatda düşüncə səlahiyyəti olmayan şəxs fikir bildirməyə cürət də etməz. Əgər fikir bildirsə, onun səhvini tutarlar və nöqsanı aşkar olar. Fikir bildirmək səlahiyyəti olan şəxs fikir bildirməlidir; istər fiqhdə, istər üsulda, istər fəlsəfədə, istər kəlamda, istər digər hövzə mövzularında və elmlərində; yəni azadfikirlilik olmalıdır.

## *Hazırda elmi hövzədə azadfikirliliyin olması*

Əlbəttə, bu azadfikirlilik var. Bunu hamımız qəbul etməliyik. Mən bir yerdə gördüm ki, bu gün Qum Elmi

Hövzəsində elmi azadfikirliliyin olmamasından yazmışdılar; yəni dünən vardı, bu gün isə yoxdur. Bu düzgün deyil; dünən də vardı, bu gün də var. Bu gün dünənkindən də çoxdur. Bu gün ən üstün fəqihlərin fiqh və üsul görüşləri tənqid olunur; elmi məqalələrdə imamın dəyərli və möhtəşəm fiqh və üsul görüşlərinin bəzisi tənqid olunur. Eybi yoxdur. Bizim fikrimizcə ən güclü və ən təsirli üsul qaydalarından olan və imamın ixtira etdiyi Qanun müraciətləri qaydasının əsası tənqid olunur; həm dərslərdə tənqid olunur, həm də məqalələrdə. Mən bəzi məqalələri də oxudum; gördüm ki, tənqid etmişlər. Əlbəttə, bizcə o tənqidlər düzgün deyil, amma hər halda tənqid olunur, heç kim də demir ki, niyə tənqid edirsiniz. Hövzəni tənqid və azadlığın olmamasında ittiham etmək olmaz. Təəssüf ki, biz bunu bir yerdə oxuduq, lakin bu səhvdir. Bu, hövzəni ittiham etməkdir.

## *Azadfikirliliyin dairəsini genişləndirmək*

Biz demək istəyirik ki, bu azadfikirliliyin dairəsi genişlənməlidir. Buyurduqları kimi fəlsəfədə Molla Sədranın sözləri Allah vəhyi deyil; fiqhdə Cəvahir kitabının müəllifinin və Şeyx Əzəm kimi bir şəxsiyyətin - bütün böyüklərə və fəqihlərə rəğmən, biz Şeyx Əzəmdən sonra bu günə qədər onun kimisini görməmişik - fətvaları Allah vəhyi deyil; nə fiqhdə, nə üsulda. Odur ki, rədd etdilər, irad bildirdilər, səhv tutdular və cavab verdilər. Hövzədə bu ənənə davam etməlidir.

## *3- Özünəinam və elmi cəhətdən özünə güvənmək*

### Elmi özünəinam

Başqa bir məsələ elmi özünəinamdır. Hövzə, hövzə alimləri və hövzə tələbələri elmi özünəinama nail olmalı və özlərinə güvənməlidirlər. Bu çox böyük əhəmiyyətə malikdir.

Nəzərlərin toqquşmasında, elmi hərəkətin keyfiyyətində və hövzənin dəyər dərəcələrində elm ən üstün meyar olmalıdır. Əlbəttə, təqva, mənəviyyat, zahidlik, Allah qorxusu və bu kimi məsələlər üstün və uca dəyərlərdir, lakin bunlar obyektiv reallıqlar və bilinəsi məsələlər deyil. Çoxları bu xüsusiyyətlərə malikdirlər, amma biz onları tanımırıq. Elm isə sınanır, göz önündə və çərçivə daxilindədir.

## *4- Elmi insaf*

Elmi hövzənin şərtlərindən olan və hövzənin elmi əxlaqının tələb etdiyi məsələlərdən biri də elmi məsələlərdə insaflı olmaqdan ibarətdir; elmi insafa malik olmaq lazımdır.

## *5- Müəllim və tələbənin ciddiliyi*

Sonrakı məsələ müəllim və tələbə üçün ciddilik və işi buraxmamaqdır. Yeni mədəniyyətin və Avropadan idxal olunan yeni təhsil sisteminin bəlalarından biri budur ki, müəllim yeni düşüncə istehsal etmək üçün özünə əziyyət vermir, çox zaman mütaliəsiz dərs deyir. Bizim müəllimimiz mütaliəsiz dərs demir; bizim müəllimimiz mütaliə edir, düşünür, fikirləşir, düşüncə ilə dərs deyir. Əgər siz Məkasib kitabını on dəfə tədris etsəniz də, on birinci dəfə yenə də fikirləşirsiniz ki, bəlkə nəzərinizə yeni bir şey gəldi.

## *6- Daxildə və xaricdə fəaliyyət göstərən elmi təşkilatlarla fəal rabitə*

Elmi hövzəyə lazım olan məsələlərdən biri ölkə daxilindəki və xarici cəmiyyətlə fəal rabitə qurmaqdır. Bəzi canablar çıxışlarında buna toxundular. Elmi hövzə dünyanın və ölkənin elmi hövzələri ilə elmi rabitə qurmalıdır. Keçmişdə rabitələr çox çətin olsa da, alimlər uzaq yerlərdən bir-biri ilə əlaqə saxlayırdılar. Mərhum İbn İdris özünün Sərair kitabında yazır

ki, filankəs - onun adı yadımda deyil - bir fətva vermişdi, mən ona məktub yazdım, o da cavab yazdı və mən qəbul etmədim. Keçmişdə məktublaşırdılar, elmi müzakirələr aparırdılar, bir alim filan elmi nəzəri rədd edirdi, bəzən bir-birindən soruşurdular. Mərhum Əllamə Simnani mərhum Ayətullah Milanidən yazılı şəkildə bir neçə fiqh məsələsi soruşmuş, o da cavab vermiş və barəsində müzakirə aparmışdılar. Bu müzakirələr sonra broşür şəklində çap olundu. Bunlar normal işlər idi. Bu, xüsusən yeni rabitə vasitələrinin ixtira olunduğuna görə bu gün də çox lazımdır. Deməli, ölkə daxilindəki hövzələr arasında, bir-biri ilə əlaqədar olan məsələlərdə hövzə və universitet arasında və ölkədən xaricdəki hövzələrlə elmi hövzə arasında uyğunluq, əlaqə, qarşılıqlı düşüncə və elm mübadiləsi lazımdır. Heç eybi yoxdur ki, Pakistanda, Hicazda, Misirdə və digər yerlərdə fəaliyyət göstərən Əhli-sünnə elmi hövzələri ilə rabitə qurasınız; sözsüz ki, qayda-qanunlu, tərif olunmuş və müəyyən mərkəzdən idarə olunan şəkildə. Çünki bu gün fərdi rabitələrin mənası və əhəmiyyəti yoxdur.

## *7- Qeyri-məşhur görüşləri vurmaqdan çəkinmək*

Əsası elm və bilik üzərində qurulan elmi hövzələrin xüsusiyyətlərindən biri məşhur nəzərlərə qarşı çıxan görüşlərin vurulmamasıdır. Əlbəttə, mən nadir görüşlərin ortaya qoyulmasının tərəfdarı deyiləm. Bəziləri belədirlər; nadir görüşlər axtarırlar. Bir məsələdə nadir görüş olmayanda da sanki onu icad edirlər. Bunu demək istəmirik, amma məşhur olmayan və məşhur alimlərin qəbul etmədiyi görüşlər var. Hər halda, bunlar da elmi nəzərdir, bunları vurmaq olmaz. Bu olmalıdır. Keçmişdə qeyri-məşhur olan bəzi görüşlər sonrakı dövrlərdə məşhur görüşlərə çevrildi. Siz quyunun

paklandırılması məsələsində və digər yerlərdə onun nümunələrini görmüsünüz.

## *8- Müxalif elmi nəzərlərlə məntiqli və əsaslı rəftar; kafir və fasiq elan etməkdən çəkinmək*

Elmi hövzədə müxalif nəzəri rədd etmək üçün qeyri-elmi üsullardan istifadə etmək olmaz. Elmi üsul nədir? Əsaslandırma və cavab vermək; əqli cəhətdən qane etmək, yaxud ən azı əsaslandırmaq. Qeyri-elmi üsul nədir? Kafir və fasiq elan etmək. Bu düzgün deyil. İstər fiqhdə, istər bəzi etiqadi mövzularda ixtilaflı nəzərlərin olması mümkündür; ola bilsin bir nəfərin müxalif fikri olsun. Bunu fasiq elan etməklə rədd etmək olmaz. Bəli, o görüşü əsaslandırma çomağı ilə bərk döyəcləyin; heç bir eybi yoxdur. Onun əleyhinə dəlil göstərin, yazın, birinin əvəzinə onunu yazın. Bu iş elmi hövzədə adət olmuşdur. Bəzən bir kitabın yazıldığını və on nəfərin, beş nəfərin onun əleyhinə yazı yazdığını görmüşdük. Bu çox yaxşı idi. Yazsınlar. Bu yazılar çox yaxşıdır. Amma fasiq, dindən və məzhəbdən xaric elan etmək məsləhət deyil. Bu, elmi üsul deyil. Bu da hövzənin elm mərkəzi olmasından irəli gələn bir məsələdir. Yəni hövzəni elm mərkəzi kimi qəbul etməyimiz bunu tələb edir.

## *9- Hövzələrin təhsil sistemini düşüncəyə sövq etmək və əzbərçilikdən çəkinmək*

Elm mərkəzi olmağın şərtlərindən başqa birisi budur ki, hövzədə təhsil təfəkkürlə, təkrarla və tədqiqatla yanaşı olsun. Bu da Avropadan idxal edilən yeni təhsil sistemində olmayan xüsusiyyətlərdəndir. O sistem əzbərçiliyə əsaslanır. Biz buna sarı yuvarlanmamalıyıq. Bizi buna sarı yuvarladan hər bir proqram qeyri-düzgün proqramdır. Öz proqramlarımıza baxıb görək hansı bir şey tələbəni əzbərçiliyə sarı qovur,

təfəkkürdən, tədqiqatdan və mütaliədən saxlayır. Əzbərçilik düzgün və faydalı deyil. Mən bir dəfə də işarə vurdum ki, bizim elmi hövzəmizin xüsusiyyətlərindən biri düşünməkdir. Tələbəni dərsə başlayarkən düşünməyə vadar etmək lazımdır. Bildiyiniz kimi, (hövzənin ilk kitabı olan Sərfi-Mir) "Bil ki, Allah sənə kömək olsun" cümləsi ilə başlayır. Məşhur idi, deyirdilər ki, nə üçün burada "oxu" yox, "bil" deyilmişdir. Məqsəd budur ki, əvvəla tələbədə sual vermək hissini dirçəltsin; sonra da onu başa salsın ki, oxumaq məqsəd deyil, bilmək məqsəddir. Bu, bizim proqram hazırlayanlarımız üçün həqiqətən ümumi bir prinsip olmalıdır. Müəllimlər də bu məsələyə diqqət yetirsinlər.

## *İmtahanların intizamlı və proqramla keçirilməsi*

İndi hövzədə imtahan vaxtıdır. Bu çox lazımlı və yaxşı bir şeydir. Düzdür, keçmişdə də imtahan olmuşdur, amma belə nizam-intizamlı və proqramla olmamışdır. Bu gün belədir və çox da yaxşıdır. Bu imtahanlara əsla əl vurmaq olmaz. Lakin bunun müəllimin dərsdə imtahan götürməsi ilə ziddiyyəti yoxdur. Siz dərsin ilk on dəqiqəsini tələbələrdən soruşmağa ayırın. Bu, sınaqdan keçmiş bir üsuldur. Mənim özüm Məşhəddə Kifayə, Məkasib və bu kimi kitabları tədris edəndə bu işi görürdüm. Dərsdən öncə kitabı açıb tələbələrin birinə deyirdik ki, siz dünənki dərsi oxuyun, yaxud deyin. Bu çox təsirli idi. Həm biz qarşı tərəfin savadını anlayırdıq, həm o, sualın və qayda-qanunun olduğunu bilirdi, həm də o məsələni bilməyənlər öyrənirdilər. Bunun digər faydaları da var. Xüsusən orta pillə dərslərində tələbəni bu düşüncəyə vadar etmək çox mühüm məsələdir.

## *10- Hövzənin orta pillə dərslərinə xüsusi diqqət*

Bu gecələrdə keçirdiyimiz məclislərdə cənabların biri ilə söhbət etdik. Bu məsələ mənim yadıma düşdü və dedim ki, orta pillə dərsləri çox mühümdür. Orta pillədə üsul və fiqh elmlərinin məğzini öyrənmək tələbənin ali-ixtisas (xaric) dərsindən yaxşı istifadə etməsinə bais olur, əks təqdirdə istifadə edə bilməyəcək.

## *Dövrə uyğun dərs vəsaiti hazırlamaq*

Söhbət indiki mətnlərdən getmir ki, qapanıb qalaq və mütləq həmin mətnlərin oxunmasını deyək. Xeyr, hövzəyə bu səadət nə zaman nəsib olsa, inşallah dövrə uyğun dərs vəsaiti də hazırlayacaq.

## *Mətnlərin dəqiq və tədqiqi dərki üzərində təkid*

Tələbə orta pillənin hər bir dərsini oxumalı və anlamalıdır. Bu mətnlərin dərkinə çalışmaq lazımdır. Əzbərçilik yerinə dərindən mənimsəmək, düşünmək və mətləbi tədqiqi mənimsəməkdən ibarət olan məqsədin həyata keçməsi üçün təkrarlamaq.

## *11- Tədqiqatın əsas məsələ olması və münasib tədqiqat sistemi tərif etmək*

Hövzədə tədqiqatın əsas məsələ olması da növbəti məsələdir. Hövzə üçün münasib tədqiqat sistemi lazımdır.

## *12- Fiqh və üsulda orta pillə dərslərinə əhəmiyyətli yanaşmaq*

Həmçini ali-ixtisas (xaric) dərsinə getməzdən qabaq fiqh və üsulda orta pillə dərslərinə əhəmiyyətli yanaşmaq lazımdır.

## *13- Hövzənin elmi kimliyinə diqqət və onun yalnız fiqh və üsulla məhdud olmaması*

Hövzənin elmi kimliyi də mühüm məsələdir. Bu yalnız fiqh və üsulla məhdud olmur. Fiqh və üsul çox mühüm elmlərdir; bunda şübhə yoxdur. Biz əvvəllər də demişik ki, bizim hövzələrimizin fəqərə sütunu fiqhdir. Amma bunun mənası o deyil ki, bizim fəlsəfəyə ehtiyacımız yoxdur. Bu gün bizim fəlsəfəyə keçmişdəkindən daha çox ehtiyacımız var. Bir zaman bizim böyük ruhanilərimiz, böyük müctəhidlərimiz fəlsəfə öyrənmək üçün uzaq yerlərə gedirdilər; məsələn Axund Xorasani Səbzəvarda Hacı Molla Hadinin yanına gedib şagirdlik etdi və fəlsəfə oxudu. Yaxud bizim böyük fiqh və üsul alimlərimiz gedib fəlsəfə oxudular, öyrəndilər. Bu gün ondan daha çox ehtiyacımız var. Mərhum Əllamə Təbatəbainin Nəcəfdə mərhum ağa Seyid Hüseyn Badkubeidən fəlsəfə öyrəndiyi zaman İslam fəlsəfəsinə ehityac bugünkündən dəfələrlə az idi. Bu gün dünyada bu qədər müxtəlif məktəblər, bütün bu yeni düşüncələr, bütün bu şübhələr, bütün bu düşüncə təklifləri irəli sürülür; özü də belə asan və sürətli rabitə vasitələri ilə; internetlə, kitabla, jurnalla və sair. Buna əsasən, fəlsəfəyə ehtiyac var. Yalnız fəlsəfəyə yox, Qum hövzəsində digər elmlərə də ehtiyac var.

## *14- Hər bir hövzə elmində ixtisaslı işin zəruriliyi*

Əlbəttə, bütün bu elmlərə yiyələnmək və onların hamısında mütəxəssis və nəzər sahibi olmaq yəqin ki, ya mümkün, ya da çox asan deyil. Keçmişdə də mümkün deyildi, bunu da sizə deyim. Bəzən bizim böyük fəqihlərimizin və böyük alimlərimizin bütün elmlərdə mütəxəssis olmalarına dair mərhum Şeyx Tusinin, yaxud Əllamə Hillinin adlarını çəkirlər. Bəli, Şeyx Tusi böyük fəqih idi, üsulda məktəb və

yenilik sahibi idi. Üsulun ilk təməllərini o zaman o və onun kimilər qoydular. Şeyx Tusi fəqihdir, üsul alimidir, təfsirçidir, hədisşünasdır, rical alimidir. Amma bu elmlərin hamısında birincidirmi? Xeyr. Düzdür, o, fiqhdə birincidir; deyilib ki, şeyxdən iki yüz il sonraya qədər bütün fəqihlər onun üsulubunu və yolunu davam etdirdilər; onlara təqlidçilər deyirlər. Lakin siz görürsünüz ki, ricalda Nəccaşi daha savadlıdır. Şeyxlə bir dövrdə yaşayan Nəccaşi ona nisbətən kənarda qalmış və tanınmayan bir adamdır, amma onun rical kitabının mötəbərliyi şeyxin kitablarından artıqdır; şeyxin həm Rical kitabından artıqdır, həm də Mündərəcat kitabından. Həqiqətən belədir; daha güclü və daha mötəbərdir. Yəni demək olmaz ki, şeyx ricalda da eyni əzəmətə malik olmuşdur.

Yaxud əllamə həm fəqihdir, həm məntiq alimidir, həm filosofdur, həm mütəkəllimdir, həm rical alimidir, həm də bunların hamısında kitabı var; fəlsəfədə "Hikmət əl-elm" kitabına şərh yazmış, müəllimi olmuş Dəbiran Katibi Qəzvininin kitabını şərh etmişdir. Amma əllamənin fəlsəfə kitabı bizim fəlsəfəmizin birinci dərəcəli kitablarından deyil. Yəni İbn Sinanın kitabları ilə müqayisə oluna bilməz, sonrakı filosofların kitabları ilə müqayisə oluna bilməz. Buna əsasən, biz deyə bilmərik ki, keçmişdə insanlar bütün elmlərdə mütəxəssis ola bilirdilər. Xeyr, bəzisi bir elmdə, bəzisi başqa bir elmdə mütəxəssis olurdular. Bəli, fiqhdə bir əllaməmiz var, bir mühəqqiqimiz var, fəlsəfədə, yaxud kəlamda bir Xacə Nəsirimiz var; eybi yoxdur.

Bu gün də belədir. Heç bir eybi yoxdur ki, bu gün də fəqihlərimiz olsun, filosoflarımız olsun, İslam humanitar elmlərində mütəxəssislərimiz olsun, təfsirdə mütəxəssislərimiz olsun - təfsirə əhəmiyyətsiz yanaşmaq olmaz; onun üçün

mütəxəssis lazımdır - təbliğat elmlərində mütəxəssisimiz olsun.

## Bütün hövzə elmlərində mütəxəssislərin elmi məqamına diqqət

Nə eybi var ki, hövzənin böyük alimlərindən kimlərsə təbliğat fənnini, bugünkü qəribə dünyada və cənab Kəbinin dediyi kimi, gələcəkdəki daha qəribə dünyada təbliğatın xüsusiyyətlərini tədris etsinlər. Müxtəlif fənlərdə müəllimlərimiz olsun, onların elmi məqamı qorunsun. Belə olmasın ki, kimsə fiqhin müəyyən bir dərəcəsinə yüksələn kimi cəmiyyətdə möhtərəm sayılsın, amma fəlsəfədə ən üstün dərəcəyə yüksələn şəxsə onun qədər hörmət göstərilməsin. Belə deyil. Bu da elmdir, İslam elmidir, hövzənin ehtiyacı olan elmdir.

## 15- Hövzə elmlərinin bölgüsü və prioritetlər

Mühüm işlərdən biri elmləri qruplara ayırmaqdır. Bəzi cənablar da bunu dedilər. Gəlin elmləri prioritet əsasında bölək, dərəcələrə bölək, dəyərləndirək, ehtiyaclarla ölçək. Əgər bugünkü ehtiyaclarla ölçülsə, mən qorxuram ki, nəticə ayrı cür çıxsın. Hər halda qəti olan budur ki, hövzədə fiqh elmi və onun davamı olan üsul elmi hövzənin əsas işidir. Lakin mən üsul elminin müstəqil bir elm kimi ixtisaslaşmasının tərəfdarı deyiləm və bunu hövzəyə çox faydalı bilmirəm. Üsul fiqhin xidmətində durmalıdır. Fiqh və üsul alimlərinin özləri etiraf edirlər ki, üsulun bəzi mövzuları fiqhə heç bir xidmət göstərmir, fihqlə əlaqəsi də yoxdur. Üsul fiqhin kənarında olmalıdır. Həmçinin digər mühüm fənlərə, məsələn fəlsəfəyə, təfsirə və kəlama əhəmiyyətli yanaşmaq lazımdır. Bu gün bizim kəlam fənninə nə qədər ehtiyacımız var! Bu fənlərin hamısı lazımdır.

## *16- Təhsildə yeni üsublardan istifadə etmək*

Hövzənin elm mərkəzi olmasına dair başqa bir məsələ budur ki, hövzənin kimliyi elmi kimlikdir. Buna görə də, təhsildə, təlimdə, elmin inkişaf və istehsalında yeni üsullardan qorxmaq lazım deyil, vahiməyə düşmək lazım deyil. Məqsəd elmdirsə, həqiqətən elm istəyiriksə və işin idarəsi alim insanların əlindədirsə, dini üsullar necə olsa, məqbuldur.

Mən bunu deyim; bu Qum hövzəsində proqramlı işlərin təşəbbüsçüsü yalnız fəqahət elmi ilə məşhur olan fəqihlərdən biri - yəni mərhum Ayətullah Gülpayiqani idi. Qum hövzəsində proqramlı mədrəsəni cənab Gülpayiqani təsis etdi; Həqqani mədrəsəsindən öncə. Mərhum cənab Behişti və digərləri Həqqani mədrəsəsini cənab Gülpayiqaninin mədrəsəsi əsasında yaratdılar. Mərhum cənab Behişti və digərləri oranın müəllimləri idilər. Sonra oradan çıxıb özləri Həqqani mədrəsəsinin əsasını qoydular. Cənab Gülpayiqaninin mədrəsəsi – deyəsən bu mədrəsə hələ də həmin adla fəaliyyət göstərir – hövzədə ən qədim proqramlı mədrəsədir. Cənab Gülpayiqani fəqahət işində alim, mütəxəssis və fəqahət məsələlərinə sadiq bir fəqih idi, amma təhsildə yeni proqram icra etməkdən qorxmadı. Əlbəttə, onun digər yenilikləri də vardı. Hövzədə kompüter proqramlarını başladan ilk yer də cənab Gülpayiqaninin təşkilatıdır. Sonra təbii ki, daha geniş yayıldı.

## *Hövzənin əxlaq və tərbiyə sistemi*

Bir məsələ də hövzədə əxlaq və tərbiyə sistemi məsələsidir. Vaxt çox ötdüyündən mən bunu deyib söhbətimi bitirirəm. Cənabların bir neçəsi tərbiyə və əxlaq barədə geniş söhbət etdilər və çox yaxşı məqamlara toxundular. Allah zəhmətlərinin əvəzini versin! Mən də o sözləri qəbul edirəm.

Tərbiyə və əxlaq məsələsi bizim üçün iki cəhətdən mühüm məsələdir:

## Hövzədaxili cəhət

Biri hövzədaxili cəhətdir. Biz hər halda ruhani və təbliğatçı olmaq istəyirik. Dedikləri həmin dəlillərə və qeyd etdikləri həmin cəhətlərə görə yaxşı əxlaqımız olmalıdır.

## Hövzəxarici cəhət

İkincisi hövzəxarici cəhətdir. Bizim təbriyə və əxlaqın əsasları ilə tanış olmadan fəth edə bilməyəcəyimiz çox geniş əhatəni ələ keçimək cəhətidir.

Baxın, ölkədə təlim və tərbiyə qurumları kimi çox geniş və məhsuldar bir tarla var. Biz əgər televiziyadan da söhbət etsək, məgər bizim minbərimizi dinləyən nə qədər dinləyici olacaq?! Lakin təlim və tərbiyə qurumları hər il milyonlarla dinləyici əldə edir; on iki il məktəblərdə qalan uzunmüddətli dinləyicilər. Bundan yaxşı vasitə varmı?! Qəlbləri və zehinləri doyuran bu kanal bu şəkildə məktəblərdə mərkəzləşmişdir. Biz məktəblərdə nə qədər çalışırıq? Demək olar ki, heç bir şey. Bir ruhaninin bir məktəbdə camaat namazı qılması, yaxud söhbət eləməsi bir şey deyil. Bu heçdir; əməlli-başlı heç.

## Tərbiyə və əxlaq məsələsində hövzədaxili islahın birinciliyi

Əgər bizim hövzə daxilində təlim və tərbiyə fənnimiz, fakültəmiz olsa, yaxşı pedaqoqlar yetişdirsək, əxlaq, təlim və tərbiyə hövzədə ciddi sayılsa, o zaman elmi hövzə və ruhanilər təlim və tərbiyə qurumlarında - orta məktəblərdə geniş fəaliyyət göstərə bilərlər. Bu o demək deyil ki, biz gedib Təlim və tərbiyə naziri olaq. Bu əsla təsirli yol deyil. Təlim və tərbiyə işi dərs vəsaiti hazırlamaq, müəllim yetişdirmək,

müəllimin dini tərbiyəsi, dini və qeyri-dini kitabların istehsalıdır. Yəni fizika, yaxud riyaziyyat kitabı tövhid dərsi də verə bilər, insanları dinsiz də edə bilər; şagirdə həm tövhid və dindarlıq aşılaya, həm də onu dinsiz, başlanğıca və sona etinasız edə bilər.

Biz elmi hövzəni hazırlamağı bacarmalıyıq. İndi elmi hövzə hazırlıqlı deyil. Mənim Təlim və Tərbiyə Nazirliyindən heç bir gileyim yoxdur; bunu sizə deyim. Mən hövzə adamıyam, özüm hövzəni görürəm. İndi hövzənin elə hazırlığı yoxdur ki, biz deyək cənab, gəl müəllim yetişdir, dini təfəkkürə və dini tövsiyələrə uyğun dərs vəsaiti hazırla. Bu iş də hövzəyə lazım olan işlərdəndir.

## *Digər ixtisaslarla məşğul olmağa görə fiqh və üsulun zəifləməsi şübhəsi*

Hövzənin işi çoxdur. Əlbəttə, biz filan ixtisasların tədrisinin, filan işlərin görülməsinin lazım olduğunu deyəndə bəzi adamlar deyirlər ki, siz fiqh və üsula etinasız yanaşırsınız; bizim hövzələrdən daha Cəvahir sahibi, yaxud Şeyx Ənsari kimi alimlər məzun olmurlar. Bu, çox təkrar olunan sözlərdəndir. Mən bu sözü qəbul etmirəm.

## *Şeyx Ənsari və Cəvahir sahibi kimi şəxslərin müstəsna olması*

Əvvəla Şeyx Ənsari kimisi hanı?! Bu işə məxsus olan hövzələr daxilində məgər neçə Şeyx Ənsari olmuşdur? Qeyd etdim; düşünmürəm ki, Şeyx Ənsaridən sonra onun şagirdlərindən və şagirdlərinin şagirdlərindən bu günədək kimsə Şeyx Ənsariyə çata bilsin. Bəli, onun sözlərini deyirlər, irad bildirirlər, iradlar da düzgündür. Amma şeyx başqa bir adamdır.

Şeyxin Cəvahir sahibindən sonra və onun üslubundan fərqli şəkildə hazırladığı fiqh ictihadı üslubuna baxın. Şeyxin Məkasib kitabını Cəvahir sahibinin Mətacir kitabı ilə müqayisə edin, onda şeyxlə Cəvahir sahibinin arasındakı fərqin nə qədər olduğu bilinər. Cəvahir sahibindən sonra biz elmi hövzələrdə nə qədər onun kimi şəxs yetişdirdik ki, indi Cəvahir sahibi yetişdirmədiyinə görə hövzədən gileylənirik?! Bunlar zirvələr idilər. Bir elmi və insani toplum hər uzun müddətdən sonra bir dəfə bir zirvəyə nail olur.

Əgər bizim dövrümüzdə Cəvahir, yaxud Şeyx Ənsari yetişmədisə, nə üçün bunu bacarmadığımıza görə gileylənmirik?! Məgər bu dərsləri kənara qoyub yalnız fiqh və üsuldan yapışsaydıq, indi bir neçə Cəvahir sahibimiz olardı?! Xeyr, Nəcəf hövzəsinin fiqh və üsula məxsus olduğu və ondan başqa bir şeyin olmadığı zaman da – mərhum Seyid İsfahani buyurmuşdu ki, yalnız fiqh və üsul olmalıdır – biz orada Cəvahir sahibi, yaxud Şeyx Ənsari kimisinin yetişdiyini görmədik. Bu, birincisi.

## *İndiki dünyada dinin təbliği və cəmiyyətin hidayəti üçün fiqh və üsulun yetərli olmaması*

İkincisi, biz düşünürük ki, bu gün dinin nökəriyik, adların nökəri deyilik. Ruhanilik nə üçündür? Ruhanilik xalqı dini cəhətdən təmin etmək üçündür; sözsüz ki, elmi şəkildə. O zaman bir tələbə Nəcəfə gəlib dərs oxuyurdu, fiqh və üsul öyrənib, rical öyrənib və bəzi digər elmləri öyrənib ruhani olurdu, alim olurdu. Əgər Nəcəfdə qalsaydı, Bəhrül-ülum, Kaşif əl-ğita olardı; əgər Nəcəfdən xaric olsaydı, Mirzə Qumi, Molla Mehdi Nəraqi, Molla Əhməd Nəraqi, Hacı Kəlbasi, Seyid Şəfti və digərləri olardı. Yəni bunların hər biri hansı

şəhərdə olsaydılar, öz xalqlarının mənəvi və düşüncə qidası və hidayəti üçün yetərli idilər.

Bir Seyid Şəftinin, yaxud bir Hacı Kəlbasinin, yaxud Məşhəddə bir Mirzə Mehdi Şəhidin özü və şagirdləri xalqı düşüncə baxımından qidalandıra bilirdilər. O zaman xalqı azdıran və səhvə salan amillər çox deyildi, insanların həmişə düçar olduğu şəxsi ehtiraslar idi; o da moizə ilə, nəsihətlə və bu kimi amillərlə böyük həddə aradan qaldırılırdı. Bir qədər də qalırdı. Təbii ki, həmişə günahkarlar olur.

O zaman televiziya yox idi, internet yox idi, bu qədər yeni kitab, jurnal və yeni düşüncələr yox idi; xalqın beyni daxilində bu qədər yeni fəlsəfələr yox idi; ev filmləri şəbəkəsi, peyk antenləri yox idi; gənci və qocanı təsir altına salan cazibə və əngəllər, müxtəlif düşüncə və şübhələr yox idi. O zaman məsələn Mirzə Qumi, yaxud Hacı Kəlbasi kimi bir alim bir şəhərə daxil olanda o şəhərin bütün əhalisindən elmli idi. Hər bir şəhərin alimləri bir neçə cümlə ədəbiyyat, yaxud əqli məsələlər, yaxud buna bənzər sözlər oxumuş şəxslər idilər. Bunlar onların hamısından yaxşı idi, üstün idi. Elmi toqquşma və güc sınama zamanı heç kəs onların öhdəsindən gəlmirdi. Amma bu gün belə deyil. Bu gün fiqh və üsul oxuyan bizlər bir şəhərə getdikdə hamıdan güclü olmuruq. Müxtəlif fənlərdə, müxtəlif işlərdə, müxtəlif sahələrdə, müxtəlif düşüncələrdə elmli, mütəxəssis və peşəkar insanlar var; tribunanı ala bilən bizim qədər güclü adamlar var. Bu gün dini təbliğ etmək üçün fiqh və üsul yetmir. Buna görə hövzələrin vəzifəsi çox ağırdır. Hövzə elmlərinin rəngarəngliyi qəti və ciddi bir ehtiyacdır və proqramlarda buna diqqət yetirmək lazımdır.

## *Günün üsullarından istifadə etməklə hövzə tələbələrinin sayını artırmağın zəruriliyi*

Burada qeyd olundu və mən də qəbul edirəm ki, hövzədə say məsələsi mühüm məsələdir. Bizim hövzələrimizin sayı azdır. Sayı artırmaq istəyiriksə, bəzi işlər görmək lazımdır. Yalnız ümumi elanla insanları gətirmək olmaz. Bu gün dünyada insanları cəlb etmək üçün müxtəlif üsullar vardır. Bu üsullardan istifadə etmək lazımdır. İstedadı, həvəsi və hazırlığı olan və hövzəyə gətirilməsi mümkün olan insanları cəlb etmək lazımdır.

## *Hövzənin müdiriyyət məsələsinin əhəmiyyəti*

Söz çoxdur, iş çoxdur. Xoşbəxtlikdən hövzə hərəkət istiqamətindədir. Allaha şükür olsun ki, bir neçə il öncədən etibarən mühüm işlər görülmüşdür. Bu müdiriyyət məsələsinə çox ciddi yanaşmaq lazımdır.

## *İndiki müdiriyyəti dəstəkləmək*

Nəzərdə tutulmuş və mövcud olan bu idarəçilik forması güclü və məqbul formadır. Bu müdiriyyətin altında təqlid müctəhidlərinin imzası var. Hövzənin müdiriyyətini və Ali İdarə Şurasını zəiflətmək olmaz. Boşluq yaradılmamalıdır. Gərək işlərini görsünlər. Kiminsə bir şeyə, bir sözə və bir hərəkətə etirazı ola bilər. Çox gözəl, etirazı bildirmək lazımdır; islah etmək olar. Amma ehtiyatlı olun ki, müdiriyyət zəifləməsin.

## *Müdərrislər Cəmiyyətini qorumaq və gücləndirmək*

Həmçinin bilin ki, Müdərrislər Cəmiyyəti yalnız şəxslər deyil. Bu, bir ictimai heyətdir, daimi bir orqandır, qırx ildən

artıqdır müxtəlif sahələrdə işlər görmüşdür. Onu qorumaq lazımdır.

## *Hövzə və düşməni tanımaq məsələsi*

### Düşməni və onun fikirlərini öyrənməyin zəruriliyi

Mən vaxtın azlığına görə bir neçə səhifəni ötürürəm. Burada qeyd etdiyim son məsələ budur ki, biz dinə, dinin möhkəmlənməsinə, təbliğinə və dindarlığın yayılmasına əhəmiyyət veririksə, bu fikirlərin düşmənini də tanımalıyıq. Bu dinin yayılmasından və dindarlığın güclənməsindən qorxan, onunla düşmən olan kimdir və hansı gücdür? Bu, Amerikanın durduğu və ən fəalının sionistlərdən – həm sionist şəbəkəsindən, həm də qondarma sionizm dövlətindən ibarət olduğu hegemonluqdur. Bunlar dindarlığın düşmənidirlər. Quranın yandırılması məsələsinə əhəmiyyətsiz yanaşmayın; əziz İslam Peyğəmbəri (s) əleyhinə karikaturaların çəkilməsini əhəmiyyətsiz saymayın. Əlbəttə, başlanğıcı Salman Rüşdi etdi. Amma ondan öncə və sonra nəhəng Hollivud və onun şirkətləri İslamofobiya işinə təyin olundular. Lakin İrandakı tərəfdarları deyirlər ki, İslam Respublikası sənət adamının əmrlə işləməsini gözləyir. Siz əmrlə işləyirsiniz. Elə bilirsiniz biz anlamırıq?! İslam inqilabından əlavə, İslamın, ruhaniliyin, Quranın, şəriətin və dindarlığın əleyhinə film hazırlamaq göstərişi də verilmişdir. Çox açıq şəkildə İslam inqilabı əleyhinə filmlər çəkir və danışırlar. Bunlar düşməndirlər. Dindarlığın, dini qəbul etməyin, dinə etimadın və onun rəvacının düşməni hegemonluqdan ibarətdir.

## *Hegemonluq qarşısında mövqe seçmək*

Hövzə hegemonluq qarşısında sakit dayana bilməz; bunu da deyim. Hövzənin hegemonluq qarşısında həmişə mövqeyi olmalıdır.

## Əməllərdə agahlıq

Agahlığın ən mühüm nümunələrindən biri budur ki, bizim hansı işimizin düşmənə kömək etdiyinə diqqət yetirək. Fərqi yoxdur, hövzənin böyükləri, kiçikləri – hamı ehtiyatlı olmalıdır. Bəzən bir söz, bir əməl, bir hərəkət o düşmənin xeyrinə nəticələnir. Biz bu məqsədlə etmirik, amma bəzi məsələlər niyyətə tabe deyil, öz təsirini bağışlayır. Tüfəngin lüləsindən bir güllə açılıb qarşı tərəfin sinəsinə dəydikdə yıxıb öldürür. İstər siz qəsdən edəsiniz, istər səhvən; fərqi yoxdur. Bu güllənin onun sinəsinə təsir göstərməsi sizin niyyətli olub-olmamanıza baxmır. Ehtiyatlı olun ki, səhv etməyəsiniz. Belə bir halda səhv edənlər üçün cəza da təyin etmişlər.

## Düşmənlə mübarizə

Buna görə ehtiyatlı olmaq lazımdır ki, kömək olunmasın. Bundan əlavə onunla mübarizə aparmaq da lazımdır.

İlahi! Deyib-eşitdiklərimizi Özün üçün və Öz yolunda hesab et!

İlahi! Bizi din elminə və Əhli-beyt (ə) təlimlərinə sadiq qalanlardan et!

İlahi! Məhəmməd və Ali-Məhəmməd (s) hörmətinə, dövrün imamının müqəddəs qəlbini bizdən, əməllərimizdən və sözlərimizdən razı et!

İlahi! Bizim ölümümüzü İmam Səccadın (ə) Səndən istədiyi kimi et! Bizim ölümümüzü öz yolunda şəhidlik et!

# İslam İnqilabının Böyük Rəhbərinin Qum Elmi Hövzəsinin bir qrup müəllim və nümunəvi tələbəsi ilə görüşdəki tələbləri

## *1. Müəllimlərin tələbələrə nəsihət verməsi*

